Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 10 (6152) 13 mart 2026-cı il | Qiyməti 40 qəpik

# İlham Əliyev: "Sülhdən daha yaxşı heç nə yoxdur"




**"Sülhdən daha yaxşı heç nə yoxdur". Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimində bildirib.**

**"Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri erməni qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edirdi, lakin bu sənədlər təxminən 30 il ərzində kağız üzərində qaldı. Bu da bir təcrübədir, lakin təəssüf ki, mənfi təcrübədir.**

**Daha sonra 2020-ci ildə 44 gün davam edən azadlıq müharibəsi zamanı ərazilərimizi güc yolu ilə azad etmək təcrübəsini yaşadıq. Düşünürəm ki, bu da mühüm göstəricidir: əgər sülh yolu ilə həllə ümid qalmayıbsa və həqiqət, ədalət, həmçinin beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün bəzən güc tətbiq etmək zəruri olur. Məhz belə də oldu. Biz Ermənistanla sülhə əvvəlcə güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə nail olduq.**

**Bax:səh-2**

## Azərbaycan bu ölkələrə təşəkkür etdi



**Azərbaycan Xarici İşlər Nazirliyi İranın Naxçıvana dron hücumundan sonra Azərbaycana həmrəylik göstərən ölkələrə və təşkilatlara təşəkkür edib.**

Adalet.az xəbər verir ki, nazirlik bu barədə "X" sosial media hesabında paylaşım edib. "Biz Azərbaycan ərazisinə İran tərəfindən həyata keçirilən dron hücumlarından sonra beynəlxalq tərəfdaşlarımızdan aldığımız dəstək bəyanatlarına, məktublara və telefon zənglərinə görə səmimi təşəkkürümüzü bildiririk.

Azərbaycanla nümayiş etdirilən həmrəyliyi, eləcə də ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına dəstəyin açıq şəkildə təsdiqlənməsini yüksək qiymətləndiririk.

Bu çətin zamanda Azərbaycanla həmrəylik göstərən bütün ölkələrə və beynəlxalq təşkilatlara təşəkkür edir, onların davamlı dəstəyini və əməkdaşlığını yüksək dəyərləndiririk", - paylaşımda qeyd olunub.

## Ərdoğandan İrana sərt xəbərdarlıq



**Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Onun sözlərinə görə, Türkiyənin sərhədləri ordunun 60 min şəxsi heyəti tərəfindən mühafizə edilir.

"Martın 4-də İrandan buraxılan və İraq ilə Suriya hava məkanını keçəndən sonra Türkiyəyə istiqamətlənən raket NATO tərəfindən zərərsizləşdirilib. İrana bununla bağlı bütün etirazlar çatdırılıb. Amma səmimi xəbərdarlıqlarımıza rəğmən, hələ də Türkiyənin dostluğunu çətinləşdirəcək təxribatçı addımlar atılır. Uzunmüddətli qonşuluq tariximizə kölgə salacaq problemlər yaşanmamalıdır. Biz daha çox qan tökülməsinə qarşıyıq".

## "Ədalət" qəzetinin əməkdaşı dünyasını dəyişdi



**Tanınmış jurnalist Nicat Novruzoğlu (Rüstəmov) dünyasını dəyişib.**

**Adalet.az xəbər verir ki, "Ədalət" qəzetinin parlament müxbiri uzun sürən xəstəlikdən sonra vəfat edib.**

**Allah rəhmət eləsin!**

## SEYRAN SƏXAVƏT ƏKRƏMƏ NƏ DEDİ?



**Əkrəm Əylisli "Azərbaycan" jurnalının baş redaktoru olarkən Seyranla dəfələrlə sözləri çəpləşirmiş.**

Onu da qeyd edək ki, Əkrəm Əylisli gödəkboylu olduğundan jurnalın bütün əməkdaşlarını da gödəkboylu seçmişdi, bircə İntiqam Qasımzadədən başqa. Çünki onu Əkrəm seçməmişdi, əvvəldən bu jurnalda məsul katib idi.

Yazıçılar İttifaqının qarşısında Əkrəm başının dəstəsi ilə, əshabələriylə yenə Seyranla mübahisə edir. Sonra əshabələrini göstərib deyir:

**- Seyran, uşaqlara deyərəm səni salarlar təpiklərinin altına.**

Seyran da onun əshabələrinə baxıb gülür və deyir:

**- Əkrəm, alnının ortasına bir yumruq vuraram, əshabələrin də sənin ardınca domino daşı kimi yıxılarlar.**

## Növbəti köç karvanları Xocavənd və Xocalı rayonlarına çatıb

Adalet.az xəbər verir ki, bu mərhələdə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə 20 ailə (81 nəfər), o cümlədən Füzuli rayonundan - 8 ailə (34 nəfər), Bakı şəhərindən - 6 ailə (27 nəfər), Beyləqan rayonundan - 5 ailə (18 nəfər), Ağcabədi rayonundan - 1 ailə (2 nəfər), Xocalı rayonunun Xanabad kəndinə, cəmi - 21 ailə (103 nəfər), o cümlədə Bakı şəhərindən - 8 ailə (45 nəfər), Bərdə rayonundan - 6 ailə (29 nəfər), Ağcabədi rayonundan - 3 ailə (16 nəfər), Oğuz rayonundan - 1 ailə (7 nəfər), Goranboy rayonundan - 1 ailə (3 nəfər), Gəncə şəhərindən - 1 ailə (2 nəfər), İsmayıllı rayonundan - 1 ailə (1 nəfər) köçürülüb.

## BU SƏNİN KİŞİLİYİN, BU DA MƏNİM...



Bir nəfər sürüsünü yaylağa çıxarırmış. Yolun üstündə bir Pir görür, ziyarət edir və deyir:

**- Sürümü sağ-salamat Arana qaytarsam bir qara qoçum var, sənə nəzir deyirəm.**

Nə isə, gedir dağa, düşür tufana, selə. Sürünün hamısı tələf olur, bircə qara qoç qalır. Kor-peşman qara qoçu götürüb dönür Arana. Pirə çatanda yenidən Piri ziyarət edir, qara qoçu bağlayır Pirin həyətindəki ağaca və deyir:

**- Bu sənin kişiliyin, bu da mənim!**

Hara, kimə, hansı ölkəyə yozursuz yozun.

Mejduproçim, yəni sözgəlişi, bu gün Azərbaycan İrana Fövqəladə Hallar Nazirliyinin maşınları ilə üç tır humanitar yardım göndərdi.

## *"Dünyanın dialoqa ehtiyac var"*

**Dialoq məhz hər bir müsir siyasi cəmiyyətin, eləcə də hər bir regionun və bütövlükdə dünyanın ehtiyac duyduğu əsas amildir.**

Adalet.az xəbər verir ki, bu sözləri XIII Qlobal Bakı Forumunun açılış mərasimində Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç deyib. O bildirib ki, qlobal miqyasda mövcud olan daxili bölünmələri mənalı şəkildə aradan qaldırmaq üçün əvvəlcə onların əsas səbəblərini anlamaq vacibdir. Eyni dərəcədə önəmli olan isə bir-birimizi dinləmək, fərqli baxışları rədd etmək əvəzinə onları qəbul etmək və anlamağa çalışmaqdır. Bu forumda biz həm də göstəririk ki, aramızdakı fərqlər, mahiyyətindən asılı olmayaraq, münaqişəyə səbəb olmamalıdır.

## GÜNÜN LƏTİFƏSİ

İki qadın söhbət edir:

- Az, ərin sənə pul verir heç?

**- Hə, əlbəttə, nə vaxt istəyirəm verir.**

- Doğrudaaaan?! Necə alırsan ki? Deginən biz də alaq da, bizimki heç vermir.

**- Atamın xarabasına gedərəm bir də geri dönmərəm - deyirəm.**

- Aha, sonra?

**- O da həmin dəqiqə çıxarıb yol pulu verir.**

## İlham Əliyev: “Sülhdən daha yaxşı heç nə yoxdur”



**“Sülhdən daha yaxşı heç nə yoxdur”. Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimində bildirib.**

”Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri erməni qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edirdi, lakin bu sənədlər təxminən 30 il ərzində kağız üzərində qaldı. Bu da bir təcrübədir, lakin təəssüf ki, mənfi təcrübədir.

Daha sonra 2020-ci ildə 44 gün davam edən azadlıq müharibəsi zamanı ərazilərimizi güc yolu ilə azad etmək təcrübəsini yaşadıq. Düşünürəm ki, bu da mühüm göstəricidir: əgər sülh yolu ilə həllə ümid qalmayıbsa və həqiqət, ədalət, həmçinin beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün bəzən güc tətbiq etmək zəruri olur. Məhz belə də oldu. Biz Ermənistanla sülhə əvvəlcə güc yolu ilə, daha sonra isə siyasi vasitələrlə nail olduq.

Mən deyərdim ki, son onilliklərin tarixində bu da nadir bir təcrübədir: bir ölkə öz suverenliyini və ərazi bütövlüyünü güc yolu ilə bərpa edib və bununla sülhə nail olub. Sülhə nail olmaq isə asan deyil. Bu gün də görürük ki, uzunmüddətli münaqişələr davam edir və dünya xəritəsində yeni gərginlik ocaqları yaranır.

Azərbaycan və Ermənistan arasında sülh prosesinə gəldikdə isə, bu da özünəməxsus bir vəziyyətdir. Belə ki, 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda əldə olunan sülhə qədər olan müddət iki ildən də az oldu. Məncə, bu, görünməmiş sürətdir. Bu isə güclü siyasi iradə və əbədi düşmənçiliyin mümkün olmadığını, müharibənin isə mütləq sona çatmalı olduğunu anlamaq sayəsində mümkün oldu. Bu, iki ölkənin verdiyi seçim idi. Hazırda isə, qeyd etdiyim kimi, artıq yeddi aydır ki, sülh şəraitində yaşayırıq və bunun üstünlüklərini görürük. Mən dəfələrlə demişəm və deməkdən yorulmayacağam ki, sülhdən daha yaxşı heç nə yoxdur”, - dövlət başçısı qeyd edib.

## Putin İlham Əliyevə təşəkkür etdi

**Martın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Vladimir Putin Rusiya vətəndaşlarının İran İslam Respublikasından təxliyəsində göstərilən operativ köməyə, həmçinin ölkəsinin İrana göndərdiyi humanitar yardımın Azərbaycan ərazisindən keçməsinə yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı liderlər Yaxın Şərqdə hərbi əməliyyatların tezliklə dayandırılmasının və münaqişənin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Dövlət başçıları ikitərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Strateji tərəfdaşlıq və müttəfiqlik prinsiplərinə uyğun olaraq Azərbaycanla Rusiya arasında qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə gələcək inkişafında qarşılıqlı niyyət təsdiqlənib.

## “Avropa İttifaqı ilə ikitərəfli münasibətlərimiz uğurla inkişaf edir”

**Biz sizin (Antonio Koşta - red.) səfərinizə böyük əhəmiyyət veririk və əminəm ki, bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına böyük töhfə verəcək. Onlar uğurla inkişaf edir, xüsusilə son dövrlərdə. Bizim çox fəal dialoqumuz var.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı qeyd edib ki, biz əməkdaşlığımızın çox fəal mərhələsindəyik.

# Nazir Vilayət Eyvazov Daxili Qoşunların 34 illiyi ilə bağlı tədbirdə

**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının 34-cü ildönümünü qeyd edir. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və hərbi qulluqçular Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

Adalet.az xəbər verir ki, sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların tarixinin parlaq hadisələrlə zəngin və Vətənimizin yeni tarixi ilə sıx bağlı olduğunu, xalqa və dövlətə sədaqətlə



xidmət edən Qoşunların hərbi qulluqçularının qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirdiklərini, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini vurğulayıb.

Nazir dövlət başçısının ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların maddi-texniki, hərbi tədris bazasının və institutunun, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, hərbi hissələrin müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün tədbirlər həyata keçirildiyini bildirib. O, DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətləri məmnunluqla qeyd edib.

Bildirilib ki, ölkədə ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, cinayətkarlığa qarşı mübarizədə, eləcə də keçirilən mötəbər beynəlxalq tədbirlər zamanı qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.

Nazir xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində də dövlət mükafatlarına layiq görülməsinin möhtərəm Prezidentin qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadının əyani ifadəsi olduğunu diqqətə çatdırıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov və komandanın birinci müavini - Qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış ediblər.

**Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.**

# Azərbaycan və Özbəkistan dövlət qurumları Anlaşma Memorandumu imzaladı

**Azərbaycan və Özbəkistanın hesablama palataları arasında Anlaşma Memorandumu imzalanıb.**



Adalet.az bu barədə Azərbaycan tərəfinə istinadən xəbər verir.

Məlumata görə, Azərbaycanın Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistanda işgüzar səfərdədir. Səfər çərçivəsində onunla Özbəkistan Ali Audit Orqanının sədri vəzifəsini icra edən Mehriddin Abdullayev arasında rəsmi görüş keçirilib. Görüşdə dövlət auditi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. Bu sənəd kənar dövlət auditi metodologiyası və prosedurları üzrə təcrübə mübadiləsinin həyata keçirilməsini, institusional potensialın gücləndirilməsini, eləcə də əməkdaşların peşəkar inkişafı istiqamətində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Tərəflər sənədin iki qurum arasında qarşılıqlı faydalı tərəfdaşlığın inkişafına, qabaqcıl audit təcrübələrinin paylaşılmasına, audit fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcəyinə əminliklərini ifadə ediblər.

Görüş çərçivəsində iki qurumun nümayəndələri müxtəlif mövzular üzrə təqdimatlar edib, qarşılıqlı fikir mübadiləsi aparıb. Azərbaycanın Hesablama Palatasının nümayəndə heyəti qurumun fəaliyyəti barədə ümumi məlumat təqdim edib, Palatanın beynəlxalq fəaliyyəti, kənar dövlət maliyyə nəzarəti sahəsində görülmüş işlər, eləcə də rəylərin verilməsi üzrə mövcud təcrübə haqqında ətraflı məlumat verib.

Özbəkistan tərəfi isə öz növbəsində qurumda həyata keçirilən rəqəmsal transformasiya prosesləri və məsafədən idarəetmə imkanları, dövlət büdcəsinin gəlir və xərclərinin auditi və monitorinqi mexanizmləri, həmçinin Özbəkistan Hesablama Palatasının fəaliyyətində ISSAI standartlarının tətbiqi mövzularında təqdimatlarla çıxış edib. Görüş qarşılıqlı sual-cavab və müzakirələrlə davam edib. Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Özbəkistan Hesablama Palatasının Məsafədən İdarəetmə Mərkəzinin fəaliyyəti ilə tanış olub.

# «Ölkəmizə zərbə dronları atanlara bu gün humanitar yardım göndəririk...»

**”İranın Naxçıvan aeroportuna və Şəkərbulaq kənd məktəbinə PUA zərbələrindən sonra Azərbaycan Respublikasının Prezidenti kifayət qədər sərt bir şəkildə əks tərəfdən açıqlama tələb etmişdi. Prezidentimizin bu bəyanatından sonra İran Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Prezidentinə zəng edərək mövcud gərginliyi aradan qaldırmaq üçün zəruri olan addımların atılacağına söz verdi”.**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. O, bildirib ki, məhz bir türk oğlunun telefon zəngi ilə Azərbaycan həm İranla bağlı olan sərhədlərinin açılmasına qərar verdi və sərhədlərin açılması qərarının ardından sonra da dərhal İrandakı soydaşlarımıza humanitar yardım göstərdi: ”Digər tərəfdən isə həm Xameneinin vəfatına görə Azərbaycan Prezidenti başsağlığı verdi, həm də onun yerinə seçilən Müştəbah Xameneini yeni dini lider seçilməsi münasibəti ilə təbrik etdi. Bütün bunlar onu göstərir ki, ilk növbədə Azərbaycan dövlət başçısı kifayət qədər sərrast və diplomatik uğurlara gətirib çıxaracaq addımlar atır. İkinci bir də Azərbaycan Prezidenti sübut edir ki, çətin vəziyyətdə olan İrana və orda yaşayan soydaşlarımıza humanitar yardım göndərməklə onları da diqqət mərkəzində saxlayır”.

Ə.Verdiyev deyib ki, İranın molla rejimi və onun nəzarətində olan SEPAH Azərbaycana qarşı kifayət qədər qeyri-dost münasibətlər bəzən düşmənçilik səviyyəsinə qədər qalxa bilən addımlar atıb: ”Lakin Azərbaycan Prezidenti öz müdrikliyi ilə bir daha sübut edir ki, biz yamanlığa belə yaxşılıq ilə cavab veririk. Biz heç bir zaman qonşularla münasibətlərin gərginləşməsində maraqlı olmamışıq. Azərbaycan işğal dövründə və ondan sonrakı son beş ildə, Vətən müharibəsindən sonrakı dövrdə İran tərəfindən atılan addımları, Ermənistana verilən dəstəyi heç bir zaman unutmayıb. Biz həm tarixi yadda saxlayırıq, həm də gələcək nəsillərə Azərbaycanı hansısa bir addımda günahlandırmaq üçün zərrə qədər imkan vermirik. Bu isə çox vacib məsələdir. Azərbaycan miqyasına görə kiçik ola bilər, amma onun bu gün atdığı addımlar kifayət qədər regional sülhüm bərpa olunmasına yönəlik addımlardır və gələcəkdə bu addımların nə qədər doğru qərarların olduğunun biz şahidi olacağıq. Bu günün miqyasında bəlkə bunlar diplomatik gediş kimi görünə bilər, amma əslində bunlar gələcək nəsilləri başıdik, qalib Azərbaycan dövlətinin təmsilçisi olmağımızla fəxr edə biləcəyimiz addımlardır. Ölkəmizə zərbə dronları göndərənlərə bu gün humanitar yardım göndəririk. Bu bütün dünyaya nümunə olacaq bir addımdır. Ümid edirəm ki, bütün bunlar İrandakı sağlam qüvvələr tərəfindən layiqincə qiymətləndiriləcək”.

**Vasif ƏLİHÜSEYN**

# "Azərbaycan dünya bazarında daha dayanıqlı qiymət tarazlığında maraqlıdır..."

**"Dünya bazarında Azərbaycan neftinin hər bareli 100 dollardan baha təklif edilir. Neftin bahalaşması büdcədən daha çox ayırmalara imkan yarada bilərmi?2026-cı ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 65 dollar nəzərdə tutulub. Təbii ki, illik orta qiyməti bir neçə günlük və ya həftəlik, hətta aylıq qiymətlər ilə müqayisə etmək olmaz".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, söhbət illik orta qiymətdən gedir:

"Bununla belə, "Statista"nın hesablamalarına görə, bu ilin yanvar ayında Brent markalı neftin bir barelinin orta qiyməti 62.54 dollar, fevral ayında isə 66.6 dollar olub. FRED isə orta qiymətlərin uyğun olaraq 66.6 və 70.8 dollar olduğunu bəyan edib. Göründüyü kimi, 2026-cı ilin ilk ayında dünya bazarındakı qiymət büdcədə nəzərdə tutulandan cüzi fərqlənib. Bu ayın ilk həftəsində isə neftin qiyməti 84-90 dollar intervalında dəyişib.2026-cı il üçün Azərbaycanın dövlət



büdcəsi gəlirlərinin 43 faizinin və ya 16,4 milyard manatının neft-qaz sektorunun payına düşəcəyi gözlənilir. Bunun 12,8 milyard manatı Dövlət Neft Fondunun transferləridir. Göründüyü kimi, neftin dünya bazar qiymətinin yüksəlməsi büdcə gəlirlərinin 3,6 milyard manatlıq hissəsinə birbaşa təsir göstərəcək".

Onun sözlərinə görə, qeyri-neft daxilolmalarına isə dolayı təsirlər qeydə alınır: "Fondun transferləri öz gəlirləri hesabına ödənildiyi üçün neftin qiyməti ilə o məbləğin birbaşa əlaqəsi olmur. Amma yüksək qiymətlər Neft Fondunun gəlirlərinin və eləcə də valyuta ehtiyatlarının artmasına səbəb olacaq. Deməli, orta illik qiymət yüksək olacağı halda neft və qaz sektorundan büdcəyə daha çox vəsait daxil olacaq.

Aydındır ki, dövlət büdcəsinin gəlirlərinin artması milli təhlükəsizlik, işğaldan azad olunan ərazilərimizin bərpası, sosial müdafiənin gücləndirilməsi kimi prioritet istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan yaradır. Daha çox gəlir, daha çox fiskal xərcləmə deməkdir. Bu eyni zamanda, qeyri neft-qaz sektorunun inkişafı üçün maliyyə təminatı da gücləndirir. Təbii ki, Azərbaycan dünya bazarında daha dayanıqlı qiymət tarazlığında maraqlıdır. Bütün hallarda isə, enerji ölkələri üçün yüksək neft qiyməti, daha çox valyuta gəliri deməkdir".

**Vasif ƏLİHÜSEYN**

# "Əslində ölkə iqtisadiyyatının əsas yükü özəl sektorun üzərindədir..."

**"Dövlət qulluqçularının pensiyası ilə bağlı müəyyən güzəştlərin artırılması istiqamətində yeni bir təklif səsləndirildiyini oxudum. Uzun illər dövlət xidmətində çalışan insanların sosial təminatının gücləndirilməsi sosial baxımdan başa düşülən yanaşmadır və müəyyən mənada dövlət xidmətinə verilən dəyərin göstəricisi kimi qiymətləndirilə bilər".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, lakin belə təşəbbüslər müzakirə edilərkən iki vacib məsələ nəzərə alınmalıdır:"Birincisi, bunun dövlət büdcəsinə və pensiya sisteminin uzunmüddətli maliyyə davamlılığına təsiridir.



İkincisi isə əmək bazarında dövlət və özəl sektor arasında balansın qorunmasıdır. Prinsip etibarilə dövlət qulluqçularının sosial təminatının digər sahələrlə müqayisədə həddindən artıq fərqlənməsi arzuolunan deyil. Çünki bir tərəfdən ölkədə özəl sektorun inkişafını təşviq etməyə çalışırıq, digər tərəfdən isə dövlət sektorunda əlavə sosial üstünlüklərin formalaşması təklif edilir. Bu əmək bazarında müəyyən disbalans yarada bilər. Əslində ölkə iqtisadiyyatının əsas yükü özəl sektorun üzərindədir (olmalıdır!) və dövlət də bu istiqamətdə müxtəlif təşviq mexanizmləri tətbiq edir. Ona görə də sosial təminatla bağlı qərarlar qəbul edilərkən həm dövlət xidmətinin dəyəri, həm də iqtisadi sistemdə ümumi balans nəzərə alınmalıdır. İqtisadi sistemdə hər addım müəyyən qarşılıqlı təsir yaradır və bu tarazlığın qorunması uzunmüddətli sabitlik üçün vacibdir".

**Sübhan**

# Polkovnik: "Əgər bunu edə bilsəydik, Xocalı faciəsi baş verməyəcəkdi..."

**"Xocalı aeroportuna İrəvandan gündə və həftədə bir dəfə reys gələ bilərdi. Ona qədər Xocalı şəhər polis şöbəsi bütün hadisələrin qarşısını almışdı. Milli Qəhrəman Əlif Hacıyev Xocalı aeroportuna komendant təyin ediləndən sonra orda fədakarlıq göstərməyə başladı".**

Bunu Adalet.az-a açıqlamasında Xocalı polis şöbəsinin ilk polis rəisi, polkovnik Sabir Məmmədov deyib.

O, bildirib ki, Xocalının Meşəli kəndində 10 nəfər Ağdam polisinin əməkdaşı xidmət edirdi:

"Daxili İşlər Nazirliyindən yerli polisə kömək etmək üçün 12 nəfər nümayəndə göndərilmişdi. Bilirsiniz ki, həmin vaxt bizim Müdafiə Nazirliyimiz, hərbçilərimiz yox idi axı. Ona görə də polislər və əhalinin köməyi ilə Xocalı müdafiə olunurdu".

Polkovnikin sözlərinə görə, Xocalı faciəsindən bir il öncə şəhərin bir çox kəndlərində ermənilər əhaliyə divan tutmuşdu: "Xocalı hadisəsinə qədər 1991-ci il dekabrın



23-də ermənilər Xocalının Umudlu, Kərkicahan, Ballıca, Malıbəyli, Meşəli və digər kəndlərindən əhalini təmizləmişdilər və hamısında da şəhidlər var idi. Meşəli kəndi Əsgəran ilə Xankəndinin arasında idi və həmin dövrdə Bakıda hakimiyyət davası getməsəydi, idarə olunsaydı, Əsgəran götürülsəydi, biz Xocalıda dayansaydıq, heç bu hadisələr başımıza gəlməyəcəkdi. Fevralın 25-də gecə saat 23:00-da Xocalıya hücum başladı. Fevralın 26-sı səhər saat 07:00-da hücum bitdi. Xocalı aeportunu itirmək isə xəstənin kislarodunu kəsmək kimi bir şey idi, artıq həyat dayandı". O, bildirib ki, Ermənilərə isə əsasən yaxından kömək edən Rusiyanın 366-cı motoatıcı alayı idi:

"366-cı alayda 1800 hərbçi var idi və onların da əksəriyyəti ermənilər idi. Xocalı işğal olunanda da onların 100-dən çox texnikası həmin hücumda iştirak etdi. 366-cı alay öndə, ermənilər isə arxada Xocalıya hücum etdilər. Sonradan qərar verdilər ki, guya fevralın 24-də alay ləğv edilib, amma bu yalan idi. Nəticədə 613 nəfər həlak oldu.

Onun 602 nəfəri sırf Xocalı sakini idi, 11 nəfəri isə mütəxəssislər idi. 50 mindən çox insan əlil oldu. Qarabağın işğalı Xocalıyla Şuşanın işğalına getdi. Xocalıdan sonra Şuşa işğal olundu. Şuşadan sonra bütün yüksəkliklər ermənilərin əlinə keçdi. Ağdamı vurdular və təsəvvür edin ki, Ağdam 6 mindən çox şəhid verdi. Qarabağda nə çətinlik olurdusa hamısı Ağdama gəlirdi.

Bu müharibə yüksəklik tələb edirdi. Aeroport nədir ki, yüksəklikdən bir-iki top atanda sıradan çıxarmaq olur. Bir aeroportu saxlamaqla şəhəri xilas etmək mümkün olmazdı. Mən daxili işlər nazirinə, o Elman Məmmədov isə Prezident Aparatına müraciət etmişdi. Ermənilər xalqımızın əzmini qırmaq istəyirdi".

Sabir Məmmədov 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra torpaqlarımızın işğaldan azad edildiyini bildirib:

"O hadisələrin içində olmağıma baxmayaraq çox çətin bir problem görürdüm. Şəhidlərimizə, qazilərimizə, Ali Baş Komandana öz minnətdarlığımızı bildirməliyik. Orda ordu, xalq birliyi ermənilərə qalib gəldi.

Öz gücümüzə qalib gəldik. Çünki vaxtında hərbi sənaye zavodunun işləməsi, texnika ilə təchiz olunması, Müdafiə Nazirliyimizin mükəmməl olması, iqtisadiyyatımızın möhkəmlənməsi qalib gəlməyimizə səbəb oldu. Biz bu gün suveren bir dövlətik. Millət və xalq üçün bundan xoşbəxt gün ola bilməz".

**Vasif**

# RƏMİŞSEVƏRLƏRƏ RƏMİŞSAYAĞI HƏDİYYƏ




**Yazıçı Aqil Abbasın qeyri-adi gitaraçı Rəmiş haqqında "Rəmiş" adlı yazdığı povest "Qanun" nəşriyyatında kitab halında çap olunmuşdur.**

Kitabın redaktoru Aytac Abdulova, rəssamı isə Rövşən Abbasdır. Kitabda XVI əsrdə yaşamış məşhur alman rəssamı Yulius Şnor fon Karolsfeldin "Bibliya"ya çəkdiyi illüstrasiyalardan istifadə edilmişdir.

Rəmiş qeyri-adi çaldığı kimi, povest də qeyri-adi yazılmışdır.

Rəmişi daha yaxından tanımaq istəyirsinizsə, bu kitabı oxumağınız məsləhətdir.

**Kitabı Rəmişi sevməyənlər də oxuya bilər və Rəmişi daha yaxından tanıya bilər.**

## *Baxçalı Azərbaycana PUA hücumundan danışdı*

**"Türkiyə üzərində qumar oynanılacaq bir ölkə deyil. Hər bir ölkə ağlını başına almalıdır".**



Adalet.az xəbər verir ki, bunu MHP lideri Dövlət Baxçalı partiyasının parlament qrup iclasında deyib.

O, İrandan atılan və Türkiyə hava məkanında zərərsizləşdirilən ballistik raketlə bağlı sərt açıqlamalar verib: "Bunun qəsdən törədilmiş bir hərəkət olmadığına inanmaq istəyirik. Bütün dünya bilməlidir ki, hava məkanımızda və ya Azərbaycan hava məkanında yolunu, istiqamətini itirmiş bir raket və ya pilotsuz uçuş aparatını bir də görmək, eşitmək və ya şahid olmaq istəmirik.

Türkiyə ilə Azərbaycan arasında nifaq toxumları əkməyə çalışanları rədd edirik.

Biz açıq münaqişələri və geniş yayılmış təxribatları rədd edirik. Biz dövriyyədə olan fikir ayrılıqları və fitnələri əlimizin arxası ilə itələyirik. "Bir millət, iki dövlət" reallığı tarixin, mədəniyyətin və ortaq təcrübələrin qiyməti nəticəsi və məsuliyyətidir. Həm sərhəd təhlükəsizliyimizi, həm də hava məkanımızın təhlükəsizliyini qorumağa borcluyuq".

## *"İran sərhədlərinin dəyişdirilməsi mümkün görünmür"*

**"İsrailin İranda mülki infrastrukturu və su anbarlarına endirdiyi zərbə ölkədə humanitar böhrana gətirib çıxara bilər. İsrail hesab edir ki, mülki infrastrukturu vurmaqla əhalinin rejimə qarşı etiraz dalğasına gətirib çıxaracaq. Amma, əhali burada rejimi deyil, İsrail və ABŞ tandeminə qarşı etiraz edəcək. Müharibədə mülki infrastrukturu vurmaq və humanitar böhran törətmək cinayətdir. İsrail Qəzza zolağında "xalça effekti" ilə bütün infrastrukturu sıradan çıxardırdı ki, əhali Qəzza zolağını tam tərk etsin. Əhali nəinki tərk etmədi, "Həmas" öz varlığını qoruyub saxlayır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, İranda da eyni ssenari tətbiq ediləcəksə, əhali rejimə qarşı çıxmayacaq:

"Artıq İran Ekspertlər şurası yeni dini lider seçib. Ümumiyyətlə, Ə. Xameneidən sonra dini liderin mövqeyi güclü olmayacaq. ABŞ-nin hücumları SEPAH zəifləməsinə gətirib çıxaracaq. Növbəti mərhələdə islahatçı qanadın mövqeyi möhkəmlənə, ABŞ ilə danışıqlar baş tuta bilər. Qeyd edim ki, Donald Tramp İranın bölünməsini istisna etməyib. Amma, İranın bölünməsinə Türkiyə, Pakistan müqavimət göstərə bilər. Ümumiyyətlə, İranın sərhədlərinin dəyişdirilməsi ABŞ strateji planında yoxdur. ABŞ-nin planı İranı zəifləmək və özünə sərf edən şərtləri qəbul etdirməkdən ibarətdir".

**Eldar**



Səxavət Məmməd

# Trampın Türk əsgəri planı

Total müharibələrlə lokal əməliyyatları fərqləndirən çoxlu cəhətlər var. Müharibələri qazandıran əsas amillərdən biri hazırlıq prosesidir ki, bu da təkcə silah-sursatla bitmir; mənəvi-psixoloji hazırlıq burada həlledici rol oynayır. Əməliyyatlarda ordunun döyüş qabiliyyəti və texniki təchizatı kifayət etsə də, müharibələrdə prosesə müxtəlif ideoloji donlar geyindirmək mütləqdir. Azərbaycan torpaqlarını işğaldan azad etmək və Xocalının qisasını almaq, Ukrayna isə vətəni müdafiə etmək ideyası ilə bu hazırlığı təmin etdi(r). Rusiya mənəvi hazırlıqla müharibə apara bilmədiyini gördükdə ictimaiyyəti "dünya ilə döyüşürük" iddiasına inandırmağa çalışır, savaşı isə pulla aparır. ABŞ və İsrail İranı nüvə təhlükəsi fonunda "şeytan" kimi göstərsələr də, məsələnin mahiyyəti hər kəsə aydındır: neft. Tramp 12 günlük toqquşmanın sonunda bəyan edirdi ki, İranın bütün nüvə potensialını məhv edib. İndi deyir ki, əməliyyata başlamasalar İran iki günə nüvə silahı əldə edəcəkdi. İran üçün isə bu müharibəyə hazırlaşmaq daha asandır; resurs bol, vətən müdafiəsi yolunda ölüm isə şəhidlik və cənnətlə mükafatlandırılmaq deməkdir.

İkinci Dünya Müharibəsində Almaniya dövrünün ən qabaqcıl texnologiyasına sahib idi. "Tiger" və "Panther" tankları mühəndislik şahəsəri sayılsa da, mürəkkəb asqı sistemləri və bahalı mühərrikləri onların kütləvi istehsalını çətinləşdirirdi. Almaniyanın bu "keyfiyyətli azlığı" SSRİ-nin "kafi dərəcədə yaxşı çoxluğu" tərəfindən boğuldu. SSRİ-nin T-34 modeli maksimal sadəliyi ilə fərqlənirdi; almanlar bir "Tiger" hazırlayana qədər, sovetlər onlarla T-34-ü cəbhəyə sürürdü. Strateji səhv həm də resursların parçalanmasında idi. Almaniya vəsaitini onlarla gizli və bahalı layihəyə dağıtdığı bir vaxtda, Müttəfiqlər resurs mərkəzlərini hədəf alırdılar. ABŞ bombardmançıları yanacaq zavodlarını məhv edərək alman qırıcılarını yerdə yanacaqsız qoydu, SSRİ isə "Uçan Tank"ları ilə alman piyadasını addım-addım sıradan çıxartdı. Hətta mühərrik seçimi belə dözümlülüyə hesablanmışdı; alman tanklarının benzin mühərrikləri şaxtada donarkən, sovetlərin dizel mühərrikli tankları hərəkətini davam etdirirdi. Almaniya həm də bugünkü dron texnologiyasının əsasını qoyaraq "Goliath", "Springer" və "Borgward IV" kimi müxtəlif yerüstü dronlardan istifadə etsə də, bu texnoloji sıçrayışlar onları resurs tükənməsindən xilas etmədi. Müharibəni ən mükəmməl silahı olan deyil, onu kütləvi və kəsintisiz şəkildə cəbhəyə çatdıran tərəf qazandı.

İran-ABŞ/İsrail qarşıdurması hərb tarixinə "Asimmetrik Tükəndirmə Müharibəsi" kimi düşəcək. Bir tərəfdə dünyanın ən bahalı texnologiyası, digər tərəfdə isə kütləvi və ucuz resurs strategiyası dayanır. İsrailin texnoloji zirvə sayılan qırıcıları radara yaxalanmadan strateji hədəfləri vura bilsə də, səmada eyni anda yüzlərlə ucuz kamikadze dronu peyda olduqda bu "görünməzlik" əhəmiyyətini itirir. Strategiya bu mükəmməl təyyarələri vurmaq deyil, onları faydasızlaşdırmaqdır; astronomik məbləğlərə başa gələn qırıcıları ucuz dronların dalınca qaçmağa məcbur etmək resursun səmada israf edilməsidir. Dünyanın ən effektiv müdafiə sistemləri belə burada riyazi bir tələyə düşür. Ucuz bir dronu zərərsizləşdirmək üçün ondan dəfələrlə baha olan raketlər sərf edildikdə, müharibə texnologiyanın iqtisadi məğlubiyyətinə çevrilir. Mürəkkəb radarlar eyni anda müəyyən sayda hədəfi izləyə bildiyi üçün İran yüzlərlə "yalançı hədəf" göndərməklə bu sistemləri doyurur və yayındırır. Müdafiə xətti bu "kəmiyyət"lə məşğul olduğu anda, arxadan gələn ballistik raketlər boşluqdan keçib hədəfə çatır. Logistika isə bu zəncirin ən həlledici həlqəsidir. Okeanın o tayından gələn hər bir ehtiyat hissəsi böyük zaman tələb etdiyi halda, resursu öz "arxa bağçasında" istehsal edən tərəf fabriklərini bir gün də dayandırmır.

Müharibənin hazırkı şərtlərlə bitməsi hərb tarixinə "Pirr qələbəsi" və ya strateji çıxılmaz vəziyyət kimi düşəcək. Trampın "bitir" dediyi nöqtədə mənzərəni emosiyasız təhlil etsək, qalib və məğlubları aydın görmək olar. İran bu qarşıdurmadan bir neçə kritik üstünlüklə çıxmış sayılır; o, ucuz dronlarla dünyanın ən bahalı müdafiə sistemlərini həm maliyyə, həm də logistik baxımdan iflic etməyin mümkünlüyünü sübut etdi. İsrailin "toxunulmazlıq" imicinin sarsılması regiondakı ərəb ölkələrinə "ABŞ sizi tam qoruya bilməz" mesajını verdi. Müharibənin dayanması İsrail üçün iqtisadi nəfəslik olsa da, İran təhlükəsini kökündən həll etmədi. ABŞ-ın öz anbarlarının boşalması və kənardan (Cənubi Koreya) mərmi axtarışına çıxması onun "Böyük Arsenal" statusuna ağır zərbə vurdu. Körfəz ölkələri Qərb texnologiyasının total müharibədəki logistik çatışmazlığını gördülər ki, bu da onların Çin və Rusiyaya doğru meylini sürətləndirəcək.

İran mövcud dünya nizamının yüksək texnoloji hərbi modelinin zəif nöqtələrini bütün dünyaya nümayiş etdirdi. Bu müharibə Qərb blokunun "texnoloji arxayınlığına" son qoydu. Avropa və digər asılı dövlətlər artıq anlayırlar ki, ABŞ-ın "nəhəng gücü" resurs tükənməsi qarşısında çox kövrəkdir. Bu, yaxın illərdə dünyanın hərbi-sənaye xəritəsinin yenidən cızılmasına səbəb olacaq.

Texnologiya bir döyüşü qazandıra bilər, ancaq resurs müharibəni qazandırır.

# MEDİA: "Bu hesabatda Azərbaycana dair qərəzli mülahizələr var"

**Avropa Şurasının Jurnalistikanın Müdafiəsi və Jurnalistlərin Təhlükəsizliyinin Təşviqi Platforması tərəfindən dərc olunmuş Avropada mətbuat azadlığının vəziyyətinə dair 2025-ci il üzrə illik hesabatda Azərbaycanın media mühiti ilə bağlı birtərəfli, qərəzli mülahizələrə yer verilib.**

Adalet.az xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) yaydığı bəyanatda bildirilib.

Qeyd olunub ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununa 2025-ci ildə edilmiş dəyişikliklərlə bağlı hesabatda əks olunan yanaşmalar spekulyativ xarakter daşıyır.

Bəyanatda vurğulanıb ki, "Media haqqında" qanuna dəyişikliklər cəmiyyətin və media ictimaiyyətinin tövsiyələri, istək və təklifləri əsas götürülməklə irəli sürülüb:

"Burada əsas məqsəd Azərbaycanın informasiya mühitinin qorunaraq sağlamlaşdırılması, media brendinin möhkəmləndirilməsi və peşəkar jurnalistin nüfuzunun gücləndirilməsi, cəmiyyətin tələblərini nəzərə alaraq informasiya məkanında bu və ya digər neqativ hallara qarşı mübarizə kontekstində dövlət tənzimlənməsində həssaslığın artırılması, çevikliyin təmin olunmasıdır. Bu tip spekulyativ yanaşmalardan biri də çap mediası subyektlərinə dair fikirlərdə təzahür edir. Halbuki hesabatda göstərilənlərdən fərqli olaraq müvafiq dəyişikliklərdə ümumən media subyektlərinin adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanıltda bilən ifadələrdən istifadənin yol verilməzliyi ilə bağlı müddəa yer alır, bu da xarici və beynəlxalq təcrübədə geniş tətbiq olunan, istifadəçilərin subyektdən gözləntilərinə dair hüquqlarının, həmçinin media subyektlərinin marka dəyərinin qorunmasına xidmət edir".

Qeyd edilib ki, Azərbaycanda jurnalistlərin peşə fəaliyyətinə görə hər hansı məhdudiyyət mövcud deyildir və ölkədə ifadə azadlığı hüquqi və praktiki olaraq tam təmin edilib.

"Azərbaycanda irqi, dini, mənşə, cinsi, etnik, habelə peşə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabər məsuliyyət daşıyır. Hesabatda adı hallanan konkret şəxslərlə bağlı məsələ üzrə isə bildiririk ki, ictimaiyyətə açıq olan iş materiallarının təfərrüatlarından həmin şəxslərin peşə fəaliyyətləri ilə onlara qarşı irəli sürülmüş cinayət və inzibati ittihamlar arasında heç bir əlaqənin olmadığı, müvafiq iddiaların sadəcə uğursuz manipulyasiya cəhdlərini ifadə etdiyi aydın görünür. Bununla yanaşı qeyd edirik ki, media subyektlərinin müvafiq qaydada qeydiyyata alınması və Media Reyestrinə daxil edilməsi ilə bağlı tələb Azərbaycanda fəaliyyət göstərən bütün media subyektlərinə, o cümlədən xarici media subyektlərinin filial və nümayəndəliklərinə münasibətdə tətbiq edilir və bu istiqamətdəki yeni yanaşmalar mahiyyət etibarilə yalnız texniki-təşkilati baxımdan səmərələşdirici xarakter daşıyır", - deyə bəyanatda vurğulanıb.

Agentlik bildirib ki, Media subyektlərinin Reyestrə informasiya agentliyi kimi daxil edilməsi üçün nəzərdə tutulan tələblər formalaşdırılarkən mövcud praktikanın təhlilinin nəticələri əsas götürülüb: "Həmçinin informasiya agentliklərinin mahiyyət etibarilə yalnız istehlakçıların deyil, eyni zamanda digər peşəkar media subyektlərinin də məzmunla təmin edilməsi sahəsindəki müstəsna fəaliyyəti diqqətə alınıb. Hesabatda istinad olunan Azərbaycanda diffamasiya ilə bağlı qanunvericiliyin mövcud vəziyyətinə dair 2024-cü ildə Platformada dərc olunmuş müvafiq materialla əlaqədar xatırlatmaq istərdik ki, həmin materialda əksini tapan iddialara münasibətdə mövqeyimiz eyni ildə qarşı tərəfə rəsmi şəkildə bildirilib. Azərbaycanla bağlı belə hesabatlar hazırlanarkən rəsmi mövqeyin nəzərə alınmaması, faktların deyil, ehtimalların, subyektiv rəy və mülahizələrin əsas götürülməsi təəssüf doğurur".

# Politoloq: "İrandan atılan dronlar hər iki dövləti narahat edir..."

**"Qəribə vəziyyət yaranıb. Azərbaycan və Türkiyə Prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan İran Prezidenti Məsud Pezeşkianla telefonla danışırlar, ölənlərə başsağlığı verirlər, seçilən yeni dini lideri təbrik edirlər, bundan bir-iki saat sonra isə İran ərazisindən qonşu ölkələrə yenə dron atılır. İran Prezidenti qonşu ölkələrdən üzr istəməklə nə qədər SEPAH generallarının təxribatlarını malalamağa çalışsa da, növbəti dron Məsud Pezeşkianın səylərinin üstündən xətt çəkir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.



"Belə nə qədər davam edəcək? Azərbaycan və Türkiyə müharibənin əleyhinədirlər, danışıqlara üstünlük verir və İranın ərazi bütövlüyünü dəstəkləyirlər. İrandakı mühafizəkar rejim isə SEPAH generalları ilə əl-ələ verərək, alovu qonşu ölkələrə yaymağa çalışırlar. Türkiyədə ictimai rəy anti-İsrail və anti-Amerika mövqeyindədir, bunun müxtəlif səbəbləri var. Azərbaycanda ictimai rəy bir qədər fərqlidir. Buna baxmayaraq, Azərbaycan və Türkiyə strateji müttəfiqdirlər və İrandan atılan dronlar hər iki dövləti narahat edir.

Belə vəziyyətdə "Şuşa bəyannaməsi"ndən də çıxış edərək iki dövlət arasında siyasi və hərbi koordinasiyanı gücləndirməyə ehtiyac var", - deyə o, bildirib.

**Vasif**

## Sənaye istehsalı 3,6 milyard manata çatdı

**Bu ilin yanvar ayında Bakıda sənaye sektorunda istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 3,6 milyard manat təşkil edib.**

Adalet.az bu barədə Bakı şəhər Statistika İdarəsinə istinadən xəbər verir. Məlumata görə, sənaye məhsulunun 70,0 faizi mədənçıxarma, 25,1 faizi emal, 3,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Hesabat ayında sənayedə qeyri-dövlət sektorunun payı 83,3 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 86,4 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 13,6 faiz təşkil edib.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 fevral 2026-cı il vəziyyətinə 431,8 milyon manatlıq hazır məhsul ehtiyatı olub.

Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 39,9 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

## Ev almaq istəyənlərə şad xəbər

**Ucuz mənzillər satışa çıxarılır. Adalet.az-ın məlumatına görə, bu evləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi satışa çıxarır.**



Belə ki, söhbət üç və dörd otaqlı, tam təmirli mənzillərdən gedir. Mənzillər Ümid qəsəbəsində, Samux və Abşeron rayonlarında yerləşir. Bu evləri həm ipoteka krediti vasitəsilə, həm də nağd ödənişlə almaq mümkündür. Bunun üçün ms.sosial.gov.az saytına daxil olaraq satışa çıxarılan mənzillərlə tanış ola bilərsiniz. Saytda hər bir evin şəkilləri, yerləşdiyi mərtəbə, kvadratmetri və digər bütün detalları göstərilir. Bəyəndiyiniz evi bron edirsiniz. Daha sonra nazirlik sizinlə əlaqə saxlayır və mənzilə yerində baxmaq imkanı yaradılır. Evi bəyəndiyinizi təsdiqlədiyiniz halda, 10 gün ərzində nazirliklə sizin aranızda alqı-satqı müqaviləsi bağlanır.Əgər bron etdiyiniz mənzildən imtina etsəniz, həmin ev növbəti bron edən şəxsə təklif olunur. Bir mənzil üzrə ümumilikdə üç nəfərə qədər bron imkanı verilir. Ətraflı məlumat əldə etmək üçün ms.sosial.gov.az saytına daxil ola bilərsiniz.



Rüstəm Hacıyev

# İranda müharibə başa çatdımı?...

*Əli Xameneinin oğlu Müstəcəbanın İranın yeni rəhbəri təyin olunması, rejimin əleydarlarına qarşı ciddi çağırış kimi qiymətləndirilməlidir. Müstəcəba İran elitasının konservatuv qanadını təmsil edir. Bu isə, o deməkdir ki, yeni lider əvvəlki siyasi kursu davam etdirəcək, ABŞ və İsraillə qarşıdurmanı davam etdirəcək.*

*Görünən odur ki, Yaxın Şərqdə münaqişə, Birləşmiş Ştatların əvvəldən də planlaşdırdığı kimi aktiv şəkildə qonşu dövlətlərə də siyarət etməkdədir. İsrail sərhədlərində TSAXAL və "Hizbullah" arasında döyüşlər davam edir. Livanın cənub bölgələrində yaşayan insanlar evlərini tərk etmək məcburiyyətində qalıblar. Vətəndaşların kütləvi şəkildə yaşayış yerlərini tərk etməsi nəticəsində yollar iflic vəziyyətinə düşüb. Bir sözlə, vəziyyət istənilən vaxt nəzarətdən çıxa bilər.*

*ABŞ və İsraillə münaqişə fonunda Müstəbacanın İran İslam Respublikasına yeni Ali dini lider təyin olunması, bir daha göstərir ki, mövcud siyasi kurs davam etdiriləcək.*

*ABŞ prezidenti Donald Tramp, İran İslam Respublikasına yeni liderin təyin olunmasını tənqid edərək bəyan edub ki, yeni lider onun iştirakı və məsləhəti ilə təyin olunmalıdır. Ağ Evin rəhbəri Alxos portalına müsahibəsində bildirib ki, Müstəbaca Xameneinin yeni liderliyə namizədliyi qəbuledilməzdir: "Vaşinqton İrana harmoniya və sülh gətirəcək bir lider görmək istəyir".*

*Trampın sözlərinə görə, İranda müharibə praktiki olaraq başa çatıb. "Ölkənin artıq nə dəniz qüvvələri qalıb, nə rabitə sistemi, nə də hərbi hava qüvvələri var". Amerikan lider daha sonra əlavə edib ki, guya əməliyyat nəzərdə tutulduğundan da tez başa çatıb, yəni müharibə bitib.*

*Əslində isə, müharibə hələ indi-indi qızışmağa başlayıb. Donald Tramp bəlkə də, müharibənin ABŞ üçün bitdiyini "nəzərdə tutur", region ölkələrinin davam edən qarşıdurmalarını hesaba almır. Necə deyərlər, "aranı qızışdırıb regionu qan çanağına döndərməklə işini bitmiş hesab edir".*

*İranda mövcud rejimi devirmək niyyətiylə, Ali dini rəhbər Əli Xameneini ailə üzvləri ilə birlikdə qətlə yetirən İsrai, hakimiyyətin dəyişməsi ilə barışmadığını elan edib və əyatullanın yerinə seçiləcək istənilən liderə qarşı da, hücumlarını davam etdirəcəyi ilə bağlı xəbərdarlıq edib. Yəni, İsrail hesab edir ki, İrana qarşı aparılan əməliyyatların məqsədi hakimiyyəti deyil, məhz rejimi dəyişməkdir.*

*Beləliklə, ABŞ prezidentinin "müharibə sona çatıb" bəyanatı, heç də reallığı əks etdirmir. Reallıq isə onu göstərir ki, müharibə hələ indi qızışmağa başlayır...*

# İlahiyyatçı: "İftar adı ilə qiymətləri qaldırıb qazan artırmağı düşünürlər..."



**"Bir çox müsəlman ölkələrində Ramazan ayında dükanlar, ticarət müəssisələri qiymətlərdə endirim edir, kasıb təbəqənin durumuna uyğun əlavə yardımlar həyata keçirirlər. İnanırlar ki, bu xeyirxahlığın qarşılığında həm savab qazanırlar həm də kasıb adamları sevindirmiş olurlar". Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.**

"Bizdə isə tam tərsinədir. Ticarət müəssisələrinin sahibləri düşünür ki, ildə bir dəfə ələ düşən fürsəti fövtə vermək olmaz, mütləq əhalini soymaq lazımdır. İftar adı ilə menyular, qiymətləri daha da bahalaşdırmaq, mümkün qədər saxta məhsulları da gözünə qatıb camaata sırımaqla maddi qazancı artırmağı düşünürlər. Şübhəsiz ki, bu dindən ticarət məqsədi ilə sui-istifadə halıdır və imansızlıqdan irəli gəlir", - deyə o, bildirib.

**Vasif**

# Bakıda dövlət xətti ilə ən çox ipoteka krediti Xətai rayonunda verilib

**Bu il yanvarın 1-nə qədər Bakıda dövlət xətti ilə 44 048 ipoteka krediti verilib.**

Adalet.az bu barədə İpoteka və Kredit Zəmant Fonduna istinadən xəbər verir.

Paytaxtın ayrı-ayrı rayonlarına gəlincə, kreditlərin 22 %-i və yaxud 9 693-ü Xətaidə, 19,6 %-i və yaxud 8 632-si Yasamalda, 12,7 %-i və yaxud 5 577-si Binəqədidə, 5 061-i Suraxanıda, 3 364-ü Nizamidə, 3 354-ü Nəsimidə 3 175-i Nərimanovda, 1 946-sı Sabunçuda, 1 442-si Səbaildə, 925-i Qaradağda, 832-si Xəzərdə, 47-si isə Pirallahıda verilib.

# "Əgər İran İslama riayət edirsə, müsəlman qonşuya qarşı..."

**"İran rejimi İslam dinini təhrif edərək siyasi alətə çevirib. Qurana görə küfr və haram sayılan bütün əməlləri təqiyyə, siyasət, sionizmlə mübarizə adı altında aşkar şəkildə həyata keçirir. Müharibə başlayan gündən ancaq müsəlman ölkələrini bombalayır və İsrailin də əsasən ərəblər, digər millətlərdən olan müsəlmanlar yaşayan rayonlarını vurur. Eyni zamanda Türkiyə və Azərbaycana da raket və dron hücumu icra edib. Siyasi rejimin mahiyyətindən doğan vəziyyətə görə prezidentin səlahiyyətləri məhdud olsa da hər halda üzr istəmək səlahiyyəti yerində idi, dolayı və dolaşıq da olsa qonşu ölkələrdən üzrxahlıq etmişdi".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Tural İrfan deyib.

O, bildirib ki, lakin şüubiyyə mollalarının qılıncı olan SEPAH-ın bəyanatında açıq-aşkar prezidentin səhv etdiyi deyildi:

"Ancaq mübahisəsiz və şübhəsiz olaraq bilirik ki, Naxçıvana dron zərbəsi İrandan gəlib. Dövlət başçısı səviyyəsində bu məsələyə münasibət bildirilib, hadisə terror aktı kimi qiymətləndirilib, namərdlik hesab edilib, müvafiq açıqlamalar verilib, uyğun addımlar atılıb. Bir çox dost, müttəfiq ölkələr öz narahatlıqlarını və münasibətlərini ifadə edib İran tərəfdən törədilmiş hadisəni qınayıblar. Törətdiklərini öncə etiraf etmək istəmədilər. Sonra da bunu təhdid üçün etdiklərini yazdılar. Səfir isə bu xəbərləri yayan SEPAH-a məxsus teleqram kanallarından bixəbər olduğunu dedi".

Onun sözlərinə görə, dünya mətbuatı və siyasiləri tərəfindən yayılan rəsmi məlumatlara görə savaş yeni başlayan günlərdə İranda məktəbin vurularaq uşaqların həlak olmasının da təşkilatçıları heç şübhəsiz ki, rejimin özüdür:

"Çünki əhalinin rejimə qarşı etirazlarını yalnız bu metodla neytrallaşdırıb diqqəti daxili düşməndən xarici düşmənə qarşı yönəldə bilərdilər. Müəyyən qədər bu effekt verdi, insanları inandıra bildilər ki, məktəbi ABŞ vurub. 1941-ci ildə SSRİ-nin Hitler Almaniyası ilə müharibəsi zamanı Ukraynada müəyyən



bölgələrin savaşmaqdan imtinasının qarşısını almaq üçün Stalin, üzərinə alman xaçının şəkli çəkilmiş qırıcılarla əhalini bombalatmışdı. Ondan sonra əhali rahat şəkildə savaşa qatıldı. İran rejiminin də Stalinin bu metodundan istifadə etməsi aydındır. Lakin bütün hiylələrə rəğmən İran rejimi Azərbaycana qarşı hücumu üzərindən ata bilmədi, etiraf etdi. Fəqət prezident Pezeşkiyanın üzrü ilə əsas hakimiyyət olan şüubiyyə mollalarının təkzibi onu sübut etdi ki, rejim daxilində mürəkkəb idarəetmə üsulu daha da xaotik durumdadır. Ümumiyyətlə xarici siyasət yoxdur".

T.İrfan deyib ki, lakin Naxçıvana hücumu İrandakı xaotik vəziyyətlə, müharibədən doğan qarışıq durumla əlaqələndirib terroru törədənləri bir növ məsuliyyətdən yayındırmağa çalışmaq da növbəti cinayətdir:

"Hələ bunu danmaq ondan daha betərdir. O zaman açıq etiraf etsinlər ki, silahlı qüvvələrə nəzarət dövlətin əlindən çıxıb. İranın müsəlman ölkələrinə maksimum ziyan vurmaq siyasəti qəbuledilməzdir. Ərəb ölkələrinin mülki strukturlarını hədəf almaqla özünə qarşı kualisiyanı böyüdərək əzabkeş qəhrəman obrazı yaratmaqla beynəlxalq aləmin diqqətini çəkmək arzusu sonda xalqı güdaza verməklə nəticələnə bilər. Çünki hər bir halda müharibədən xalq əziyyət çəkir. Və bu "siyasət" xəyanət kimi xarakterizə olunaraq iflasa uğrayıb rejimin öz əleyhinə çevrilir. Onsuz da əvvəldən ağır olan sosial, iqtisadi vəziyyət daha da ağırlaşır. Bu vəziyyətdə xalq neçə ay susqun qala bilər? İran rejimi bunları düşünmək yerinə qonşulara hücum edir, dosta xəyanət yolunu seçərək namərdcəsinə ərazimizə atəş açır. Yalan, böhtan, iftira, şantaj və bütün şər əməlləri halal və vacib hesab edən İran rejimi özünü müsəlman elan etməklə əslində İslamı və müsəlmanları dünyaya mənfi imic və obrazda təqdim etmiş olur. İslamda qonşu haqqı müqəddəsdir. Həzrət Muhəmməd deyirdi, Cəbrail mənə qonşu haqları barədə o qədər şey dedi, elə düşündüm ki, qonşunun miras ala biləcəyini də deyəcək. Əgər İran İslama riayət edirsə, müsəlman qonşuya qarşı hansı dinin əsasları ilə xəyanət edir?".

**Vasif ƏLİHÜSEYN**

# Elxan Şahinoğlu: "Yaponiya hökuməti bu məqsədlə büdcədə hərbi xərcləri artıracaq"

**"Beynəlxalq hüququn işləmədiyi dövrdə hər bir dövlət özünü qorumaq və qarşısına qoyduğu strateji məqsədlərə çatmaq istəyir. Pekinin illərdir qarşısına qoyduğu məqsəd Tayvan adasını Çinə birləşdirməkdir. Pekin Rusiya-Ukrayna və Yaxın Şərqdəki müharibənin davamından narahat olsa da, hazırki şəraitdə Tayvan məsələsinin həlli barədə də düşünür. Çinin xarici işlər naziri Van İ 14-cü Ümumxalq Xalq Nümayəndələri Konqresinin sessiyası zamanı keçirilən mətbuat konfransında bildirib ki, Tayvan heç vaxt müstəqil dövlət olmayıb və olmayacaq. Nazirin sözlərinə görə, Tayvan qədim dövrlərdən etibarən Çinin ayrılmaz ərazisi hesab olunur, ada indi və gələcəkdə ayrıca dövlət statusu ala bilməz. Van İ bildirib ki, Tayvanın Çin tərkibinə qayıtması Çin xalqının Yaponiyaya qarşı müharibədə qələbəsinin, həmçinin İkinci Dünya müharibəsinin nəticələrinin bir hissəsidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, Çinin xarici işlər naziri BMT qətnaməsinə istinad etməyi də unutmayıb:

"Van İ söyləyib ki, İkinci Dünya müharibəsində Yaponiyanın kapitulyasiya aktı, həmçinin BMT Baş Assambleyasının 2758 saylı qətnaməsi və digər beynəlxalq hüquqi sənədlər Tayvanın statusunu açıq şəkildə təsdiqləyir. Çinin xarici işlər naziri



açıqlamasında Yaponiyanı hədələməyi də unutmayıb. Van İ Yaponiyanı tarixdən dərs çıxarmağa və xəyali təhdidlər bəhanəsi ilə militarist kursunu bərpa etməyə cəhd etməməyə çağırıb. Nazir yapon xalqının gözlərini açacağına və heç kimin gücünü şişirtməsinə, keçmişin səhvlərini təkrarlamasına imkan verməyəcəyinə ümid etdiyi bu sözlərlə bildirib: "Böyümüş və güclənmiş Çin və onun 1,4 milyard vətəndaşı artıq heç kimin müstəmləkəçiliyə haqq qazandırmasına imkan verməyəcək". Çinin xarici işlər naziri bu sözləri ona görə deyib ki, Yaponiya hərbi gücünü artırmağa qərar verib".

E.Şahinoğlu bildirib ki, Yaponiya hökuməti bu məqsədlə büdcədə hərbi xərcləri artıracaq:

"Bu Tokionun Çinin bölgədə artan hərbi gücü və Yaponiya sahillərinə yaxın sularda Çin-Rusiya birgə təlimlərinin sayının artması narahatlığı ilə bağlıdır. ABŞ İkinci Dünya müharibəsindən sonra ilk dəfə Yaponiyanın hərbi xərclərini artırmasına yaşıl işıq yandırıb.Yaponiyanın baş naziri Sanae Takaiçi açıqlamalarının birində Çinin Tayvana hərbi müdaxiləsinin ölkəsinə təhdid olacağı barədə bəyanat vermişdi. Bu bəyanat Çin ilə Yaponiya arasında münasibətləri daha da gərginləşdirmişdi. Çin xarici işlər naziri Pekinin Tayvan məsələsində mövqeyinin dəyişməz olduğunu belə izah edib: "Beynəlxalq münasibətlərdə 'iki Çin' və ya 'bir Çin - bir Tayvan' modelini yaratmaq cəhdləri uğursuzluğa məhkumdur".Çinin xarici işlər nazirinin son açıqlaması o deməkdirmi ki, beynəlxalq aləmin diqqəti Rusiya-Ukrayna və Yaxın Şərqdəki müharibəyə yönəlmişkən, Pekin Tayvanı ələ keçirməyi planlaşdırır? Pekində bu haqda düşünsələr də, riskləri də hesablayırlar. Yaxın Şərqdəki müharibə Çinin neft ehtiyatını tükəndirməyə başlayıb. Digər tərəfdən ABŞ və İsrailin İrana qarşı müharibəsi Çinin Yaxın Şərq ölkələrindəki yatırımlarına təhlükə yaradıb.

Çinin özündə isə əmlak böhranı və daxili borclar problemi həll olunmayıb. Çinin illik iqtisadi artım tempi 1991-ci ildən bəri ən aşağı səviyyəyə enib. Tayvanın ələ keçirilməsi əməliyyatı Çinin problemlərini daha da artıracaq. ABŞ Yaxın Şərqdə müharibə aparmasına baxmayaraq, Pekinin Tayvan adasını ələ keçirməsi əməliyyatına səyrçi qalmayacaq. Ada ətrafında müharibə Çinin ABŞ ilə ticarət müharibəsini alovlandıracaq. Bu isə Çin iqtisadiyyatı üçün əlavə problemlər deməkdir. Buna görə də Pekin Tayvanın ələ keçirilməsi əməliyyatını qeyri-müəyyən dövrədək təxirə salmaq məcburiyyətindədir".

**Sübhan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Hara tələsirik?

**Bütün günü ora qaçırıq, bura qaçırıq. Bir gün uşaqlarımızın dalınca qaçırıq... Bir gün qardaşımızın dalınca qaçırıq... Bir gün də nəvələrimizin dalınca qaçırıq... Və başımızı qaşımağa vaxtımız olmur... Hələ mən bazar-dükana, xeyirə-şərə, toya-düyünə, xəstə yanına baş çəkməyimizi demirəm! Onu da desəm, lap əldən düşərik...**

**Və özümüzə vaxt tapa, vaxt ayıra bilmirik... Amma başqa millətlər bizim kimi eləmir... Heç kimin xətrinə dəyməsin (dəysə, gedib su içsin) onlar adam kimi yaşayırlar. Lap elə avropalıları götürək... Onların da övladları var... Onların da uşaqları var... Onların da qardaşı, bacısı, xeyir-şəri var... Ancaq onlar hər şeydən əvvəl özlərini düşünürlər. Bu demək deyil ki, avropalı uşağını, nəvəsini, qohum-əqrəbasını çox istəmir...**

**Niyə istəmir??? Bəlkə də bizdən çox istəyir... Lakin özünü, canını hamıdan çox istəyir. Onlar hər altı aydan bir tibbi müayinədən keçirlər. İldə bir dəfə ən azından sanatoriya, istirahətə, gəzməyə gedirlər. Hətta pensiyaçılar belə bu şəraitdən yaxşıca istifadə edirlər. Bir dostum var, indi də ağır xəstədir, Allah şəfasını versin. Onun çox yaxşı imkanı olub; evi-eşiyi, maşınları, biznesi... Bir sözlə, var-dövlət, pul başından aşıb.**

**Bütün günü övladları, nəvələri haqqında düşünüb. Və hamısına da qəşəng şərait yaradıb. Hər şeyə vaxt tapıb, özünə vaxt tapa bilməyib. Bir dəfə olsun belə həkimə getməyib, sanatoriya müalicəsi qəbul etməyib, istirahətə yollanmayıb. Elə ancaq ev-eşik barədə fikirləşib! İndi də elə xəstəliyə düçar olub ki, müalicəsi yoxdur. Müalicə üçün Avropa ölkələrinə, habelə İsrailə gedib, nə fayda, dərdinə əlac yoxdur. Milyonlar verir, ancaq çarə tapılmır ki, tapılmır.**

**Dostumuz deyir ki, özüm üçün yaşamadım, başqaları üçün ömür sürdüm və elə bildim ki, həmişə sağlam olacam! Heç canımı qurban verdiyim adamlar da məni yada salmırlar. Oğlanlarım da axtarmır! Almaniyada bir qızım yaşayır, bircə o, mənə görə narahatdır. Nə isə... Deyirəm, bəlkə bir qədər də özümüz üçün yaşayaq. Necə fikirdir, bəyənirsiz, ya yox???**

## "Azərişıq" borcla bağlı abonentlərə niyə vaxtında bildiriş göndərmir?



**Hər bir xidmət sahəsi bir qayda olaraq hər işlədilən enerji ilə əlaqədar olaraq abonentinlərə borcla bağlı bildirişlər göndərir. Borc da az olanda onu ödəmək insanlar üçün daha asan olur.Bir qayda olaraq bu işi su, qaz, istilik qurumları hər ay, yaxudda 40 gündən bir edir. Əvvəllər " Azərişıq" da bunu vaxtında həyata keçirirdi.**

Amma son iki ayda Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin " D"massivi bina 13- də borla bağlı abonentlərə bildiriş göndərmir. Təbii ki, iki- üç ayın borcu da yığılanda onu ödəmək sakinlər üçün daha çətin olur. Üstəlik də bir çox xidmət sahələrinin verdiyi enerjinin qiyməti artırılıb. Bu isə əlavə yük deməkdir.Biz bu məsələ ilə bağlı aidiyyəti qurumla əlaqə saxladıq , lakin telefon zənglərimizə cavab verən olmadı. Sakinlər isə deyirlər ki, bunu " Azərişıq" bilərkədən edlr ki, əhalidən artıq pul alsın.Bizim 13 nömrəli binada 5-6 ay bundan əvvələ qədər abonentlərə borcla bağlı vaxtında bildirişlər verilirdi, ancaq son vaxtlar isə bildirişlər vaxtında verilmir, borclar yığılır, onu ödəmək insanlar üçün çox çətin olur.

**Bununla yanaşı, məlum qurum sayğaclardan borcu yazıb abonentlərə verən nəzarətçiləri də tez- tez dəyişir. Bax , bunu nə üçün edirlər, bilmirik? Bildiyimiz odur ki, əvvəllər bizim binada işləyən nəzarətçi çox mədəni və intizamlı əməkdaş idi. Amma yeni təyin olunmuş nəzarətçidə bu məziyyətlər yoxdur! Hər halda, işıqla bağlı borclar vaxında abonentlərə verilsə, onu ödəmək də sakinlər üçün daha asan olar. İnanırıq ki, aidiyyəti qurum bu təkliflərimizi nəzərə alacaq və mövcud problemi vaxtında aradan qaldıracaq!!!**

**Emil FAİQOĞLU**

## Axşam saat 22- dən sonra...




**Bakıda bir çox marşrutlar axşam saat 22-dən sonra ya işləmir, ya da yarım saatdan, bir saatdan bir işləyir. Gecə saatlarında metodan çıxan sərnişinlər bu avtobusları gözləyir və axırda da bir manatlıq, iki manatlıq taksilərə minib mənzil başına gedirlər. Xüsusilə də Bakının qəsəbələrinə gedən avtobuslar hərəkət qrafikinə əməl edir, axşam saatlarında gəlmir və gəlsə də çox gec gəlir. Təbii ki, bu da sərnişinlərin haqlı narazılığına səbəb olur.**

Çox uzağa getməyək. Metronun " Neftçilər" satansiyasından Yeni Günəşliyə gedən 50 və 64 nömrəli marşrutda işləyən avtobuslar gecə saat 23 - dən sonra ya gəlmir, ya da gəlsə də bir saatdan sonra gəlir. Havalar qarlı, yağışlı olanda isə vəziyyət daha da çətinləşir.

Yəni həmin avtobuslar xətdən çıxıb qaraja gedir. Ümumiyyətlə, özəl şirkətlər həmişə öncə öz mənafelərini qoruyurlar. Onlar düşünürlər ki, əlverişsiz hava şəraitində, yəni qar yağanda , yollar buz bağlayanda avtobuslar qəzaya ugrayar, əzilər və maddi ziyan olar! Amma nəqliyyat sektoru dövlətin sərəncamında olsa, bu dediyimiz nöqsanlar baş verməz.

Yaxşı olardı ki, gələcəkdə özəl sektorla yanaşı, dövlətin tabeliyində olan avtobuslar da olsun .Bax onda dövlət sektoru ilə özəl sektor arasında rəqabət olar və nəticədə sərnişinlərə yüksək səviyyəli xidmət göstərilər, onlar gecə saatlarında yolda qalıb , taksi axtarmazlar!!!

## Avtomobil yük maşınına çırpıldı...



**Hər bir nəqliyyat vasitəsinin sürücüsü öncə yol hərəkəti qaydalarına əməl etməyə borcludur.Ən azından ona görə ki, o, sükan arxasında əyləşibsə, bütün məsuliyyət sürücünün üzərinə düşür.**

Təəssüf ki, bunun bəzən biz əksini görürük. Yəni görürük ki, sürücü məsuliyyətsizlik edir, yol hərəkəti qaydalarını pozur və ağır qəzalar yaradır. Bir neçə gün bundan əvvəl Bakıda baş vermiş yol-nəqliyyat hadisəsi dediklərimizə əyani sübutdur.

Belə ki, paytaxtın Sabunçu rayonunda , daha doğrusu, Zabrat - Maştağa yolunda minik avtomobili yolun hərəkət hissəsində dayanmış ağır tonnajlı yük maşınına çırpılıb. Belə ki, gecə saat 22: 30-da sürətlə hərəkət edən taksi arxadan həmin yük maşınına deyib.Nəticədə avtomobilin sürücüsü hadisə yerində həyatın itirib.

Ümumiyyətlə, bu cür qəzalar Bakıda sürücülərin səhlənkarlığı üzündən tez-tez baş verir. Hadisə şahidlərindən biri deyir ki, biz sexdə işləyirdik və möhkəm səs eşitdik .

Çıxıb gördük ki, avtomobil arxadan yük maşınına çırpılıb və sürücü ölüb. Həmin yük maşını necə gün idi ki, xarab olub yolda qalmışdı , sahibi də gəlib avtomobili aparmırdı. Həmin yük maşını günlərdir ki, sıradan çıxıb yolun hərəkət hissəsində qalıb, Sabunçu rayon Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları nasaz yük maşının hərəkətin intensiv olduğu yoldan evakuasiya etməyiblər. Hansı ki, onların vəzifə borcudur ki, nasaz nəqliyyat vasitəsin vaxtında yolun hərəkət hissəsindən götürsün.Əgər bu qabaqlayıcı tədbirlər vaxtında həyata keçirilsəydi, ölümlə nəticələnən belə ağır qəza baş verməzdi!!!

## Qız uşağı ağlayanda və yetim qalanda...



**Kimin qızı varsa, Allah and olsun ki, o adamlar xoşbəxt insanlardır.Qızı olmayanlar isə bunu hiss eləməz .Bir neçə gün bundan əvvəl qurumlardan birində mətbuat xidmətinin rəhbəri işləyən Yavər dostumuza zəng vurdum.**

Dəfələrlə zəng etsəm də telefonunu açıb zəngimə cavab verməd. Axşam üstü Yavər müəllimin telefonundan mənə zəng gəldi. Düşündüm ki, nə yaxşı ondan mənə zəng gəlir.

Telefonu açdım və başqa bir adamın, daha doğrusu, xanım səsi eşitdim.Dedi ki, bir neçə dəfə Yavər müəllimin telefonuna zəng etmisiniz və sizinlə danışan onun qızıdır.

Soruşdum ki, bəs Yavər müəllim hardadır? Cavab verdi ki, atam yanvarın 26- da rəhmətə gedib. Bu sözləri deyib hönkürhönkür ağladı və mən də ona qoşulub ağladım.Çünki qız uşağı ağlayanda və yetim qalanda mənim ürəyim para- para olur, sanki dünya uçur alında qalıram! Dedim ki, qızım, ağlama.

Sizin atanız ölməyib sağdır. O, doğmalarının, əzizlərinin ürəyinə köçüb. Deyəsən, bu sözlərim ona bir təsəlli oldu və kiridi.

Bax belə , bir dostumuzu da itirdik və yadıma dostum qardaşım Orxan Paşanın( Məhərrəm Qasımlının) bir mısrası düşdü:"

... İtirdim dostları, itirdim bir- bir..."

## Həkim həyəcan təbili çalır!



**Bu gün dünyada, eləcə də ölkəmizdə bir çox xəstəliklər sürətlə yayılır, Ürək-damar, diabet, xərçəng, qalxanvari vəz xəstəlikləri məhz bu qəbildəndir. Bunların da bir çox səbəbləri var.**

O səbəblər bunlardır: qidalar, stress, oturaq həyat, ekoloji mühit! Bax bütün bunlar hamısı dediyimiz xəstəliklərin sürətlə inkişaf etməsinə təkan verir. Son vaxtlar respublikamızda yayılan xəstəliklərdən biri də qalxanvari vəzinlə bağlı xəstəliyin geniş vüsət almasıdır! Təbii ki, bu xəstəlik istər- istəməz insan səhhətində müəyyən problemlər yaradır.

Özü də son vaxtlar yeniyetmələrdə və gənclərdə şürətlə yayılmamaqdadır. Bu barədə tanınmış endkroloq - cərrah Sadiq Bəbirov həyəcan təbili çalır. O deyir ki, son vaxtlar cərrahiyyə əməliyyatı apardığım insanların çoxu yeniyetmə və gənclərdir! Bu xəstəliyin onlar arasında yayılmasının təhlili göstərir ki, gənclər mobil telefonlardan və digər elektron cihazlardan daha çox istifadə edirlər. Xüsusilə də , mobil telefonlar daha təhlükəlidir.Mən bir həkim kimi tövsiyə edirəm ki, yeniyetmələr və gənclər mobil telefonlardan az istifadə etsinlər.El arasında " zob" kimi tanınan xəstəlik elə də sadə bir xəstəlik deyil. Birmənalı olaraq hər bir valideyn dediklərimizi diqqətdə saxlamalı, övladların gələcəyi üçün ciddi düşünməlii və qəti addımlar atmalıdır.Yəni onlar mobil telefonldan çox istifadə etməməlidir!

## Ağaclar nə vaxt budanmalıdır?



**Hər bir işin öz vaxtı var. Yəni müəyyən zaman kəsiyində o işləri icra etmək lazımdır. Təbii ki, ağacların budanmasının və dibinin bellənməsimin də öz vaxtı var.**

Kənd təsərrüfatı üzrə mütəxəssis Cavanşir Əliyev bildirir ki, ilin istənilən ayında ağacları budamaq və diblərini doldurmaq olmaz . Belə ki, bu proses fevral ayının əvvəllərində gerçəkləşdirilmidir.Başqa sözlə demiş olsaq, ağaclar oyanmamamış və tumurcaqlamamış onun qurumuş budaqları daranmalı, dibi bellənməli ağağı gövdəsi əhənglə malıdır ki, ziyanvericilər yaz gələndə onu məhv etməsinə. Amma bizdə bəzən bu işləri vaxtında eləmək yaddan çıxır və bir çoxları elə bilir ki, ilin istənilən ayında bu prosesi yerinə yetirmək mümkündür.Bu, yanlış addımdır. Əgər belə olsa, ağaclar quruyar və inkişafdan qalır.Bar verən ağacların isə məhsuldarlığı azalar! Ona görə də həmin işləri görərkən dediyimiz qaydalara və vaxta əməl olunmalıdır! Bu işləri bağbanlar yaddan çıxarmamalıdırlar!!!

## Zəncirvari qəzalar...



**Yağışlı , qarlı və sürüşkən havalarda belə qəzalar daha tez -tez baş verir. Bir qayda olaraq respublikanın avtomobil yollarında, Bakı dairəvi yoluda, eləcə də Hava Limanına gedən yolda zəncirvari qəzalar qaçılmaz olur**

.Bəs bu yol-nəqliyyat hadisələri nədən yaranır? Gəlin tələsməyək , baş vermiş qəzaların səbəblərin araşdıraq.Əlbəttə, bu cür qəzaların baş verməsinin bir çox səbəbləri mövcuddur.Zəncirvari qəzaların baş verməsi ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polis baş leytenantı Elvin Hacıyev müraciət edik. O dedi ki, avtomobil axını çox olan magistral yollarda , eləcə də Bakıda ilk növbədə sürücülər yol hərəkəti qaydalarına riayət etməlidir

Yəni onlar hava şəraitini nəzərə almalı, ara məsafəsi saxlamalı, sürət həddinə əməl etməlidirlər. Yol sürüşkən olarkən əyləc sistemininindən istifadə etmək olmaz.Dumanlı və yağşlı havada nəqliyyat vasitələrinin arxa və qabaq işıq sistemləri normal işləməlidir ki, qəza vəziyyəti yarananda sürücü onlardan istifadə edə bilsin.Bir sözlə, hər hansı qəzaya, o cümlədən zəncirvari qəzalara sürücülər həmişə hazır olmalıdır.Yəni hər bir sürücü belə qəzalara şərait yaratmamalı, birmənalı olaraq yol hərəkəti qaydalarına əməl etməlidir.Ona görə də sürücülər və hərəkət iştirakçıları bu tövsiyələrimizi unutmamalıdır!!!

**Emil FAİQOĞLU**



# "Azərbaycan odu ilə oynayanlar elə o odda da yanıb külə dönüblər"

**"İrandakı rejim yaradıldığından bəri Azərbaycan Respublikasına qarşı ən böyük qələtini etdi. Naxçıvanda aeroporta və mülki obyektlərə dronlarla hücum olundu. Rejimin mahiyyətini göstərən hadisənin bir neçə tərəfi vardır. İlk növbədə, bu hərəkəti ilə rejim beynəlxalq hüququ kobud şəkildə pozaraq ayaqlar altına atdı. Göstərdi ki, onun üçün beynəlxalq hüquq istifadəyə yararsız kağız parçasından başqa bir şey deyildir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini Musa Qasımlı deyib.

Onun sözlərinə görə, lakin unudur ki, beynəlxalq hüququ saymayanların özlərinin heçə sayıldığına dair onlarla fakt vardır:

"İkincisi, bu hərəkət rejimin regionda gərginliyi artırmağa, müharibənin miqyasını genişləndiməyə və yeni qanlar tökməyə çalışdığını göstərir. Mülki obyektlərin hədəf seçilməsi İslam dinini əlində bayraq edən rejimin iç üzünü, qorxaqlığını və insanlıq əleyhinə olduğunu sübut edir. Sülh, bərabərlik, əmin-amanlıq və birgəyaşayış dini olan İslamı bütün dünyada gözdən düşürən, ona ləkə olan bu rejimin ərazimizə dron hücumu terrordur. Terror və terrorçu isə heç vaxt cəzasız qalmır".

O, bildirib ki, Naxçıvana hücum İrandakı rejimin nadürüstlüyünü, nankorluğunu və riyakarlığını göstərir:

"Mehriban qonşuluq siyasəti yürüdən, dar gündə həmişə qonşularına həyan çıxan Azərbaycan Respublikası dövləti heç bir zaman özünün quru ərazisindən, su sahəsindən və hava məkanından İrana və digər qonşularına qarşı istifadə edilməsinə icazə verməyib, dürüst davranıb, sözü və işi eyni olub. Ərazimizdən İrana qarşı heç bir zaman təhdid olmayıb və yoxdur. İİR isə masa arxasında danışıqlarda bir söz deyib, qalxandan sonra arxada başqa cür hərəkət edib. Buna dair də yüzlərlə fakt yazmaq olar.Azərbaycan ərazisinə hücum edən bu rejim görəsən cənab Prezident İlham Əliyevin dünən İİR-nın Bakıdakı səfirliyinə gedərək ali rəhbərin ölümü münasibəti ilə verdiyi başsağlığından utanırmı? Utansaydı, belə etməzdi! Utanmır, ona görə ki, cənubdan olan bir dostumun dediyi kimi, üzü hər şeydən qırmızıdır. Bəs rejim dövlət başçımızın bu ağayana, bütün dövrlərin böyük dövlət və siyasət adamına yaraşan davranışını nə tez unutdu? Axı heç 24 saat keçməyib! Unutdu, ona görə ki, nankordur, süfrəsi artıq cırır-cırıq olmuş qəzetdən, çörəyi isə diz üstündədir! Tarixi ərazisində yaşayan təxminən 45 milyon nəfərdən çox azərbaycanlının hüquqlarını kobud surətdə pozan, milli fəalları həbsxanalarda cürüdən və meydanlarda asan bu rejim yaranışından bəri Azərbaycana qarşı etdiyi ən böyük qələtini təcili düzəltməlidir. İzahat verməli və belə halların bir daha təkrarlanmamasından ötrü lazımi addımları atmalıdır. Əks-təqdirdə...Azərbaycana xor baxanlar, hücum edənlər həmişə peşman olublar. Başından böyük qələt edən rejim də bu əməlinə görə peşman olacaqdır! Azərbaycanın intiqamı çox ağır olur! Azərbaycanla zarafat edənlər, Azərbaycan odu ilə oynayanlar elə o odda da yanıb külə dönüblər! Buna əmin olmaq üçün çox da uzaq tarixə getmək lazım deyildir".



**Vasif ƏLİHÜSEYN**

# "Tramp yaxşı anlayır ki, Rusiya da İran kimi ABŞ-nin qlobal rəqiblərindən..."

**"ABŞ, Rusiya ətrafında halqanı daraldır. ABŞ prezidenti Donald Trump Ukrayna prezidenti Volodimir Zelenskini Rusiya ilə sülh müqaviləsi bağlamağa tələsmədiyinə görə tənqid edib. O bildirib ki, Vladimir Putin sülh müqaviləsində maraqlıdır və bu prosesdə tələsir. Əslində isə Trampın bu açıqlamaları müəyyən mənada Rusiyanı siyasi baxımdan trollamaq və psixoloji təzyiq yaratmaq məqsədi daşıyır. Tramp yaxşı anlayır ki, Rusiya da İran kimi ABŞ-nin qlobal rəqiblərindən biridir və Ukrayna müharibəsində Moskvanın istədiyini əldə etməsi ABŞ-nin geosiyasi maraqlarına ciddi təhdid yarada bilər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, bu səbəbdən Vaşinqton bir tərəfdən Rusiyanı müəyyən müddət arxayın saxlamağa çalışır, digər tərəfdən isə onun qlobal tərəfdaşlarını və müttəfiqlərini zəiflətmək strategiyası həyata keçirir:

"Bu siyasətin nəticəsi kimi Rusiyanın təsir dairəsində olan bəzi ölkələrdə ciddi dəyişikliklər baş verir. Məsələn, Suriyada B.Əsəd rejiminin süqutu, Venesuelada N.Maduronun həbs edilməsi və hazırda İranın regional təsir imkanlarının məhdudlaşdırılması və rejimi təslim etmək üçün aparılan hərbi əməliyyatlar bu strategiyanın tərkib hissəsidir. Bundan əlavə, Rusiyanın əsas enerji bazarlarından biri olan Çin ilə də enerji sahəsində yeni danışıqların aparılacaq. Məqsəd Pekinin Rusiyadan enerji almasını azaltmaq və Moskvanın enerji gəlirlərinə zərbə vurmaqdır. Tramp Venesuela prezidenti N.Moduranı həbs etməsi və İranın Ali dini rəhbərini aradan götürməklə, öz beynəlxalq gücünü göstərir".

Politoloq deyib ki, ABŞ Rusiyaya sanksiyalar tətbiq etmək və sıxışdırılmaqla Putini öz ətrafı tərəfindən neytrallaşdırmasına çalışır:

"Artıq Rusiyanın iqtisadiyyatına qarşı geniş sanksiyalar tətbiq edilir və onun "kölgə donanması" adlandırılan qeyri-rəsmi neft daşımaları da ciddi təzyiq altındadır. ABŞ Rusiyanın beynəlxalq mövqelərini zəiflətməklə yanaşı,



Kremlin daxilində də siyasi balansın dəyişməsinə təsir göstərməyə çalışır.Bütün bunların fonunda aydın görünür ki, ABŞ Rusiyanın Ukrayna müharibəsində qələbə qazanmasına imkan vermək niyyətində deyil. Müharibə uzandıqca Rusiya hərbi və iqtisadi baxımdan tükənir və onun nəinki qlobal güc kimi, regional mövqeyi getdikcə zəifləyir. Vaşinqton isə bu prosesdən istifadə edərək beynəlxalq sistemdə öz lider mövqeyini möhkəmləndirməyə və daha çox ABŞ-mərkəzli dünya nizamını formalaşdırmağa çalışır".

**Sübhan**

# Dünyada milyarderlərin sayı rekord səviyyəyə çatdı

**Dünyada milyarderlərin sayı rekord həddə çatıb.**

Adalet.az xəbər verir ki, bu barədə "Hurun Report" tərəfindən dərc edilən "Hurun Global Rich List" reytinqində bildirilib. Hesabata əsasən, fond bazarının artımı və süni intellektin texnologiyalarının inkişafı milyarderlərin sayının rekord səviyyəyə yüksəlməsinə səbəb olub. Çin digər ölkələrlə müqayisədə daha çox milyarderin yaşadığı ölkə olaraq göstərilib. Hesabata görə, Çin milyarderlərin sayına görə ABŞ-ni geridə qoyaraq dünyada liderliyini bərpa edib.

"South China Morning Post" qəzetinin yazdığına görə, əvvəlki hesabatın dərcindən bəri Çində milyarderlərin sayı 287 nəfər artaraq son üç ildə yaranmış itkiləri tam kompensasiya edib.

Süni intellekt Çində iki yeni milyarderin meydana çıxmasına səbəb olub: "MiniMax" şirkətindən Yan Tsyuntsze 3,6 milyard dollar, "Knowledge Atlas Technology JSC" (daha çox "Zhipu" adı ilə tanınır) şirkətindən Lyu Debin isə 1,2 milyard dollar sərvətə malikdir.

792 milyard dollar sərvəti ilə İlon Mask siyahıda birinci yerdə qərarlaşıb. Onu 300 milyard dollar sərvətlə Jeff Bezos və 281 milyard dollarla Lerri Peyg izləyir. Mask sərvəti 700 milyard dolları keçən ilk insan olub. ABŞ 1000 milyarder ilə (ötən illə müqayisədə 130 nəfər çox) ikinci yerdə qərarlaşıb. Üçüncü yerdə 308 milyarderə malik Hindistan gəlir ki, bu da ötən illə müqayisədə 24 nəfər çoxdur. Almaniya 171 milyarder ilə Böyük Britaniyanı qabaqlayaraq dördüncü yerə yüksəlib. Qlobal miqyasda 114 milyarder süni intellekt sahəsində fəaliyyət göstərən şirkətlərə bağlıdır. Onlardan 46-sı bu kateqoriyaya ilk dəfə daxil olub və nəticədə süni intellekt yeni milyarderlərin yaranmasının ən böyük mənbəyinə çevrilib. Şəhərlərin reytinqində Nyu-York 146 milyarder ilə yenə də milyarderlərin dünya paytaxtı olaraq qalır. Şençjen milyarderlərin sayını 47 nəfər artıraraq 132-yə çatdırıb və ikinci yerə yüksəlib. Ondan sonra Şanxay, Pekin və London gəlir. Milyarderlərin orta yaşı 65 təşkil edib.


**Vüqar Abbasov,**
**Avropa Xəbər Agentliyinin**
**(European News Agency)**
**əməkdaşı**




# İran başını itirib

**İran başını itirib - həm birbaşa, həm də məcazi mənada. Birbaşa mənada ona görə ki, bir neçə gün əvvəl İranın ali dini lideri Ayətullah Xamenei öldürülüb. Məcazi mənada isə görünən odur ki, ölkə artıq nə etdiyini tam düşünmədən hərəkət edir və hətta qonşu dövlətləri də hədəfə alır.**

**İran o qədər nəzarəti itirmiş kimi görünür ki, 5 mart 2026-cı ildə Azərbaycanın Naxçıvan bölgəsinə pilotsuz dronlarla zərbə endirib. Dronlardan biri Naxçıvan hava limanı yaxınlığına, digəri isə bir məktəbin yaxınlığına düşüb. Nəticədə yaralananların olduğu bildirilir.**

**Hadisənin diqqət çəkən tərəfi isə odur ki, bu hücum Azərbaycan Prezidentinin İrandakı səfirliyinə gedərək İranın ali dini liderinin ölümü ilə bağlı başsağlığı verməsindən qısa müddət sonra baş verib. Prezident İlham Əliyev də qeyd edib ki, o, İranın ali dini liderinin ölümü münasibətilə başsağlığı verən yeganə dövlət başçısı olub. Yəni Azərbaycan İranla düşmən münasibət göstərmədiyi halda belə bir hücumun baş verməsi çox suallar doğurur.**

**Əslində bu, ilk belə hal deyil. İran Azərbaycanın Ermənistanla apardığı İkinci Qarabağ müharibəsi zamanı da Azərbaycana qarşı soyuq və bəzən açıq şəkildə mənfi mövqe nümayiş etdirmişdi.**

**Azərbaycanda son hadisələrə münasibət demək olar ki, birmənalıdır. Bir çoxları hesab edir ki, İran hazırda ciddi siyasi və hərbi böhran içindədir və hadisələrə emosional reaksiya verir. Məsələn, jurnalist, siyasi şərhçi və filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli sosial şəbəkədə yazıb ki, İranın səbəbsiz şəkildə əvvəl Türkiyəyə, daha sonra isə Naxçıvana zərbə endirməsi ölkənin ağır vəziyyətdə olduğunu göstərir. Onun fikrincə, molla rejiminin illərlə apardığı yanlış siyasət nəticəsində ölkədə siyasi koordinasiya zəifləyib və bəzi hərbi qurumlar artıq düşünülməmiş addımlar atırlar.**

**Xatırladaq ki, İran bir neçə gün əvvəl Türkiyəyə qarşı da oxşar addım atmışdı. Son hadisələr bir daha göstərir ki, regionda gərginlik artır və İranın gələcək addımları ciddi narahatlıq yaradır.**

**Bir çox müşahidəçilər hesab edir ki, belə bir vəziyyətdə İranın nüvə silahı əldə etməsi təkcə qonşu ölkələr üçün deyil, bütün dünya üçün ciddi təhlükə yarada bilər.**

## *"Bu addım Zəngəzur dəhlizi layihəsinə qarşı yönəlmiş mesaj xarakteri daşıyır..."*

**"İranın Naxçıvan aeroportunu vurması qırmızı xətti keçməkdir. Azərbaycan İrana qarşı hazırkı prosesdə tam təmkinli və neytral qaldı. Amma, İran Azərbaycanı da hədəf alır. Ümid edirik ki, bu, səhvən olub. Azərbaycandan İrana qarşı hərhansı bir təhdid yoxdur. Dövlət başçısı daima bunu İranın nəzərinə çatdırıb. Bundan sonra da Azərbaycan İranla bağlı siyasətində əvvəlki siyasətini davam etdirəcək. Amma, İran Azərbaycanı təhdid edərsə, rəsmi Bakının mövqeyi dəyişə bilər.İran rejimi artıq öz süqutunu yaxınlaşdırır".**



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, İran Naxçıvanı vurmaqla TRİP marşrutunu hədəf alır:

"İranın hərbi rəhbərliyi - İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) region ölkələrinin iqtisadi infrastrukturuna zərbə vurmaq və bölgəni xaosa sürükləmək siyasəti həyata keçirir. Rəsmi Tehran uzun müddətdir Azərbaycanı müxtəlif bəyanatlarla təhdid edir. Hazırda isə bu təhdidlərin real hərbi riskə çevrildiyi müşahidə olunur. ABŞ-nin təşəbbüsü ilə formalaşan TRİP layihəsinin əsas seqmentlərindən biri olan Naxçıvan Muxtar Respublikasının hədəfə alınması Tehran tərəfindən planlaşdırılmış addım kimi qiymətləndirilə bilər. Bu addım həm də region üçün strateji əhəmiyyət daşıyan Zəngəzur dəhlizi layihəsinə qarşı yönəlmiş mesaj xarakteri daşıyır. Ötən gün Məsud Pezeşkian vilayət rəhbərliklərinə və hərbi strukturlara daha geniş müstəqil idarəetmə səlahiyyətlərinin verildiyini açıqlayıb. Bu qərar bəzi regional aktorların daha sərt və avantürist addımlar atmasına, nəticədə isə bölgədə hərbi eskalasiyanın dərinləşməsinə gətirib çıxara bilər".

**Sübhan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Biri Səsdi, biri Sözdü qolboyun

## Ustadım Seyran Səxavətin şeirini işığında Dədə Süleymanın Ruhuna...

**Bu bir həqiqətdir ki, sözlə musiqi həmişə bir-birini tamamlayıb. Ona görə də söz olan yerdə musiqinin, musiqi olan yerdə sözün at oynatması təbiidir. Təbii olan isə həmişə ruh oxşayır, könül sevindirir. Bax, bu mənada hər dəfə köklndiyim musiqinin sözünü də özümdən asılı olmadan gözüm, könlüm axtarıb tapır. Yəqin ki, siz də beləsiniz. Əgər bir anlıq gözümüzü yumub həmin musiqini dinləsəniz, o səsin də sizin yanınızda olduğuna, sizinlə çiyin-çiyinə dayandığına əmin olacaqsınız... Yəqin ki, Seyran Səxavətin xanəndələrimizin, müğənnilərimizin ifasında səslənən şeirlərini dinləmisiniz. Və onun musiqiyə necə yatdığını da hiss edib yaşamısınız.**

Bugünlərdə Seyran Səxavətin ilk kitabı diqqətimi çəkdi. Əl boyda olan kitabı



vərəqləyəndə, yəni "Mənim planetim"lə tanış olanda yenə həmin musiqinin kitabxanama axıb gəldiyini hiss etdim və elə həmin ovqatla da "Bir şairin bir şeiri" layihəmin mövzusunu tapdım. Bu mövzu da Seyran Səxavətin "Həzin-Həzin"i oldu. Şair yazır ki:

*Tarını götürüb düşdün canıma,*
*Nidalar gözümə göründü, qardaş.*
*Xallar damarımdan keçib qanıma,*
*Bütün bədənimi süründü, qardaş.*

Misralar tarın sədaları altında artıq mənim də içimdə sürünürdü, məni də çəkib aparırdı o simə tərəf, o barmaqlara tərəf, o avaza tərəf və elə bilirdim ki, həqiqətən o tarı sinəsinə sıxan adamla, o ifaçı ilə üz-üzə dayanmışam. Hətta onun başını tara necə söykədiyini, gözlərini necə yumduğunu hiss edirəm, görürəm. Və bu ovqat da məni sözün meydanına tərəf çəkir.

Həmin an böyük xanəndəmiz, mərhum və unudulmaz İslam Rzayev yazılmış misralarımı düşünürəm. Elə bilirəm ki, o tarın sədasında bu misralar da ruha xoş gələr:

*mən bu səsin işığını görürəm*
*bu səs mənə təbiəti göstərir.*
*kol dibinə sığınaraq gizlənən -*
*toxunmadan, bənövşəni göz dərir...*

Bilmrəm, siz indiki anda nə düşünürsünüz, nəyi xatırlayırsınız. Amma mən elə bilirəm ki, Seyran Səxavətin misralarının yaratdığı ovqat, barmaqların simə verdiyi dəyər indi o qədər yerinə düşübdür ki, orada saatlarla oturub qalmaq, xəyala dalmaq mümkündür və xəyal da qanadlandıqca istər-istəməz İslam Rzayevin səsi də gəlib tapacaq səni. Çünki onu arzulayırsan, onun işığına üz tutmusan. Bunu təkcə mən demirəm. Bunu həm də Seyran müəllimin misraları deyir:

*Tar üstə xəyala elə daldın ki,*
*Babamın zilini, pəsini duydum.*
*Sən elə çaldın ki, elə çaldın ki,*
*Ötən əsrlərin səsini duydum.*

Mən təkcə bugünün səsini, bu anın ovqatını özümə kökləmişdim və özümü də ona təslim etmişdim. Amma Seyran müəllim ötən əsrin də səsini şeirə çevirib onu da yaddaşımızın qaranlıq guşəsindən çəkib çıxarıb işığa. Həm zili, həm pəsi nur olan o səs yolumuza səpələnib. Və biz də bu yolla həmin o səsin dalınca getmişik və gedirik. Ona görə də yazıram:

*mən bu səsin gözlərini görürəm*
*ovsunlayır qəmzəsiynən, nazıynan.*
*mən bu səsin izlərini görürəm -*
*vəsf eləmək çətindi bir yazıynan...*

İnanın ki, bu yaşadığım, bu şeirləşdirdiyim misralar bir reallığın, bir gerçəyin özüdü, əks-sədasıdı. Xüsusilə, böyük xanəndənin ifasında dinlədiyim bir az kədərli notlara köklənən "Mən dünyada olmayanda" nəğməsi məni əməlli-başlı özümdən alır. O səs də, o ifa da mənim üçün möcüzəyə çevrilib. Bu sirlər dünyasında həm səsin, həm musiqinin təsiri ilə axtardığın gözün, gülün, çiçəyin özünü görmək və bir də sənə o musiqini təqdim edənin baxışlarını oxumaq, qəlbinin döyüntüsünü duymaq, Segah, Şur ovqatı yaşamaq necə də gözəldir. Bunun da gözəl olduğunu bir az da dəqiqləşdirsəm, o gözəlliyin yaşanmasının zərurətini də Seyran Səxavət deyir mənə, eləcə də sizə:

*Gül, gülən gözündə şimşəklər çaxsın,*
*Mizrabı tellərə vur həzin-həzin.*
*Bu elin qəlbinə süzülsün, axsın,*
*Segah həzin-həzin, Şur həzin-həzin.*

Həqiqətən, Şurun da, Segahın da həzinliyində sözün gözəlliyi də, yatımı da adamın şah damarına qədər işləyir. Elə bilirsən ki, o sözü də sən yazırsan, sən deyirsən. Bax, bu balanslaşdırma, bu tarazlıq az qala adamın ayağını yerdən qoparır. Və sənin ruhunla birlikdə, cismin də fəzada ən gözəl bir məkanda qərar tutur. Orada səni işığına getdiyin səs qarşılayır. O səs də İslam Rzayevin səsidir:

*mən bu səsin əllərini görürəm*
*qarışdırır, sığallayır saçımı.*
*mən bu səsi köynək kimi geyirəm -*
*unutdurur kədərimi, acımı.*

Deyə bilərsiniz ki, burda mən bədii sözün gücünə söykənmişəm. Necə deyərlər, şairlik eləmişəm. Amma bütün hallarda yenə təkrar edirəm ki, İslam Rzayevi dinləyəndə, Dədə Süleymanın səsinin içərisində olanda mən həqiqətən səsin əlini, ayağını da, yəni bütün vücudunu görə bilirəm.

Lakin bilmirəm ki, bunun səbəbi, nədəni nədir?! Ona görə də lap çox dinləyirəm. O nədəni tapmaq yolundan dönmürəm.

Bu yolda Seyran müəllimin misraları da köməyimə çatır:

*Bir ölən həsrətim dirilib indi,*
*Fikirlər beynimi yormaq istəyir.*
*Sarı sim sərhədtək gərilib indi,*
*Mizrab o sərhəddi qırmaq istəyir.*

Yəqin ki, bu məqamda mənim niyə məhz Seyran müəllimin misralarının köməyimə çatdığını söyləməyimin açmasını tapdınız. Həqiqətən, bir sevgi həsrəti, bir ömür nisgili, bir sərhəd xətti kəsir yolumu. O yolu ancaq səs və musiqi keçib gedə bilir, bir də xəyalım. Elə həmin xəyalla da indiki anıma, yəni kitabxanamda baş-başa qaldığım dünyaya qayıdıram. Misralar yenə öz axarı ilə sıralanır. Bu misralar İslam Rzayevdən, onun səsindən bəhrələnibdi:

*mən bu səsin özü ilə üz-üzə,*
*danışıram, illər düşür yadıma.*
*toxunanda ürəyimə kim isə -*
*simurq kimi gəlib çatır dadıma!*

İnsan ümidsiz olanda saman çöpünü də axtarır. Kül altdakı qoru da arıyır. Bu



mənada səsi həmsöhbətim olan, nəğməsi ruhumu oxşayan unudulmaz xanəndəmizin yaratdığı ovqatla Seyran müəllimin misralarını təqdim etdiyi tarın işığı qovuşur bir-biri ilə. Həmin kəsişmə nöqtəsində yenə Seyran müəllimin şeiri dayanır. Özü də öz səsində, öz təqdimatında:

*Bu tarla insanı qardaş, mənə bax,*
*Oxşamaq da olar, yormaq da olar.*
*Tarçının ürəyi sinəsində yox,*
*Tarçının ürəyi barmaqda olar.*

Bu, bir həqiqətdir. Özü də Seyran Səxavətin möhürlədiyi həqiqət. Bütün musiqi bilənlər hər zaman vurğulayırlar ki, ifada barmaqlar şərtdir - barmaqlar danışa bilirsə, onda ifa dipdiri olacaq, canlı olacaqdır. Ona bir az da ürəyi, ruhu qatanda özgə bir aləm yaranacaq. Elə Seyran müəllim də həmin o mənim yozduğum fikri şeirinin sonunda möhürləyib. Həm mənim yaddaşıma, həm də oxucuların. Mən də ustada baxıb böyük xanəndəmizə hələ sağlığında yazdığım şeirin sonunu belə tamamlamışam:

*mən bu səsin əhatəsi içində*
*yaşayıram, düşən gündən tilsimə!*
*gördüyümü yaşadığım üçün də -*
*məni dəli saymağa heç tələsmə!*

Budur, sözün, səsin, musiqinin təmasından doğulan yazı. Mən onu kağıza köçürəndə, daha doğrusu, bilgisayarımız Elnarə xanıma diktə edəndə həqiqətən o səsi də, o ifanı da, o məqamı da yaşayırdım. Yanımda tar, yəni onu ifa edən barmaqlar, başımın üstündə Seyran Səxavət, gözümün önündə İslam, Dədə Süleyman... Bir sözlə, musiqili, nəğməli bir an!..

***P.S.** Bu yaşamda, nədə səhv etdimsə, ustadımdan - 80 yaşını qeyd etdiyimiz Seyran Səxavətdən üzr istəyirəm.*

**İncəsənət elə bir məfhumdur ki, o, yalnız fədailəri yadında saxlayır. O, yalnız fədakarlara xidmət edir. Əlbəttə, Ramiz Əzizbəyli də həmin fədailərdəndir. Kino sahəsində əvəzsiz xidmətləri ilə yaddaşlara həkk olan, ürəklərə hopan Ramiz Əzizbəyli 20 iyul 1948-ci ildə Bakı şəhərində anadan olub.**

Atası Hacıağa ömrünün son illərinə qədər 11 uşaqlı ailəsini "Yasin" oxumaqla dolandırıb. Onun 10 yaşı olanda atası dünyasını dəyişir. Ailənin kiçik övladı olan Ramiz üçün anası və bacısı ona hər cür şərait yaradırlar ki, o, atasızlığı hiss etməsin. Orta məktəb təhsili ilə yanaşı rəsm dərnəyinə də gedib. Qılıncoynatma, üzgüçülük, gimnastika, güləş, futbol, atçılıqla da məşğul olub.

Onun sənətə gəlişi 1957-ci ildən başlayıb. Veriliş və televiziya tamaşalarında azyaşlı aktyor kimi çıxış edir. Azyşalı olmağına baxmayaraq, maraqlı restləri ilə sevilir.

İlk dəfə AzTV-nin uşaq redaksiyasında daimi üzv kimi işləməyə başlayır. Hətta adına müvəqqəti əmək kitabçası da açılır. Azyaşlı olduğu üçün əmək haqqısı onun özünə verilmir. Həmin maaşı poçtla evə göndərirlər.



1959-cu ildə kinostudiyanın dublyaj redaksiyasına cəlb olunub. O vaxta qədər uşaq rollarını

# Özündən əvvəl səsi tanınan adam

da böyüklər səsləndiriblər. İlk dəfə uşaq obrazlarını səsləndirməyi ona həvalə edirlər. Bundan sonra o, kinostudiyada fəhlə kimi işə başlayır. Həmçinin İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində qiyabi təhsil almağı başlayır. Oranı bitirəndən sonra aktyor və rejissor kimi fəaliyyət göstərir.

1987-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının "Debüt" studiyasında çəkdiyi "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi ilə özünü rejissor kimi təsdiqləyir.

Beləliklə bu film bir neçə beynəlxalq festivalda Azərbaycan kino sənətini uğurla təmsil edir, Kiyev şəhərində keçirilən Ümumittifaq Kinofestivalında "ən yaxşı rejissor debütünə görə" nominasiyasının qalibi olur.

Ramiz Əzizbəyli xalqın içindən çıxmış sənətkar idi. Xalqın mənəvi tələblərindən xəbərdar idi. O, xalqımızın nə istədiyini çox gözəl bilib və bütün işləri ilə də tamaşaçıların sevimlisi olmağı bacarıb. Təkcə "Bəxt üzüyü" filmi hər şeyi deyir. "Bəxt üzüyü" müasir kino tariximizə yüksək bədii keyfiyyətli və ən yüksək kassa gəliri gətirən film kimi daxil olub. Film Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin ənənəvi kinofestivalında xüsusi diploma layiq görülüb.

"Bəxt üzüyü" filminə Ramiz Əzizbəyli həyat yoldaşı Zümrüd xanımı çəksə də, sonradan o, çəkilən hissələri montaj edib.

Ömrünü kinoya həsr edən sənətkar bəzi səbəblərə görə öz həmkarlarından zaman- zaman incik düşür.

O, kiçik qızı Xədicəni yaxın dostu olan Rasim Balayevin baldızının oğluna verir. Lakin Xədicənin ailə həyatı uğurlu olmur və həyat yoldaşından ayrılır. Bu məsələ Ramiz Əzizbəylini çox sarsıdır. O, Rasim Balayevdən küsür və ömrünün sonuna qədər onu bağışlamır..

Ramiz Əzizbəylinin yaxın dostu Afaq Bəşirqızı ilə münasibəti kinoya görə soyuyur. Və aralarında incik olur. Bu barədə o, müsahibələrinin birində deyir: "Mənim çəkdiyim filmlə zirvəyə qalxdı, sonra o zirvədən mənə daş atdı. Acığıma gedib "Bəxt üzüyü - 2"ni çəkdi. Mənə çox pis təsir etdi. Çox bərbad, səviyyəsiz bir iş çıxdı ortalığa".

Xalq artisti üç dəfə insult keçirib. O, uzun müddət yüksək qan təzyiqi və şəkər xəstəliyindən əziyyət çəkib. Onun bir ayağındakı barmaqları amputasiya edilib. Ramiz Əzizbəyli 8 dəfə əməliyyat keçirib. Hər dəfə narkozdan ayılanda Allaha şükür edib. Bir müddət əvvəl sənətkar Zığ qəsəbəsində yerləşən koronavirus xəstələrinin müalicə aldığı modul tipli hospitala yerləşdirilib. İnfarkt keçirdiyi açıqlanıb.

Xəstəlik onu daha çox küsəyən uşağa çevirmişdi. Ömrünün son illərində verdiyi müsahibələrinin birində deyib:

"Ən çox incikliyim anamdandır. Onu tez-tez yuxumda görürəm. Gərək məni bu dünyaya gətirməyəydi".

Sənət dostlarından gördüyü soyuq münasibətlə barışa bilmirdi.

Yaşamaq uğrudan sözün əsl mənasında savaşan Ramiz Əzizbəyli 9 iyun 2021-ci ildə uzun sürən xəstəlikdən sonra vəfat edir.

**Əntiqə KƏRİMZADƏ**



*Allahverdi Eminov*

# Məmməd Araz şeirində Təbiətin Kvintessiyası

**(VI məqalə)**

**Poeziya ecazkardır, sehrdir - adi zövqə, dərin intellektə malik olmayan oxucunun belə, gözlərini açır, varlığındakı hadisələri ilahi səviyyədə tərənnüm edir. Poeziya vücuda enerji paylayır, gözəllikdən, ülvilikdən zövq almağı bacarmayanlara həzz almaq və düşünmək imkanı yaradır. Poeziya Təbiətə biganə qalmır, ger-çəkliyin xırda, balaca görümündən, nişanələrindən belə, sevinir, buludların dənizə tökülən göz yaşları, yarpaqların şehli parıltısı, cansız budaqların titrəməsi, quşların ciggiltisi, canavarların ulaşması, ayıların bal arısı ilə əlbəyaxası... şairi həzz almağa çağırır. Şeirdə Təbiətin kvintessiyası, ətrafın sakitliyi və ahəngi əks olunmur.**

Dənizdə yem üçün vurnuxan qağayılar dalğaların hayqırtısından daha aşağı enir, xırdaca balıqları sudan ayırır. Belə poetik mənzərələri görən Məmməd Araz olan - qalan kədərini də unudur, poeziyasına məxsus fəlsəfi mənanı aşılayır, bədii sözləri fiziki ölçülərin çərçivəsindən çıxarır, təbiət hadisələrini başa düşməyə, duymağa yardımçı olur. Məmməd Araz bədii təzadlarla kifayətlənməyib, təəssüratla-rını zənginləşdirir, çiçək eşqilə yamacları dolaşan, bir-iki günlük ömrünü yaşayan kəpənəklərin, barlı çiçəklərin, güllərin şirəsini əmən arıların, torpağa tələsən yarpaqların çapalaşmasını və sair görüntüləri əbədiləşdirir. Yerin sərvətlərilə Göyün naməlum predmetlərilə bağlılıq yaradır. Məmməd Araz o əsərlərinə imza atır - real həyat hadisələri surrealist dünyagörüşü ilə səsləşir, bir-birinə qovuşur, milli həyat səviyyəsilə sadiqliyini itirmir, cəmiyyətin fəlsəfi gedişinə reaksiyasını ifadə edir.

Məmməd Araz özünü Təbiətdən kənarda heç vaxt ayırmamışdır, onun bakirəliyi çəkirdi özünə. Təbiətin bəyazlığında, səsində, gurultusunda şeiriyyəti hava kimi udurdu, dağları, təpələri, qarı, yağışı, dumanı, çiskini belə, uçqunları belə. "Uçqun"u yazdı, "uçqunlar yamanca xoşuma gəlir, qəribə fikirlər başıma gəlir", - dedi. Xoşa gələn nəydi? Biz də uçqunlara baxmışıq, o anlardan sonra diqqətimizi yayındırmışıq. Bəs şair necə?

*Görürsən bir anda dağ dərəsində*
*Uçqunlar özgə bir həyat yaradır.*
*Min illik təzadlar mənzərəsində*
*Uçqunlar təzə bir təzad yaradır.*

*Uçqundan bir bulaq gəlir dərəyə,*
*Uçqun bir talanın sönən yazıdır.*
*Uçqun təbiətin nəyinsə nəyə,*
*Təbiət dilində etirazıdır*

*Ayırır bir dağı bir dağdan uçqun,*
*Qarın göz yaşını selə döndərir.*
*Qartal yuvasını dağıdan uçqun -*
*Bir düzü sonalı gölə döndərir.*

Məmməd Araz Təbiətin - sərbəst, torpaqdan və havadan güc qoparan təbiə-tin sirrini öyrənmək qismətini özündə tapır, poeziyanın dilinə gətirir. Təbiət şairə görə, Kainatda mövcudluğun canlı heykəlidir, canlılar səltənətidir. Bununla poezi-ya qazanır, bu, sönməyən enerjidir, yaradıcılığa möhürünü vurur.

Məmməd Araz Təbiətdən dəfələrlə yazmışdır ki, bu, müəyyən səbəblərlə də bağlıdır: birincisi, ixtisasca coğrafiyaçıdır, ikincisi, doğulduğu məkanı təbii zən-ginliyilə seçilir, üçüncüsü, xarakterindən irəli gələn təmizliyidir.

Şeirlərinin coğrafiyası fikrimizə əsas verir. Şairin təbiətə bağlılığında bir mühüm məsələyə toxunmaq istərdim: bəzi məmur təbəqələrin Təbiətə qarşı laqeydliyi, meşələri qırıb pambıq sahələri yaratması, nadir bitən ağacların kəsib evinə mebel düzəltdirməsi, Xəzəri neft buruqlarından axan mazuta bulaşdırması və ilaxır hadisələr! Belə gerçəklik qarşısında heyrətlənməyə bilmir. İnsan davranışında elə emosional hallar baş verir - sakit ötüşmür, həyəcan - heyrət oyadır, insanı səksəkəyə salır, nigaran-çılıq yaradır, bunlar birbaşa ağıldan qaynaqlanır, özümüzə pıçıldayırıq: "Məni onun hərəkəti heyrətləndirdi", "Heyrətimdən ağladım", "Heyrətimdən sarsıldım" və s. Gözəllik qarşısında da heyrətlənirik, yenə də əlimizi göyə qaldırıb qışqırırıq. Deməli, Sözün mifik sirri yox deyil. Məmməd Araz şeirlərində "heyrət", "hayqırtı" nidasına tez-tez rast gəlirik: "Muğanda ceyran azalıb, günahkar ovçudurmu gözəlliyə qənim kəsilmişdir?



*Bu düzləri düz keçin,*
*Haraysız, səssiz keçin.*
*Şirvanda ov gəzməyin,*
*Mili tüfəngsiz keçin:*
*Ceyran azalıb,*
*Yaman azalıb!*

Qoca dənizçinin vədəsi yetişdiyi üçün təqaüdə çıxarırlar, o isə sevinib dincəlməyin əksinə heyrətlənir:

*Qopdu qasırğa da, pilədi qar da,*
*Səslədi qocanı hər səda, hər kəs.*
*Yox, onu dənizdən ayırsalar da,*
*Sahildən ayıra bilmədi heç kəs!*

Şairə - Məmməd Araza Təbiətin tədqiqatçısı kimi yanaşmaq ədalətli olardı.

O, Təbiətdə yaşam tərzi, canlıların mühitə uyğunlaşması və s. proqnozlar vermişdir.

"Göy-göl", "Professor Gülə məktub", "Bir axşamın balladası", "Qarabağ düzü", "Araz üstə çinar gördüm", "Əlvida dağlar", "Şuşada bir gecə" şeirləri misilsiz nümunələrdir.

Məmməd Araz Təbiətin adi predmetinə həssaslığına qarşı təbii baxıram, təbiətin həzin, yumşaq, yeri gələndə sərt, qəzəbli yazmasında qeyri-adilik görmürəm.

Azərbaycan torpağının nəqşi-cahanı Naxçıvanın ən qədim qalaları, zirvəli dağları, Batabat gölü, Araz çayı, bulaqları.

Şair Bakıda təhsil alıb yaşayanda da, şeirlərini qələmə alanda da doğulduğu yurdu unutmamış, baş çəkmiş, silinməz xatirələrinə qayıtmışdır. Yenidən qayıdanda o təbiətin qoynuna necə?

*Mən bura gül-çiçək*
*Dərməyə gəlmişdim.*
*Nəğməni nəğmənə*
*Verməyə gəlmişdim.*
*Uşaqlıq çağımı*
*Görməyə gəlmişdim...*
*Nə gördüm? -*
*Gözəlin yerində*
*Bir çılpaq tala var,*
*Bulağın yerində*
*Bir çılpaq tala var...*

Zalım harınlar, gözəlliyi qarnında axtaranlar, bulağın suyu ilə gölməçə suyunu dəyişik salanlar nə etmişlər?

Poeziya haqqında hər zaman düşünməyə dəyər, çün həm emosionallığa, həm də ağıla, zəkaya çəkir şairi.

---



*Şahnaz Şahin*

# Prokrastinasiya

**Esse**

**Nədənsə hər gün sabaha bir az daha artıq ümid bəsləyir adam, sabah hər şeyin daha yaxşı, daha xoş olacağına inam işıq kimi dolur ürəyinə. Bəlkə ona görə ümid sonda ölür deyirlər... Bəzən bu elə onun psixoloji durumundan qaynaqlanır, günü lap tələm-tələsik başa vurub sabaha addım atmaq istəyir. Gözləmədiyi halda başına gələn kədərli bir hadisənin təsirindən qaçış istəyi, düşdüyü hər hansı burulğandan xilas yolunu zamanı adlamaqda axtarır. Təəssüf ki, özünü ovutmaq hisslərinin qarışıq dalğası onu sakitləşdirmir, əksinə əzab verir. Bəzən lap dünənə qayıtmaq da keçir könlündən, axı dünən o, daha bəxtəvər idi... Amma özündən uzaqlaşmaq üçün nə əlini uzatdığı dünən, nə də sabah ona istədiyi cavabı vermir, əlləri havadan asılı qalır...**

**Onlar ömürlərinin əlli ilindən çoxunu bir dam altında, yaxşı və yaman günlərini bir-birinə ən yaxın dost-həmdəm kimi yaşamışdılar. Qərbi Azərbaycandan 1948-50-ci illərdə məcburi köçürülmə siyasətinin qurbanlarından idilər. Doğma yurd yerlərini, hazır ev-eşiklərini qoyub, gəlib aranda yenidən torpağa çubuq sancmışdılar. İllər boyu qarışqa kimi zəhmətlə çalışıb yenidən yurd-yuva qurmuşdular, səkkiz övlada qol-qanad verib bu yuvadan uçurmuşdular. Oğul toyu edib gəlin də gətirmiş, qız da köçürmüşdülər., nəvə-nəticədən də payları vardı. Kənd məktəbinin riyaziyyat müəllimi, həm də uzun illər direktoru işləmiş Əli müəllim əsil el ağsaqqalı, həyat yoldaşı Leyli ana da əsil el ağbirçəyi kimi camaatın hörmətini qazanmışdı, dar ayaqda çoxunun məsləhət yeri idilər. Onlar artıq ömrün ahıl çağının rahatlığını yaşayır, yenə bir-birinin qayğısına qalırdılar. Ta ki, hər qapıya düşən açar-əcəl gəlib evin kişisini aparana qədər. O gün əli qoynunda qalan qadının ərinin cənazəsi başında gözlərini naməlum bir nöqtəyə dikib, içdən gələn ağrıyla söylədikləri hələ də qulaqlarımdan getmir...**

**Həyatın əbədi olmadığını, ömür payının bir gün bitəcəyini adı kimi əzbər bilən, indiyədək neçə yaxın və doğma kəsini o dünyaya yola salan bu müdrik qadın daxili sarsıntısını həmin anda məhz belə ifadə etmişdi, "İlahi, bu niyə mənim başıma gəldi!?..." Bu şikayət deyildi, yaradana üsyan da deyildi, bu, bir tərəfini itirmiş insanın şok edəcək ağrısı idi ki, içindən kainata məhz bu formada atılmışdı...**

**Uinston Çörçüll deyirdi ki, dünənlə bu gün arasında dava düşsə, itirən sabah olacaq. Anam da zamanla,vaxtla bağlı o qədər nümunələr gətirirdi, deyərdin dünyanın ən böyük filosofudur.**

**Qonşumuzun gəlini son vaxtlar yaman kökəlib, keçmiş vaxtlar olsaydı deyərdilər ki, maşallah ətə-qana gəlmisən. İndi artıq çəkinin bir sıra xəstəliklərə yol açdığını az qala hamı bilir, o üzdən əksəriyyət normal çəkilərini saxlamağa çalışır. Amma bu heç də uzaqdan göründüyü qədər asan məsələ deyil. Gərək nə yediyindən tutmuş, necə, nə vaxt yediyinə qədər nəzarətdə saxlaya biləsən, həzm sistemi qüsursuz işləyə, endokrin sistemi tarazlığı saxlaya, sinir sistemini həddindən artıq yükləməyəsən, stress və əsəbilikdən uzaq olasan və s...**

**Bu sadaladıqlarımın arasında ən çətini məncə stresdən uzaq və əsəblərinə hakim olmağı bacarmaqdı. Hazırkı dövr, zaman tam əksini diktə edir axı, dünya ovcumuzun içindədi, gərəkli gərəksiz xəbərlər özü gəlib döyür qapımızı, özünə aid olmayan nə qədər "yük"ün altına giririk.**

**Fiziki yük olsa kimsə daşıya bilməz, tezcə kürəyindən atardı yerə, amma ürəyindən ata bilmir, nəticəsi də hipertoniya, infarkt, insult, və s...**

**Hə, qonşumuzdan danışırdım axı, ehtiyatla kökəlməsinin niyəsini soruşanda səbəb kimi işdə və ailədə psixoloji gərginliyin olduğunu söylədi. Deyir, əsəbiləşəndə iştahım artır, yeməkdən əl çəkə bilmirəm, stresi belə atladıram, amma sonra nəticəni görəndə ikinci travmanı alıram, özümə acığım tutur. Bilmirəm necə arıqlayım, dieta saxlamaq istəyirəm, amma iradəm yetmir, hər dəfə sabah başlayaram deyə vaxtı uzadıram... Bax bu hal müasir psixologiyada Prokrastinasiya adlanır. İnsan sadə işləri önə çəkir, amma çətin hesab etdiyi, beyninə dinclik verməyən və ağlında gücü yetməyəcəyi səviyyəyə qədər böyütdüyü əsas işi ertələyir...**

**Orqanizm stress halında olanda avtomatik özünü müdafiəyə keçir. Bu zaman böyrəküstü vəzilərin kortizol ifrazı ya artır ya da azalır və hər ikisi də xarakterik narahatlıqlar yaradır. Bu hormonun səviyyəsinin qanda uzun müddət yüksək qalması orqanizmə mənfi təsir göstərir, görünən əlamətlərdən biri də iştahın artmasıdır...**

**İndi müasir tibbdə bir çox xəstəliklərin müalicə üsulları da müasirləşib, hətta bəzi hallarda "asanlaşıb" deyərdim. Əlbəttə, əlacsız hesab olunan dərdlərin dərmanı tapılıbsa, ümidi kəsilmiş xəstəni həyata bağlayan vasitə kəşf olunubsa sevinməyə dəyər. Amma indiki halda hər şeydə bir əndazənin olduğu unudulmamalı, normalar gözlənilməlidir. Yoxsa qaş düzəltdiyin yerdə vurub gözü də çıxardarsan. Axı hər bir yenilik köhnə yeninin üzərində inşa edilir!..**

**Yəqin xanıma məsləhət verib verməyimlə də maraqlanırsınız, ona, ilk addım olaraq qəbul etdiyi qidalar, onların miqdarı və qəbul vaxtı ilə bağlı özünə müəyyən bir sədd qoymasını təklif etdim. Həm də məsləhət gğrdüm ki, elə bu gündən başlasın, sabaha saxlamasın, ən əsası özünə inansın, iradəsini səfərbər edib başlasın. Mövlananın təbirincə desəm, ümid həmişə var, zaman qısa, sən yorğun, yol isə uzun olsa da...**

# KASIB №1



**Respublika Kasıblar Cəmiyyətinin Pənahı**
**REDAKTORDAN**

**Hörmətli oxucu!**

Çox fikirləşdik, çox götür-qoy elədik ki, bizdə, yeni Respublika Kasıblar Cəmiyyətində bir qəzet açaq. Hansı qapını açıb salam verdiksə, "əleyk" əvəzinə iki söz eşitdik: Pulunuz var? Pulunuz var?

Hörmətli oxucu!

Səncə, bizim pulumuz var? Bizim pulumuz olsaydı, qəzeti neynirdik, elə komisyon mağazasından-zaddan açıb insane balası kimi yaşayardıq də. Nə başınızı ağrıdım, durub birbaşa gəldik "Bərəkət" qəzetinə. Paltarımızdan cin ürkürdü. Əvvəlcə elə bildilər ki, dəliyik. Sonra gördülər ki, yoox, dünyanın işlərindən bizim də başımız çıxır. Uzun-uzadı çənə-boğaz eliyəndən sonar dedilər ki, yaxşı, ayda-ildə bir dəfə sizə də bir səhifə verərik, öz qəzetinizi çıxarasınız, ancaq bir şərtlə. Əgər gələcəkdə varlansanız, (bunu çox inamsız dedilər) bizim pulumuzu verəcəksiniz. Razılaşdıq. Sağollaşıb qapıdan çıxmaq istəyəndə redactor soruşdu. Heç olmasa təxmini də olsa, deyin görək, siz nə vaxt varlanıb bizim pulumuzu qaytaracaqsınız? Elə bil, başıma bir qazan qaynar su tökdülər. Özümü itirmədim. Yeddi milyona yaxın kasıbın taleyi mənim cavabımdan asılı idi. Dedim:

- Yüz ildən sonra

Redaktor üzünü bozartdı:

- Əlli ildən sonra! - dedi.

Elə bil içimdən bir daş qırılıb kasıbların başına düşdü. Lakin halal olsun mənə, yenə özümü ələ aldım. Dizlərimi yerə atıb əllərimi göyə qaldırdım (kasıb yoldaşlarım da mənim kimi elədilər), vüqarla onun üzünə baxıb dedim:

- Səni and verirəm, baban Həsən bəy Zərdabinin ruhuna, bizi əliboş yola salma.

Redaktorun gözləri doldu və dedi:

- Yaxşı, altmış ildən sonra.

Hamımız ayağa durduq, mən dedim.

- Həsən bəy Zərdabi kimi Yer üzündə kişi olmayıb.

Redaktor dedi:

- Altmış il.

Sonra təzədən dizimizi atdıq yerə, məsələni həll eliyənə qədər yerdən durmadıq. Uzun yalvarışlardan sonra yetmiş ildən sonra "Bərəkət"in borcunu qaytaracağımıza söz verdik, ancaq orasını da deyim ki, bizə heç bir kağıza-zada qol çəkdirmədilər.

Beləliklə, uzun əzab-əziyyətdən sonra ilk dəfə sizing görüşünüzə gəlmişik.

Salam, hörmətli kasıb oxucu!

## *ÇÖRƏYİM DAŞDAN ÇIXIR*

**Müxbirimizin suallarına Respublika Kasıblar Cəmiyyətinin Prezidenti**
**Həsir Məmmədnəsioğlu cavab verir.**

- Adamın ürəyi də gəlmir soruşmağa. Bağışlayın, nə vaxtdan belə kasıbsınız?
- Anadangəlmə məndə...
- Neçə uşağınız var?
- On dörd.
- Bəs Allaha ağır getməsin, axı bu qədər uşağı?...
- Bəs eşitməmisiniz ki, kasıbın əkdiyi bitməz. Ancaq.....
- Nu, siz də bir az ehtiyatlı olun də...
- Olmur axı...
- Əsl iş yeriniz haradır?
- Azərbaycan.
- Allah xoşbəxt eləsin, uşaqlarınızın neçə yaşı var?
- Böyük oğlumun on dörd yaşı var, ikincinin on üç, üçüncünün on iki, dördüncünün on bir, ildə biridi də... Sonbeşiyimiz beşaylıqdır...
- Arvadınız işləyir?
- Yox.
- Bəs niyə?
- İkicanlıdır.
- Bəs bu qədər uşağı nə təhər saxlayırsınız?
- Mən saxlamıram, Allah saxlayır.
- Arvadınızın ixtisası nədir?
- Uşaq doğmaq.
- Uşaqlarınızın gələcəyini necə görmək istərdiniz?
- Parlaq.
- Siyasətlə aranız necədir?
- Yaxşı.
- Qarşıdan prezident seçkiləri gəlir, kimə səs verəcəksiniz?
- Elə hamısına...
- Qarabağ məsələsinə necə baxırsınız?
- Qarabağ bizimdir. Ölsək də, bir qarış torpağımızı verməyəcəyik...
- Axı neçə kəndi vermişik?
- Tay orasını bilmirəm. Mən öz payıma deyirəm. Mən verməyəcəyəm.
- Qorbaçov haqqında fikriniz?
- Onu get respublikanın keçmiş rəhbərlərindən, bir də arvadı Raisadan soruş.
- ən çox sevdiyiniz yemək hansıdır?
- Xoşuma gələn yemək yoxdur, nə tapırıq, onu da yeyirik.
- Böyük oğlunuz kim olmaq istəyir?
- Məhkəmə olsa, yaxşı olar.
- Arvadınızı sevib almısınız?
- Dedilər al, mən də aldım.
- Ən çox yadınızda qalan hadisə?
- Huşum yoxdu ha.
- Evdə arvad çox danışır, yoxsa siz?
- Arvad gecə-gündüz uşaqlara qarğış eləyir. Hərdən-birdən də deyir ki, səni tapdığım günə daş düşəydi.
- Belə vaxtlarda arvadınızı necə sakitləşdirirsiniz?
- Evdən çıxıb gedirəm ki, qulağım dincəlsin.
- Nə yaxşı özünüzü prezidentliyə namizədliyə verməmisiniz?
- Elə istəyirdim... Nə isə köməyim olmadı.
- Prezident olsaydınız, Qarabağ məsələsini necə həll edərdiniz?
- Yeddi milyon bizik, üç milyon da erməni. Cumardıq onların üstünə, üç milyon onlardan ölərdi, üç milyon da bizdən. Yerdə qalan da insan kimi yaşayardı.
- Qarabağda sizin kasıblar cəmiyyətinin xətti ilə vuruşanlar varmı?
- Elə vuruşanın hamısı kasıblardı də.
- Kasıblar cəmiyyətinin prezidenti kimi nə qədər maaş alırsınız?
- Pulsuz işləyirəm.
- Üzvlük haqqı nə qədərdir?
- Pulsuzdur.
- Siz, həqiqətən, belə sadəlövhsünüz, yoxsa oynayırsınız?
- Birincisi, verdiyiniz dayaz suallar məni məcbur edir ki, belə olum. İkincisi, mən oynamıram. Ancaq belə getsə, gərək keçmiş Mərkəzi komitənin bu yaxınlarda fəaliyyətə başlayan dram dərnəyinə yazılam. Açığını deyim ki, sizdən ciddi suallar gözləyirdim.
- Yaxşı, mən gedirəm, gələn dəfə sizə elə suallar verəcəyəm ki, qalasınız belə. Ümidvaram ki, gələn görüşümüzə qədər siizn bu cəmiyyətiniz yaşayacaq.
- Narahat olmayın, kasıblar cəmiyyəti əbədidir.

**Şapalaqla ÜZQIZARDAN**

## *NİYƏ BELƏ OLDU, BABACAN?*

Hörmətli Lenin!

Gec də olsa, rojdeniyanı təbrik edirik!

Axı həmişə bizə deyirdilər ki, sən kasıbların dostusan. Sənin bu şad günündə bir xahişimiz var: əvvəlcə otur, sonra da heç olmazsa, ömründə bircə dəfə o əlindəki papağını qoy qabağına - fikirləş gör, bu işlərin axırı niyə belə oldu? Bircə onu bilirik ki, analar hələm-hələm səni kimi oğul doğmamışdı. Kimnecə istəyir, elə də başa düşsün.

**Ehtiramla: Azərbaycan zəhmətkeşləri yaxud proletariatı adından Respublika Kasıblar Cəmiyyəti**

**Hörmətli "Kasıb"!**

Mən kasıbları çox sevirəm, onlar mənim həyatımdı, ürəyimdi. Kasıbın çörəyi heç vaxt dizinin üstündə olmaz və olmaq təhlükəsi də yoxdu. Çünki kasıbın çörəyi var ki, dizinin də üstündə olsun. Bax, buna görə də kasıblarla bərk dostam.

Sizi rayonumzuun 90 min əhalisi adından ürəkdən təbrik edirəm, yüz yaşayın!

Kiçik bir xahişim də var. qoy sizin cəmiyyətin üzvləri keçmişin qalığı olan raykom katibləri ilə bizi qarışdırmasınlar, biz yeniləşmiş, pak və təmiz adamlarıq! Bu barədə kömək edin!

**İcra hakimiyyətinin başçısı**

**Redaksiyadan: Qəmişinizi çəkin!!!**

## *KASIBLIĞIN DAŞINI ATMAĞA DOĞRU, İRƏLİ!!!*

**Respublika Kasıblar Cəmiyyətinin Azərbaycan kasıblarına müraciəti**

Hörmətli kasıblar!

Uzun müddət apardığımız tədqiqatdan sonra məlum oldu ki, respublikamızda milyonlarla kasıb var - maşallah böyük və əzəmətli bir ordu!

Yəqin bundan da xəbərsiz deyilsiniz ki, indi respublikamızda yüzlərlə cəmiyyət yaranmışdır. Biz də xeyli götür-qoy eliyəndən sonra belə bir cəmiyyət yaratmaq qərarına gəldik. Bu, sizin öz doğma cəmiyyətinizdir və heç nədən utanıb eləməyin - çəkinməyin.

Orası da bir həqiqətdir ki, kasıb iki cür olur - biri, gecəsino gündüzünə qatıb ölənə qədər işləyən kasıb, ikincisi isə, "Allahdan buyruq, ağzıma quyruq" deyən tənbəl kasıb. Aydın məsələdir ki, tənbəlliyinin ucbatından kasıb olanlar cəmiyyətimizə üzv qəbul oluna bilməzlər. Yəqin ki, gələcəkdə kimsə "Tənbəl kasıblar" cəmiyyəti yaradıb onların problemləri və gündəlik qayğıları ilə məşğul olacacaqdır.

Hörmətli kasıblar!

Heç ömrünüzdə papağınızı qabağınıza qoyub fikirləşmişiniz ki, niyə kasıbsınız və necə eləsəniz, kasıblığın daşını ata bilərsiniz? Yəqin ki, yox, fikirləşməmisiniz - ancaq lazımdır, özü də həmişə - varlanana qədər. Atalar deyib ki, "kasıb mərd olar". Olsun. Ancaq gəli görək, mərd yemək istəmir, oun balaları yoxdu? Görəsən, "kasıb mərd olar" deyən, ikibaşlı söz işlədən ataların sözündən belə çıxmır ki, "varlı da namərd olar". Əgər belədirsə, bəs onda Hacı Zeynalabdin Tağıyev - o ki, çox mərd adam olub. Görürsünüz, məsələ necə qəlizləşir?

Birdən soruşurlar ki, filankəs nə təhərdi, deyirlər ki, necə olaacq, kasıblığını eləyir - deməli, kasıblıq bizim respublikamızda peşə-sənət səviyyəsinə yüksəlmişdir. İndi kasıblıq sənətdir - siz də sənətkarlar. Bu da bir acı həqiqətdir ki, sıralarınıza yeni-yeni qüvvələr gəlir. Azərbaycan kasıblarının yaxın dostu, öz əsərlərində onlara həmişə qayğı göstərmiş Karl Marks sağ olsaydı, yəqin ki, deyərdi: bütün Azərbaycanın kasıbları birləşin! Elə yenicə yaranmış cəmiyyətimiz də bu fikirdədir.

Hörmətli kasıblar!

Dözümlü olun, səbrlə qoradan halva bişirin, evdə arvad-uşağın gözünün içinə düz baxa bilməsəniz də, hərdən-birdən qıyğacı baxın, öz kasıb vicdanınızla əl-ələ verib ömür yollarında vüqarla addımlayın. Eybi yoxdu, kasıbın da Allahı var. Ancaq qorxuram ki, kasıbın da Allahı kasıb olsun - onda batdıq.

Hörmətli kasıblar!

Kimlərdi sizi qoymayan, kimlərdi sizi incidən, yola verməyən. Onların ad-familiyasını, iş yerini yazıb bizə göndərin. Qorxmayın! Məktublarınızı gözləyirik, tərpənin, hərəkətə gəlin!

Respublika Kasıblar Cəmiyyəti Azərbaycanda yaranmış bütün cəmiyyətlər və partiyalarla siyasi, iqtisadi, mədəni əlaqələrini genişləndirməyi nəzərdə tutur. Cəmiyyətimiz bu günlərdə yarandığından prezident seçkilərinə öz namizədini irəli sürə bilməmişdir. İnşallah gələn dəfə.

Bu gün kasıblığın daşını atmağın böyük tarixi əhəmiyyətini də unutmalıyıq. Bu, bizim vətən qarşısında ən müqəddəs borcumuzdur: Belə ki, hamı kasıblığın daşını xain erməni daşnaklarına tərəf tullasa, düşmənlərimiz 7 milyona yaxın daşın altında qalıb məhv olar və bu tarixdə XX əsrin Daş Döyüşü kimi qalar.

Hörmətli Kasıblar! Kasıblığın daşını atmağa doğru irəli!

**Hörmətlə: Respublika Kasıblar Cəmiyyətinin ilk prezidenti Həsir Məmmədnəsir oğlu**
**Müraciəti qələmə aldı: Ayaqyalın BAŞIAÇIQ (xüsusi müxbirimiz)**

## *İNANAN DAŞA DÖNSÜN...*

* Qalina Staravoytova Ermənistan Respublikasının Andronik mükafatına layiq görüldükdən sonra Bakıya gəlib "Tövbə" cəmiyyətinə getmiş, dədəsi Vasilinin goruna da and içmişdir ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir... və bir də... "Tövbə" cəmiyyətinin sağlam və gənc idmançıları Qalina Staravoytovanı yorğun halda Maştağa aeroportundan yola salmışlar.

* Buş, Qorbaçov, Tetçer və Yeltsin müsəlman dinini qəbul etmək arzusunda olduğunu bildirmişlər. Xeyir olsun - onları dədə-baba qaydası ilə müsəlman etmək üçün dövlət komissiyası yaradılmışdır.

* Rusiya parlamentinin qərarı ilə Sevan gölündə Ermənistan Respublikasının Hərbi Dəniz Donanması yaradılmışdır. Elə ilk gəmi suya daxil olanda göl daşmış, ətraf kəndləri su basmışdır. Bu vaxt gölün kənarında istirahət eləyən Qalina Staravoytovanı sel aparmışdır. Ermənistan üçgünlük matəm elan etmişdir.

* Xocalı qırğınının müqəssirləri Azadlıq meydanında dar ağacından asılanda kəndir çürük olduğuna görə qırılıb və müqəssirlərin edam olunması naməlum vaxta keçirilib. Asılmaq üçün siyahıya kəndir zavodunun bir fəhləsi də əlavə olunub.

* Ermənistan zəhmətkeşlərinin xahişi ilə Yerevanın mərkəzində qazaxlı Alikə heykəl qoyulmuşdur.

* Erməni mü\ənnisi Şarl Aznavur Paris televiziyasında kontrabasın müşayiəti ilə Qarabağ şikəstəsi oxumuşdur. Məşhur müğənni otuz il idi ki, məşq edirdi. Müvəffəqiyyətlə keçən konsertdə Aqambekyan və Raisa Qorbaçova, Balayan və Silva Kaputikyan, Mitteran və Şarl Aznavur "Naxçıvan şikəstəsi"ni məşq edir.

* Respublikada çatışmayan 6 milyard manatın kimlərdə olduğunu ayırd etmək üçün komissiya yaradılmışdır. Hələlik onlar orta məktəbdə işləyən kişi müəllimlərdən şübhələnirlər. Komissiya öz işini daavm etdirir.

* Gülüstan sarayında ali məktəb rektorlarının xalqla görüşü keçirilmişdir. Rektorlar and içmişlər ki, bu yay alacaqları rüşvətin hamısını Qarabağa Xalq Yardımı Komitəsinin və Müdafiə Nazirliyinin hesabına verəcəklər. Bu məqsədlə rüşvəti tam və itkisiz yığmaq üçün dövlət komissiyası yaradılmışdır.

* Bakıda hərbi akademiya açılmışdır.

* Qarabağdan gələn yaralı əsgəri pul ilə müalicə etdiyinə görə Hippokrat andı bir tibb işçisinə qənim olmuşdur. Nəticədə onun ağzı əyilmişdir. Həmin həkim Respublika Səhiyyə Nazirliyinə Hippokratdan şikayət yazmış və nazirlik də işinə yazılmaq şərtiylə Hippokrata töhmət vermişdir.

* Azərbaycan xalq cəbhəsinin sədri Əbülfəz Elçibəyə dörd gözdən ibarət mənzil verilmişdir.

* Rəhim Qazıyev Respublika Müdafiə Nazirliyinin Respublika Hücum Nazirliyinə çevrilməsi haqqında Parlamentdə məsələ qaldırmışdır. Parlament bu təklifi gurultulu və sürəkli alqışlarla qarşılayıb - sağ olsunlar.

* Leyla Yunusova Azərbaycan Respublikasının Amerikada fövqəladə və səaliyyətli səfiri təyin edilib.

* Xalqın boğazına zəli kimi yapışıb qanını soran deputatlardan biri parlamentdə şişib, şişib partlayıb. Partlayış nəticəsində deputatın sağında və solunda oturan iki nəfər vəfat edib. İnsan tələfatı yoxdur.

**LÜTOĞLU LÜT**
**Cəmiyyətin İdarə Heyətinin üzvü**

## *TƏBRİKLƏR... TƏBRİKLƏR...*

Qədəmləriniz və qələmləriniz mübarəkdir!

Sizin cəmiyyətin təsis olunduğunu eşidəndə çox təəccübləndik və fikirləşdik ki, ey dili-qafil sən demə, yazıçılardan da kasıbları varmış. Bu, biz yazıçıların xalqı yaxşı tanımasından irəli gəlir, inciməyin. Hal-hazırda Yazıçılar Birliyinin üzvlərindən 400 nəfərə qədəri siizn cəmiyyətə üzv yazılmaq əzmindədir. Sizə vurduğumuz ilk təbrik teleqramının xatirinə yazıçılar birliyinin orqanları olan "Azərbaycan", "Ulduz", "Literaturnıy Azerbaydjan" jurnallarına və "Ədəbiyyat" qəzetinə, həm də onların əməkdaşlarına maddi cəhətdən kömək etməyiniz də xahiş edərdik, əvəzində "barter" olaarq bütün yazıçıları kasıbların həyatındanm yoğun-yoğun romanlar, poemalar yazmağa səfərbər edib ruhlandırmağa söz veririk. Hökümətdən bir kaş aşmadı - yeganə ümidimiz sizsiniz, bizə yazığınız gəlsin.

**Hörmətlə:Yazıçılar Birliyi**

**Redaksiyadan: Məscid tikilməmiş kor hasasını dirədi...**

***

Yazıçılar Birliyindən Sizə təbrik teleqramı göndərməyə gələn yoldaş rabitə şöbəsində növbəni pozaraq bizi qabaqladı.

Sizi xor kapellası kimi bütün bəstəkarlar ürəkdən təbrik edir. "Tərəkəmə", "Heyvagülü", "Uzundərə" əsl kasıbların sümüyünə düşən oyun havaları deyilmi? Bəlkə, onları Sizin üçün yazıçılar bəstələyib. Xeyr, məhz bəstəkarlar yazıb. Bu gün Bəstəkarlar Birliyində hamının yaxından köməyi ilə "Kasıbın da Allahı var" adlı operanın son işləri gedir. Bəstəkarların vəziyyəti sizlərdən yüz dəfə ağırdır. Bir yandan da Qarabağ dərdi. Bizə maddi kömək lazımdır, maddi kömək. Qabaqcadan sizə öz təşəkkürümüzü bildiririk.

**Hörmətlə: Bəstəkarlar Birliyi**

**Redaksiyadan: Bu bəstəkarlar lap nağd eliyiblər ki...**

***

**Başsağlığı**

Respublika Kasıblar Cəmiyyətinin idarə heyəti

Həyata keçməmiş qərarların

vaxtsız vəfatı münasibətilə Ali Sovetə və Milli Şuraya

dərin hüznlə başsağlığı verir. Dəfn mərasimi Dövlət Arxivində olacaqdır.

***

**REDAKTOR: SEYRAN SƏXAVƏT**
***Tirajı 7 milyon**
**Redaksiya heyəti: Bütün Kasıblar**
**Müəlliflərin mövqeyi redaktorun mövqeyi ilə düz gəlməzdir.**
**Çapa imzalandı: Şər qarışanda**
**Telefon: Yoxun üzü qara olsun.**
**Ünvan: Azıx mağarası**

# Seyran Səxavət - 80



*Rafiq Həşimov*

## Mən onunla tanış olanda haradasa 50 yaşı olardı

**...Rəşid Behbudov adına mahnı teatrı.**

**...Teatrın direktoru Niyazi Aslanovun dəvəti ilə teatrın səhnəsində keçiriləcək yubiley gecəsinin ssenarisi, quruluşu və tərtibatı üzərində işləyirik.**

**...Direktorun otağı...və birdən...bir az xırıltılı, xoş, qulağayatımlı səsə başımı kağızdan qaldırıram--"salam, mamoğlu!". Dostları ilə görüşən Niyazinin gülüşünün bütün sifət cizgilərində şırım açan siması heç vaxt yadımdan çıxmır.**

**...Masadan dik qalxır, gələn adama tərəf qollarını geniş açaraq onu qucaqlayır və mənə çevrilib: "Rafiq, böyük yazıçımız Seyran Səxavət!"- deyir...Mənə işarə ilə Seyran müəllimə -"bu cavan oğlanı yəqin televizorda görmüsən..."- deyərək təqdim edir.**

**Bir azdan daha bir möhtəşəm, bir dəfə dinləyənin heç vaxt yadından silinməyəcək səs eşidilir: -- kepkasını çıxarıb gülümsəyərək heca-heca uzada-uzada--"sa-laam əleey-küm" kəlməsiylə öz məhrəm məkanına daxil oilurmuş kimi asta addımlarla içəri girən Fuad Poladov...Bir gündə iki şəxsi tanışlıq (əlbəttə, mən bu iki böyük sənətkarı tanıyırdım).**

**...Bir neçə il televiziyada çalışan cavan bir adam üçün xoşbəxtlik deyilmi? Mənim az qala atam yaşında olan insanlar.**

**Bir az ordan-burdan söhbət, zarafatlar və bütün bunların bir neçə dəqiqədən sonra yaxınlıqdakı "Bakı" restoranında davamı...**

**Atamın "hər şeyin öz yeri var" üsuli-tərbiyəsi aramızdakı yaş fərqini sanki hiss etdirmirdi.**

**...Beləcə, Niyazinin "ocağında" alışan bu münasibət illərlə gəlib öz adi halına yetişdi.**

**...Dostluq-Yaradanın insana verdiyi ən gözəl nemətlərdən biridir. Bircə dənə də resepti var: Təmənnasızlıq, Allah xatirinə dostluq,**

**Allahın yaratdığını səmimi qəlblə sevmək!**

**...Qədimdə "simposi" adlanan bu mərasimlər "ayda bir yol-həftədə bir yol" nəğməsi kimi həyatımızda səslənirdi. Bəzən bu kvartet böyüyürdü--Faiq müəllim, Gülağa, Hətəm müəllim və daha kimlər, kimlər... Mən də bu insanlıq, sənət məktəbi ünsiyyətindən xeyli həyati materialla tanış olurdum, öyrənirdim.**

**...Niyazi hər dəfə məclisin sonunda özündən başqa heç kimə xas olmayan ədası ilə, yaraşıqlı boy-buxunu, altmışıncılar nəslinin parlaq, pafosdan kənar intonasiyası ilə: "Bizim dostumuz Rafiqin bir çatışmayan cəhəti var-çox cavandır...Amma bu, tezliklə keçəcək."-deyib ürəkdən elə gülürdü ki...**

**İndi dünyada belə işıqlı gülüş tapmaq çətindir.**

**...Seyran müəllim "uşaqlıq əminliyini və intuitiv sədaqət hissini qoruyub saxlayan" insanlardandır. Ən çətin məsələlərdən biri, bəlkə də elə birincisi, bu deyilmi?!**

**...Mən durub bu yazıda Seyran müəllimin əsərlərinin ədəbi-bədii məziyyətlərindən danışsam, mənə elə gəlir ki, bu barədə ədəbiyyatşünasların fikirləri daha inandırıcı və sanballı olar.**

**...Mən yalnız əsl ədəbiyyatı hiss edən, sevən oxucu kimi bəzi təəssüratlarımı bölüşmək istərdim.**

**...Seyran müəllimi oxuyanda elə bilirəm ki, söhbət açılan mətləb mənə danışılır. Və danışanın səmimi olduğuna görə, inanıram ona.**

**...Seyran müəllimin mətnlərində yumor hissi, düşünürəm ki, ayrı bir araşdırma mövzusu ola bilər.**

**...Seyran müəllim yazıçı sözünü tale kitabı kimi bütün məsuliyyəti ilə həyatın dolanbaclarıyla çiyinlərində daşımaqdan yorulmayan güclü bir şəxsiyyətdir.**

**...Seyran müəllim Azərbaycan insanının mənəvi-bioloji-fiziki anatomiyasını yaxşı bilən və onu sevərək həmişə gözəl görmək istəyən bir qələm sahibidir.**

**...Əziz Seyran müəllim, Sizə uzun, sağlam ömür arzulayıram. Və Allahdan diləyirəm ki, son nəfəsinizə kimi qələm əlinizdən düşməsin. Yaşayın, yazın, yaradın. Çünki sözün devalvasiyaya uğradığı çağdaş dövrdə əsl yazıçı sözünə çox ehtiyac var.**

## Sözün keşikçisi - Seyran Səxavət



*Aləm Kəngərli*

**Mətbuatda "Qəfil görüş" adlı hekayəm çap olunmuşdu. Axşamüstü ustad yazıçımız Seyran Səxavətdən zəng gəldi. Hal-əhval tutandan sonra dedi ki, Aləm, hekayən çox xoşuma gəldi. Ancaq səndən bir xahişim var. Buyur, qardaş, - deyə cavab verdim. Dedi ki, hekayəndə bir yerdə "bənzəyirdi" sözü yazmısan. Gələcəkdə kitab çıxaranda onu "oxsayırdı" sözü ilə əvəz edərsən. Dedim ki, baş üstə.**

**Bu söhbəti elə-belə yada salmadım. Məqsədim oxucuların böyük rəğbətini qazanmış hörmətli yazıçımız Seyran Səxavətin ədəbi yaradıcılığa olan münasibətini diqqətə çatdırmaq idi. İlk baxışda bu iki söz arasında elə bir ciddi fərq yoxdur. Ancaq, görünür, bənzəyirdi sözü cümləyə rahat oturmadığına, onun ahənginə xələl gətirdiyinə görə (şeirdə olduğu kimi) ustad yazıçımızı narahat etmiş və mənə məsləhət vermək istəmişdi. Mən çox istərdim ki, Seyran Səxavətdə olan bu yazıçı məsuliyyəti, mətnə, sözə olan münasibət bizim bütün yazıçılarımızda olsun.**

**Bildiyiniz kimi Seyran Səxavət ədəbiyyata şeirlə gəlmiş, gözəl poeziya nümunələri yaratmışdır. Sonralar nəsr sahəsində qələmini sınaqdan çıxarmaq istəmiş və yazıçı kimi daha böyük uğurlara imza atmışdır. Özünün söz boxçasına, istedadına arxalanan yazıçı insan amilini önə çəkərək bəşər övladını narahat edən mövzulara üz tutmuş, bir-birindən dəyərli əsərlər ərsəyə gətirmişdir. İstər kənd həyatı olsun, istərsə şəhər - fərq etməz, Seyran Səxavətin əsərləri həmişə öz koloritliyi və oxunaqlığı ilə seçilibdir. Onun "Daş evlər", "Qızıl teşt", "Nekroloq" və digər əsərləri Azərbaycan ədəbiyyatı tarixində öz layiqli yerini qoruyub saxlayacaqdır.**

**Bəstəkar və teatr xadimlərimiz də Seyran Səxavət yaradıcılığına biganə qalmamış, həvəslə onun əsərlərinə müraciət etmişlər. Yeri gəlmişkən bilməyənlər üçün deyim ki, Seyran müəllim milli musiqimizin, muğam sənətimizin də mahir bilicilərindəndir. (Qarabağlı olasan, xalq musiqisini bilməyəsən?!) Bəlkə musiqini, poeziyanı, folkloru, yumoru birlikdə yoğurub yazmaq qabiliyyəti olduğuna görə Seyran Səxavətin əsərləri belə gözəldir.**

**Bu cür nümunələr ədəbiyyatımızın çəkisini, qüdrətini artırır, başqa xalqların əsərləri ilə müqayisədə onu əlçatmaz edir. Seyran Səxavət təkcə yazmır. O, sözün gücünə, qüdrətinə söykənərək, öz təsvirləri ilə rəssamların yarada bilmədiyi tabloları göz önünə gətirir, oxucunu mətnin əsirinə çevirir. Bu mətnlərdə Azərbaycan dilinin zənginliyi, musiqisi, sözün səsi və ətri vardır. Mən Seyran Səxavət yaradıcılığına olan münasibətimi qısaca olaraq belə ifadə edərdim: Seyran Səxavət təkcə yazıçı deyil. O, eyni zamanda sözün rəssamı, bələdçisi, keşikçisi və mən deyərdim ki, hətta sözün sahibidir. Əgər hər hansı ciddi bir qələm adamı sözü yerində işlətməyib cümlələrin xətrinə dəysə, bilsin ki, qarşısında Seyran Səxavəti görəcək.**

**Ustadla ara-sıra görüşlərimiz, söhbətlərimiz, polemikalarımız olur. Onun haqqında bu qənaətdəyəm ki, Seyran müəllim çoxları ilə müqayisədə tam fərqli bir xarakter sahibidir. O mənada ki, onda olan müsbət, ali keyfiyyətlərin sayı daha çoxdur.**

**O, uşaq kimi təmiz və sadəlövh, gənclər kimi mübariz və çılğın, yaşa dolmuş adam kimi isə böyük nüfuza malik olan nötəbər bir ziyalıdır. Seyran Səxavət xalqla nəfəs alan dürüst, mehriban, zarafatcıl bir insandır. Böyüklə böyük, kiçiklə kiçik kimi dvranmaqda mahirdir. Onunla yoldaşlıq etməyin, yola çıxmağın həmişə yeri var.**

**Ustad, 80 illik yubileyin mübarək. Can sağlığı, uzun ömür, sevinc dolu həyat, yeni yaradıcılıq uğurları arzulayıram!**

## Buraxılış imtahanı sualları çətin olub?

**Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən buraxılış qəbul imtahanlarının məzmunu müəyyən edilərkən istinad etdiyi metodiki çərçivə çox aydın və birmənalıdır - bunlar hazırda ölkəmizdə qüvvədə olan təhsil proqramı, dərsliklər və onların əsasında hazırlanmış buraxılış imtahanı proqramlarıdır. İmtahanların məzmunu hazırlanarkən qeyd olunanlar nəzərə alınır.**

Bu barədə Adalet.az-a Dövlət İmtahan Mərkəzindən (DİM) məlumat verilib.




Bildirilib ki, tapşırıqların mürəkkəblik dərəcəsinə gəldikdə isə ümumi qayda belədir ki, hər bir imtahanda müxtəlif hazırlıq səviyyəsinə malik iştirakçıları bir-birindən fərqləndirmək üçün bütün fənlər üzrə test blokunda asan, orta və çətin test tapşırıqlarından istifadə edilir:

"Çünki imtahanda yalnız zəif və orta hazırlıqlı abituriyent deyil, yaxşı hazırlıqlı iştirakçıları da bir-birindən fərqləndirmək tələb olunur. Ümumiyyətlə imtahanın asan və ya çətin olması nisbi bir məsələdir. İmtahan iştirakçısının hazırlıq səviyyəsinə görə bu, əlbəttə, deyişir. Hər hansı bir tapşırıq kimə görəsə çətin, kimə görəsə asan ola bilər. Ancaq ənənəvi təhlillər göstərir ki, test tapşırıqlarının çətin olması ilə bağlı bəzi iştirakçılar tərəfindən səsləndirilən mülahizələr həqiqətə uyğun olmur. İmtahanın mürəkkəblik dərəcəsi sosial şəbəkələrdə yazılanlara əsasən müəyyən edilmir. Burada əsasən hər imtahandan sonra zəif hazırlıqlı iştirakçılar yazırlar. Bu hər il təkrarlanır. Hazırda yekun imtahan nəticələri elan olunmayıb. Ona görə də heç kəs konkret fikir söyləyə bilməz. Nəticələr elan olunduqdan sonra lazımi göstəricilər ictimaiyyətə təqdim olunur. Həmin vaxt biz görürük ki, imtahan normal olub və iştirakçıların bilik səviyyələrinə uyğun normal sıralaması həyata keçirilib.

Əvvəlki illərin imtahan nəticələrinin elmi-statistik təhlili ilə Mərkəzin saytında "Abituriyent" jurnalının 12 saylı buraxılışında tanış ola bilərsiniz.

Dövlət İmtahan Mərkəzi imtahanlardan dərhal sonra bütün tapşırıqları və onların izahını da Mərkəzin saytına və sosial şəbəkə hesablarına yerləşdirir. İmtahanda iştirak edənlər, həmçinin valideynlər, müəllimlər, ekspertlər bütün test tapşırıqları ilə tanış ola bilirlər. Sual kitabçaları da imtahan iştirakçılarına verilir. Bütün bunlar imtahanının məzmununun ictmaiyyət üçün nə qədər açıq olmasının bariz göstəricisidir"məlumatda qeyd olunub.

Qeyd edək ki, DİM martın 9-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib. İlkin məlumatlara əsasən, 9 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric edilib. Qeyd olunan hallar protokollaşdırılıb və araşdırma aparılır.

## *Alimlərdən qlobal istiləşmə ilə bağlı xəbərdarlıq*

**Beynəlxalq alimlər qrupu qlobal istiləşmə prosesinin sürətlənməsinə dair əlamətlər aşkar edib. 2015-ci ildən sonra qlobal temperaturun artım tempi əvvəlki onilliklərlə müqayisədə xeyli yüksək olub.**

Adalet.az xəbər verir ki, bu barədə "Bloomberg" portalı məlumat yayıb.

Alimlərin məlumatına görə, 2025-ci ilə qədər olan dövrdə planetdə orta temperatur hər onillikdə təxminən 0,35°C artıb. Müqayisə üçün qeyd olunur ki, 1970-2015-ci illərdə istiləşmə tempi hər on ildə orta hesabla təxminən 0,2°C təşkil edirdi.

Tədqiqatın müəllifləri bildirirlər ki, bu nəticə qlobal istiləşmənin sürətlənməsinin statistik cəhətdən ilk əhəmiyyətli təsdiqi hesab olunur.

Temperatur göstəricilərinə görə son illər rekordlarla yadda qalıb. Son üç il instrumental müşahidələrin aparıldığı bütün dövr ərzində ən isti illər olub. 2024-cü ildə Yer kürəsində orta temperatur sənaye inqilabından əvvəlki dövrlə müqayisədə müvəqqəti olaraq 1,5°C həddini keçib. Məhz bu göstərici iqlim üzrə Paris sazişi çərçivəsində kritik hədd hesab olunur.

**Tədqiqatçılar uzun müddətdir qlobal istiləşmənin əsas səbəbinin istixana qazlarının emissiyası olduğu barədə ortaq mövqedədirlər. Lakin yaxın vaxtlara qədər temperatur artımının nisbətən sabit templə baş verdiyi düşünülürdü. Son illərdə qeydə alınan rekord istilər alimləri istiləşmə tempinin sürətlənə biləcəyi ehtimalını irəli sürməyə vadar edib.**



*Mirqiyas Seyidsoylu*

# 118 YAŞLI FÜZULİ TEATRI

**Bu gün Azərbaycanda teatr sənətinin yaranmasının 153-cü ildönümü qeyd edilir. Azərbaycan teatr sənəti qədim və zəngin tarixi yol keçib. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin bir qrup teatr həvəskarı tərəfindən Mirzə Fətəli Axundovun " Sərgüzəşti - vəziri - xani Lənkəran " komediyası əsasında hazırlanmış tamaşa nümayiş olunub. Həmin tamaşa ilə Azərbaycanda Milli Teatrın əsası qoyulub. Bu tarixi günün yaradılmasında Azərbaycanın görkəmli maarifçiləri Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun böyük əməyi olmuşdur.**

Azərbaycan incəsənətini, mədəniyyətini və teatrını dünya səhnəsinə, dünya xalqlarına qovuşduran bu tarixi günün yaranışı mənim fikrimcə daha qədim dövürlərə gedib çatır. Belə ki, milli - tarixi keçmişimizə dərindən nəzə yetirdikdə görürük ki, Kiçik Qafqazın ən hündür dağ silsiləsindən olan, Gəmiqaya yüksəkliyində ( Naxçıvan MR, Ordubad rayonu, ərazisində yerləşir. ) eramızdan əvvəl 3-1-ci minilliyə aid qayaüstü rəsimlər mövcuddur. Bu qayaüstü təsvirlərdə insan şəkilləri, insan rəqsləri, yay və ox səhnələri, o cümlədən müxtəlif təsvirlər aşkar olunub. Eyni oxşar qayaüstü rəsmlər Qobustan qayalarında və Kəlbəcərdə tədqiq olunmuşdur. Həmin dövürlərdə insanların ictimai həyatında və məişətində baş verən hadisələrin qədim insanlar tərəfindən qayalar üzərində təsvirlərə çevrilməsi göstərir ki, tarixən bu coğrafi ərazilərdə yaşayan əcdadlarımız ətrafda baş verən hadisələri düzgün qiymətədirərək onu təsvirlər vasitəsilə tarixə çevirmişlər. Bu bir daha onu sübut edir ki, ulularımız tarixin bütün dönəmində mədəni yaradıcılığın inkişafında hər zaman fəal olmuşdur.

Barəsində ilk yazılı tarixi məlumat eramızdan əvvəl 505-ci ilə təsadüf edən və min illərdir xalqımızın milli - mənəvi dəyərlərini özündə yaşadan " Novruz bayramı " günlərində qədim əcdadlarımız tərəfindən keçirilən el şənliklərində müxtəlif mövzulu teatrlaşdırılmış Novruz adətləri və oyunları da Azərbaycanda teatr sənətinin qədimliyini sübut edir. Qədim dövrlərdən günümüzə qədər gəlib çatan, müxtəlif adət - ənənələri və folklor nümunələri özündə formalaşdıran Novruz şənliklərində xalqımız tərəfindən təbiətdə gedən oyanışı və yenilənməni göstərən bir sıra teatrlaşdırılmış xalq oyunları mövcuddur. Belə xalq oyunlarından biri, sona yetməkdə olan sərt, qarlı - şaxtalı çovğunlu, boranlı və insanları ağır əziyyətlərə düçar edən qış fəslinin başa çatmasını bayram edən yerli əhali bu təbiət hadisəsini, simvolizə edən, " Kosa -Kosa " , Qodu - Qodu ", " Kosa gəlin " və sair teatrlaşdırılmış oyunlar hazırlayırdılar. Böyük cəsarətlə deyərdim ki, yuxarıda adlarını sadaladığımız bu xalq oyunları, meydan teatrının nüanslarını özündə əks etdirən bədii yaradıcılıq nümunələridir. Həmçinin, İslam dininin Azərbaycan coğrafi ərazilərinə daxil olduğu, xalqımızın inancına çevrildiyi dövrlərdən etibarən, İslam adətlərini, islam müqəddəslərinin həyat tarixçəsini, xüsusilə, Kərbəla faciəsini simvolik formada əks etdirən meydan tamaşaları hazırlayardılar. Bu meydan tamaşalarına el arasında " Şəbih " deyirlər. " Şəbih " sözünün hərfi tərcüməsi " oxşar, bənzər " deməkdir. Adətən islam təqviminə görə məhərrəm ayının 10-cu günü ( aşura günü ) qeyri - peşəkar aktyorların iştrakı ilə açıq havada keçirilən bu tamaşaların senarilərində növhə və mərsiyələr əsas yer tutardı. Hazırda şəbih tamaşaları ölkəmizdə bir sıra bölgələrdə " Aşura " günlərində qeyd edilir...

Amma və lakin, bu yazını hazırlamaqda mənim məqsədim heç də, tarixi araşdırma və tədqiqat aparmağ deyil. Daha yaxşı olar ki, biz bu işləri öz sahiblərinə, tarixçi, teatrşünas və teatr tənqidçilərinin ixtiyarına verək...

***

Azərbaycan teatr sənətinin ayrılmaz tərkib hissəsi olan Füzuli teatrı, XX əsrin ilk illərində yarandığı dövrdən etibarən, ölkə mədəniyyətinə, incəsənətinə böyük töhvələr verməklə yanaşı həm də, bölgədə cəmiyyətin mədəni - ictimai həyatının formalaşmasında və inkişafında mühüm əhəmiyyətli rol oynamışdı.



Füzuli Xalq Teatrının rejissoru, tanınmış aktyor və rejissor, mərhum Adışirin Əliyev

Araşdırmalar göstərir ki, FÜZULİDƏ peşəkar teatrın yaradılması, 27 noyabr 1908-ci ildə tanınmış rejissor və aktyor, Əməkdar İncəsənət Xadimi Cəlil bəy Bağdadbəyov və görkəmli ziyalı İbrahim Əbilovun təşkil etdikləri truppa tərəfindən görkəmli Azərbaycan dramaturqu Nəcəf bəy Vəzirovun " Müsibəti - Fəxrəddin" faciəsinin tamaşaçılar qarşısında nümayişi ilə başlanır. ( Sənətşünaslıq doktoru, professor Vəfa Əliyev. " Haqqın Səsi " qəzeti, 7 iyun 2000-ci il.) Sonrakı illərdə böyük sənətkar Hüsynqulu Sarabskinin rəhbərliyi ilə dahi bəstəksrımız Üzeyir Hacıbəylinin " Leyli və Məcnun ", " Əsli və Kərəm ", Cəfər Cabbarlının " Aydın ", " Oqtay Eloğlu " və bir sıra ədiblərin dram əsərləri tamaşaya qoyulmuşdu. Sonralar Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Füzulidə, FÜZULİ Dövlət Kolxoz və Sovxoz teatrı yaradılmışdı.

Həmin illərdə teatr böyük sənətkarımız Hüseynqulu Sarabskının adını daşıyırdı. Teatrın təşkili və təşəkkül tapmasında Cəlil bəy Bağdadbəyov, Şamxal bəy Vəzirov, Cəmil bəy Vəzirov qardaşları, Hüseynqulu Sarabski, Zəroş Həmzəyev, Miribrahim Həmzəyev, Sidqi Ruhulla, Kazım Ziya, Mirzağa Əliyev, Mürşüd Haşimli, xalq xanəndəsi Ağabala Abdullayev, rejissor - aktyor Adışirin Əliyev, Məleksima Həsənova, Səfər İbrahimov, Nizami Əliyev, Allahyar Əliyev, Vaqif Rəhimov, Leyli və Əsli obrazlarının təkrarsız ifaçısı Nüşabə Hüseynova, bəstəkar Məmməd Cavadov, Respublkanın əməkdar artisti Nizami Abdullayev, tanınmış tarizən Ramiz Əliyev, Eldar Novruzov, Təşkilat Nəsirov, Rafail Məmmədov, İntizar Quliyeva, Məryəm Məmmədova, Asif Şirinov, Vaqif Vəliyev və başqalarının zəhməti və əməyi təqdirəlayiqdir...

1980-ci illərin əvvəlləri idi. FÜZULİ şəhərində Mədəniyyət Sarayının qarşısında 3,5 m hündürlükdə böyük səhnə hazırlanmışdı. Rayonun yaradıcı kollektivləri, Füzuli Xalq Teatrının rejissoru, aktyor - rejissor Adışirin Əliyevin və Azərbaycan Respublikasının Xalq artisti, kinorejissor Əbdül Mahmudovun quruluşunda dahi şairimiz Məhəmməd Füzulinin 490-illik yubleyinə həsr olunmuş " Füzuli Füzulidə " adlı çöl şəraitində meydan tamaşası nümayiş olunurdu...

Vağzalı " sədaları altında bəylə gəlin səhnənin mərkəzinə doğru gəlirdi.. Sağdıc və soldıc onları müşayət edirdi. Minlərlə tamaşaçı ayağa qalxaraq onları alqışlaya-alqışlaya ucadan deyirdilər : " mübarək, mübarək, çox mübarək ", " xoşbəxt olasınız. " Allah sizi qorusun ", " Maşallah - maşallah ", " Bərəkallah "

Onlar səhnənin mərkəzində qoyulmuş bir cüt mikafona yaxınlaşdılar.



Füzuli şəhər qəbrstanlığı. Xalq Teatrının rejissoru, tanınmış aktyor və rejissor Adışirin Əliyevin qəbrini oğlu tanınmış aktyor Nizami Əliyev ziyarət edir

- Bəy:

*Əksilməyir üstündən kaman səsi - tar səsi,*  
*Tükənməyir dodaqdan sevgi səsi-yar səsi,*  
*Hər insanın ötməyə bu torpaqda var səsi,*  
*Başdan-başa musiqidir - nəğmədir,*  
*nəğməkardır Füzulim.*

- Gəlin:

*Bol sünbüllü zəmilərin bərəkətli tamaşa,*  
*Yol boyunca qürur verir çinarların baş -başa,*  
*Şamamanın köksündəki qızıl ulduzlar qoşa.*  
*Başdan - başa bərəkətdir - bəhrədir,*  
*tamaşadır Füzulim.*

Tamaşaçılar ayağa qalxaraq onları çılğınlıqla alqışlayır və deyirdilər: "var olun! - var olun !", eşq olsun Füzulimizə!", "eşq olsun!"

Onlar tamaşaçılara baş əyərək yerlərini tutur və taxtın üzərində əyləşirlər.

Bu zaman, səhnəyə gümüşü saqqallı, ağ rəngli əba geyinmiş nurani bir ixtiyar gəlir. Bəylə gəlin ona yaxınlaşır : -Xoş gəlmisən ey nurani müdrik ixtiyar.

- Məhəmməd Füzuli : Əziz övladlar, eşitdim ki, bu gün sizin xoş gününüzdür. Gəldim sizi uğurlayım və xoşbəxtlik diləyim.

- Bəylə - Gəlin : Var olasınız, müdrik ixtiyar. Sizin kimi ulu böyüklərə çox ehtiyacımız var. Biz, sizi tanımadıq. Bu yerlərin adamlarına bənzəmirsininiz ?..

- Məhəmməd Füzuli : Var olasınız, xoşbəxt olasınız, bizi işıqlı gələcəyə aparacaq dərrakəli övladlar. Sizin adınız nədir ?..

- Bəy : Mənim adım Məcnundur...

- Gəlin : Mənim adım Leyladır...

- Leyla və Məcnun : Biz, sizi tanımadıq, siz, kim oldunuz ey, ulu ixtiyar?...

- Məhəmməd Füzuli : Sizin kimi məndə bu torpağın, bu yerlərin, bu elobanın övladıyam. Bir zamanlar mənim ulu dədələrim sənət və istedad bilicisi olduqları üçün dövrün hakimləri onları Kərbəla torpağına köçürmüşdülər. Mən, qədim oğuz türklərinin Bayat elindən olan elimizin şair oğlu Məhəmməd Füzuliyəm. Kərbəladan İmam Hüseynin müqəddəs torpağından sizlərə salam gətirmişəm...

Səhnədə olan bütün iştrakçılar müdrik ixtiyarın bu sözlərini eşitcək hamısı onun qarşısında baş əyərək bir ağızdan xorla dedilər : Füzuli, Füzuli, Füzuli baba, var ol, səni ey böyük ustad. Ey, millətimin əbədiyyətə qovuşan məhəbbət ilahisi, şeir - sənət incisi...

- Məhəmməd Füzuli : Edəməm tərk, Füzuli səri - kuyin yarın,

- Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim !!

Xor kapellası " Füzuli " kantatasını səsləndirir:

*"Məni candan usandırdı, cəfadan yar usanmazmı,*  
*Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı".*

Müsiqinin solo hissəsini həzin və məlahətli səsli müğənni Nüşabə Hüseynova oxuyurdu. Mən, hər dəfə Nüşabəni dinləyəndə elə hiss edirdim ki, qulaqlarıma kaman səsi gəlir. Heyif o səsdən, heyif o sənətdən...

Lənət olsun yağı düşmənlərə !..

Gözəl və qaynar həyatımızı məhv etdilər...

Minlərlə tamaşaçını öz cazibəsinə çəkib sehirləyən bu ecazkar meydan tamaşasını tanınmış rejissor və aktyor Adışirin Əliyev hazırlamışdı. Mən, çəkinmədən cəsarətlə deyərdim ki, Adşirin Əliyev Füzuli teatrının tarixində bu teatrın, məhvərini təşkil edirdi. Sadə dildə desək teatrın dayaq sütunu olmuşdu. O, zaman-zaman öz ətrafında peşəkar və qeyri peşəkar yaradıcı adamları topıayaraq nəhəng və baxımlı tamaşaların quruluşçu rejissoru olmuşdu. Ü.Hacıbəyli " Leyli və Məcnun ", " Əsli və Kərəm", " O, olmasın Bu olsun ", " Arşın malı alan ", Z. Hacıbəyli " Ər və arvad ", " Əlli yaşında cavan ", C.Cabbarlı " Aydın ", " Sevil", " Almaz", İ. Əfəndiyev " Bahar suları", " Mahnı dağlarda qaldı ", M. İbrahimov " Kəndçi qızı ", Səttar Axundov " Yağla kəməndi Bəndalı ", S. Vurğun " Vaqif ", Malik Muxtarov " Üzdənovun məşqi " və s.i.

Adışirin Əliyev öz yaradıcılıq ampulasında rəhbər kimi olduqca tələbkar, rejissor kimi, tamaşanın yaradıcısı, aktyor kimi, fəal hərəkətli iş görən, müəllim kimi, gözəl pedaqoq, tamaşanı hazırlayan elmi-araşdırıcı tədqiqatçı kimi, pyesin fəlsəfi, tarixi və ictimai-siyasi aspektlərini düzgü mənimsəməkdə aktyorlara psixaloji təsir göstərməyi bacaran, fitri istedada və xüsusi qabliyyətə malik əsil yaradıcı şəxsiyyət idi.

"Rejissor kimdir?

Rejissorluq sənətinin mahiyyəti nədən ibarətdir?

Rejissor tamaşanı həm inzibati, həm də yaradıcılıq cəhətdən təşkil edən sənətkardır. Rejissorluq dram əsərinə obrazlı səhnə təcəssümü vermək, tamaşa qurmaq, bədii və ideoloji cəhətdən tamaşanı istiqamətləndirmək sənətidir. " ( professor Mehdi Məmmədov " Rejissor sənəti. " Bakı - " Maarif " nəşriyyatı.1971-2021 )

Azərbaycanda milli teatrın yaradılmasında, inkişafında formalaşmasında, onun elmi əsaslarla yüksək professional səviyyəyə çatdırılması və dünya çapında fəaliyyət göstərməsində əməyi, zəhməti olan hər bir yaradıcı şəxsiyyətə minnətdarlıq edir, qarşılarında baş əyir, dünyasını dəyişənlərə allahdan rəhmət diləyir, yaşayıb yaradanlara sağlamlıq və gümrahlıq arzulayırıq.

**Əziz və dəyərli dostlar, 10 mart - Milli Teatr gününüz mübarək olsun!**

**(ardı var)**

## *Quterreş gender bərabərliyi üçün 8 addım təklif etdi*

**Dünyanın Beynəlxalq Qadınlar Gününü qeyd etdiyi bir vaxtda gender bərabərsizliyinin dövrümüzün ən böyük insan hüquqları çağırışı, bərabərliyin təmin edilməsinin isə dayanıqlı inkişafın və sülhün ən güclü təkanverici qüvvələrindən biri olduğunu qəbul etməyin vaxtıdır.**

Adalet.az xəbər verir ki, bu fikirlər BMT Baş katibi Antonio Quterreşin Beynəlxalq Qadınlar Günü münasibətilə yazdığı məqalədə öz əksini tapıb.

A. Quterreş qadın hüquqlarının gücləndirilməsi və konkret nəticələrin əldə olunması üçün müəyyən etdiyi 8 addımı təqdim edib. Gender bərabərliyinin səlahiyyət məsələsi olduğunu vurğulayan baş katib bildirib ki, səlahiyyət bölgüsündəki bərabərsizliyi aradan qaldırmaq vacibdir. A. Quterreş pariteti prioritetə çevirməyin önəminə toxunaraq BMT-də gender paritetini prioritetə çevirməyi hədəflədiklərini qeyd edib. Baş katibin vurğuladığı üçüncü addım isə ən yüksək gəlirli investisiyaya üstünlük verməkdir. O, qadınlara yönəldilən investisiyaların misilsiz səmərə verdiyini bildirib, bu cür addımların gender fərqlərinin aradan qaldırılması üçün təməl yaratdığını qeyd edib. O həmçinin sülh masasında qadınlara yer ayırmağın razılaşmaların davamlılığını təmin etdiyinə diqqət çəkib.

Dünya miqyasında qadınların kişilərin malik olduğu hüquqi imtiyazların yalnız 64 faizinə sahib olduğunu bildirən BMT Baş katibinin sözlərinə görə, hər bir dövlət ayrı-seçkilik yaradan qanunları ləğv etməli və hüquqların praktiki təmin olunmasını dəstəkləmək barədə öhdəlik götürməlidir. O, gender əsaslı zorakılığa qarşı dözümsüzlük nümayiş etdirmək və heç bir bəhanəyə rəvac verməməyi altıncı addım kimi bölüşüb. "Biz hər yerdə sıfır dözümlülük, tam hesabatlılıq və zərərçəkmişlərə sarsılmaz dəstək nümayiş etdirməklə bununla mübarizə aparmalıyıq", - A. Quterreş bildirib.

Texnologiya sahəsində çalışan hər dörd nəfərdən yalnız birinin qadın olduğunu deyən baş katib texnologiya şirkətləri və hökumətlərin təhlükəsiz və inklüziv rəqəmsal məkanların qurulması üçün birgə fəaliyyət göstərməli olduğunu vurğulayıb. Son addımın gender amilini iqlim planlarına daxil etmək olduğunu bildirən baş katib iqlim dəyişikliyinin gender baxımından neytral olmadığı fikrini irəli sürüb.

"Dünyanın müxtəlif yerlərində mən bu 8 həll yolunun tətbiq edildiyinin şahidi olmuşam: müharibə zonalarında və bərpa səylərində, parlamentlərdə və tədris otaqlarında, təşkilatlarda və icmalarda. Əgər liderlər gender bərabərliyi məsələsinə ciddi yanaşsalar və bu addımların atılmasına dair indi öhdəlik götürsələr, biz dünyanı həm qadınlar və qızlar üçün, həm də hamımız üçün daha yaxşıya doğru dəyişəcəyik", - A. Quterreş məqaləni bu sözlərlə yekunlaşdırıb.

# 70-dən o yana uğur üstədi...



*Rəşid FAXRALI,*
*Əməkdar jurnalist*

**Ruhu rəvanlar həmişə sökülən dan yerinə qaranlıqdan sıyrılan möcüzə, aydınlıqlara çıxan işıq deyib, bu işığı açılan sabahların yolgöstərəni bilib, sözün işığını görənlərə işıqlı adam deyib. Min illərdi işıqlılarımız xalqın milli-mənəvi dəyərlərinin, ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, ... cəfakeşi olub, ömür payını bu cəfakeşliyin çırağı bilib. Onlar həmişə ehtiramla xatırlanır. El sevgisi deyimi var. Bu deyim də Dədə Qorqud öyüdlərinin işığından barınıb. Bu düşüncə ömür fəlsəfəsidi. Düşüncələrim tanıdığım işıqlı adamların düşüncələrinin nəfəs yoldaşı olub.**

Bayram Heydər oğlunu belə tanımışam, belə tanıyıram.

Dünya sözün işığında daha aydın görünür. Sözün işığında formalaşan münasibətlər sabahların zəmanəti kimi tarixləşir. Zaman-zaman tanıdıqları ilə Bayram Heydər oğlunun münasibətləri də belə tarixləşib, mənim Bayram Heydər oğlu ilə münasibətlərim də...

Kiminin əvvəl sözünü (düşüncələrini), sonra özünü tanıyırıq, kiminin əvvəl özünü, sonra sözünü (düşüncələrini); Bayram Heydər oğlunu söz adamı kimi tanımamışdan əvvəl vətəndaş kimi tanımışam. 1993-cü ilin iyulun əvvəllərindən Zəngilanda başlayan ehtiram biçimli münasibətlərimiz Zəngilanın sərhədlərini aşdı. Bu ehtiramın işığında Zəngilanın müdafiəçiləriylə nəfəs-nəfəsə dayandığımız anlar, saatlar çox olub. Şüküratazda da, Ağbənddə də, Vejnəlidə də, ... Zəngilana ad olan söhbətlərin əsgərlərin baxışlarında necə tərpəniş yaratdığını da gördüm, əsgərlərin onun səssiz sükutunu elə söhbət biçimində düşüncələrinə köçürdüyünü də duyurdum.

Dan yeri söküləndə Oxçu çayının sahilində Zəngilanın Ermənistan ərazisinə hücumundan danışmışdıq, Bayram müəllim qazanılan qələbənin döyüşçülərin döyüş əzmini, qələbə ruhunu necə kükrətdiyindən söz açmışdı, döyüşdən sonra yaşanılanların (səhəriisi gün Bakıdan geri çəkilmək əmri verilmişdi) təəssüfündən söz açmışdı. Onda sevincinin də rəngini görmüşdüm, təəssüfünün də. Günəş Oxçu çayının sinəsinə sərilənə kimi dillənə bilməmişdik. Bayram müəllimin qəhərləndiyini sezmək çətin deyildi...

Əsgərlər Bayram müəllimi həm zabit kimi (alay komandirinin müavini idi), həm müəllim kimi, həm də natiq kimi dinləyirdi. Bayram müəllim ötən yüz illərin döyüşlərini xatırladırdı, şəhidlikdən keçən bu döyüşlərin Vətən günyeli döyüşlər kimi tarixləşdiyindən danışırdı...

Bayram Heydər oğlu 1956-cı il martın 21-də (bu tarixi yadda saxla) Zəngilanın Canbar kəndində anadan olub. Zəngilan şəhər 1 saylı orta məktəbini, Xarici Dillər İnstitutunun ingilis dili və Azərbaycan dili fakültəsini bitirib. Canbar və Keçikli 8 illik məktəblərində müəllim işləyib. Hərbi xidmətdən sonra rayon komsomol komitəsində, rayon partiya komitəsində müxtəlif vəzifələrdə işləyib, həm Rusiyada, həm də Azərbaycanda ali siyasi təhsil alıb. Zənginada yaardılan ərazi özünümüdafiə taborunun komandiri olub. Polkovnik Firidun Şabanov Zəngilan alayının komandiri təyin olunduqdan sonra komandir müavini vəzifəsində xidmət edib. Müdafiə Nazirliyinin Hərbi Akademiyasında işləyib, əməkdar müəllimdir. Hazırda Milli Məclisdə işləyir. Məqalələri Zəngilan rayon qəzetində, sonra-lar əsasən "525-ci qəzet"də və digər aparıcı qəzetlərdə dərc olunub,indi də olunur...

Martın 21-ni də digər bayramlarımızdan biri kimi ömrünün səyyarəsi adlandıran Bayram Heydər oğlu milli mentalitetimizin yaşam zəvvarlarındandır. "Bayram günü dünyaya gəlişim əzizlərim üçün bayram olub, tanıdıqlarım üçün də bayram ovqatlı münasibət yaşatmağı bacaran Bay-ram olmağa çalışmışam...", - belə səmimi deyim də Bayram müəllimə məxsusdu...



1993-cü ilin avqustunda Zəngilanda ezamiyyətdə olanda Şüküratаz yüksəkliyində əsgərlərlə söhbətləşirdik. Əsgərlərdən biri torpağa dirsəklənmişdi, sol əliylə torpağı ovuclayırdı. Bu, düşündürücü məqam diqqətimi çəkmişdi, əsgərlə kəlmələşmişdim:

-Nə düşünürsən, əsgər?

Əsgər baxışlarını uzaqlardan ayırmadan "Torpağı..." - demişdi. Bu bircə kəlmə mənim də, operator Etibar Şirinin də, Bayram Məmmədovun da baxışlarını özünə çəkmişdi, mətləbli bir söhbətin mövzusu olmuşdu. Onda Bayram müəllimin əli əsgərin çiyninə enmişdi, "Sağ ol, əsgər bala..." demişdi. Bir neçə gündən sonra bu söhbətin mahiyyəti - əsgərin qoruduğu torpağı düşünməsi alayın bütün şəxsi heyətinə çatmışdı. Bayram müəllim söhbətləriylə çatdırmışdı, o kəlməni o əsgərin Hərbi Andının davamı kimi təqdim eləmişdi. Həmin söhbətlərin birində onun torpaq haqqında dedikləri əsgərlərin mənəvi-psixoloji hazırlığının gərəkli davamı oldu. "Dədə Qorqudun bir öyüdünü heç zaman unutmayın: Torpağı qorumadınsa onu əkib-becərməyə dəyməz. Atalarınızın, babalarınızın əkib-becərdiyi torpağı qoruyursunuz. Qoruduğunuz torpağı düşünürsünüz. Deməli, xalqımızı düşünürsünüz, Azərbycanın sabahlarını düşünürsünüz". Bu gözəl kəlmələr zabit tövsiyəsiydi, müəllim öyüdüydü, vətəndaş xatırlatmasıydı. Bayarm Heydər oğlu belə ürək yiyəsidi...

1993-cü il sentyabrın 3-də Müdafiə Nazirliyi Hərbi Telestudiyasının üç əməkdaşı Zəngilanda ezamiyyətdəydik - Seyidağa Mövsümlü, Etibar Şirin, mən. Qubadlının işğalından sonra Mahrızlı kəndinin camaatı kəndi tərk eləyib getmişdi. Kənddə təkcə Qəfəs qarı qalmışdı. Onunla söhbətləşmişdim, ata ocağına belə bir sevgidən duyğulanmışdım. Qayıdanda qərargahın qarşısında Bayram müəllimlə rastlaşmışdıq. Mahrızlıdan danışmışdıq. Qəfəs qarının "Ölərəm, dədəmin yurdunu ocaqsız qoymaram..." kəlmələri Bayram müəllimi kövrəltdi. Bir-iki gündən sonra torpağı düşünən əsgərin sözlərini alayın əsgərləriylə kəlmələşməsinə obyekt bilən Bayram müəllim ağbirçəyin bu kəlmələrini də Vətənə sevgi düsturuna çevirmişdi. Bayram Heydər oğlu belə vətəndaş idi, belə ürək yiyəsi idi. İndi də belə vətəndaşdır, belə ürək yiyəsidir! Bayram Heydər oğlu haqsızlıqla heç zaman barışmayıb, həmişə ədalət cəfakeşi olub. Hərbi xidmətdən partiya sıralarına qəbul olunması haqqında sənədlərlə gəlmişdi. Niyəsə, rayon partiya komitəsinin şöbə müdiri onun qəbuluna pəl vurmaq istəyəndə geri çəkilməmişdi. Onda da haqqın, ədalətin əsgəri olmuşdu. Nazilən haqq heç zaman üzülməyib. Məsələnin mahiyyətini bilənlər onun xarakterinin dönməzliyini həm kəşf etmişdi, həm də bəyənmişdi. Zəngilanda həmin vaxta kimi heç kim haqqını bu səviyyədə tələb eləməmişdi; "El zərgərdi" deyimi var...

Polkovnik-leytenant Bayram Məmmədov Beynəlxalq Hərbi Əməkdaşlıq idarəsində xidmət etdiyi müddətdə dəfələrlə xarici dövlətlərdə ezamiyyətlərdə olub. Həm ingilis dilini mükəmməl (!) bildiyinə görə, həm bu geniş dünyaduyumuna görə. Hər ezamiyyət Bayram Məmmədov üçün ingilis dilinin mənimsənilməsi imkanlarını genişləndirirdi.

"Öyrənən adam hansı yaşda olursa-olsun, düşüncələrində gözəl bir aydınlıq hiss edir. Mən həmin aydınlığı Bayram Heydər oğlunun taleyinə işıq bilmişəm...", - bu etiraf tanıdığım, vətəndaş kimi, hərbçi kimi, söz adamı kimi ehtiramım olan Bayram Heydər oğlunun yaşam fəlsəfəsinin mahiyyətinin bir zərrəsidi...

Bayram Məmmədov ehtiyata buraxıldıqdan sonra Hərbi Akademiyada işləyirdi, müəllim idi, Akademiyada təşkil edilən müxtəlif səviyyəli ingilis dili kurslarında müdavimlər onun da müəllimlik səriştəsindən, öyrətmə bacarığından, ingilis dilinin bilicisi olmasından kifayət qədər yüksək səmərəliklə bəhrələnirdi. Tənəffüslər bəzən mahiyyət baxımından dərsin qısamüddətli davamı olurdu. Bu, Bayram müəllimə gözəl könül xoşluğu verirdi.

Bu və ya digər xarici dilin leksik tərkibinə vaqif olmayan həmin dilin bilicisi adlandırıla bilməz. Bu dilin lüğəvi tərkibinin bilicisi olmayan lüğət hazırlaya bilərmi? - yox, buna cəhd etməz. Cəhd etməyə cürətlənsə də öhdəsindən gələ bilməz. Bayram müəllim böyük məsuliyyətlə 8 min sözlük bir lüğət hazırladı: Azərbaycanca-İngiliscə, İngiliscə-Azərbaycanca hərbi siyasi lüğət. Bu, ingilis dilini öyrənənlərə, tələbələrə, hərbçilərə, filoloqlara böyük elmi xidmətdir...

O lüğətin nəşrə hazırlanmasının müəyyən mərhələlərinin şahidi olmuşam. Kitab nəşrə "Hərbi Nəşriyyat"da hazırlanırdı. Bayram müəllim kitabın nəşrini necə həssaslıqla izləyirdi! Gəlirdi, baxırdı, aparıb evdə gözdən keçirirdi (səhv eləndim, gözdən keçirmək nədi, bir də oxuyurdu, sözbəsöz!). Hər dəfə tərcümə neçə-neçə yeni bir sinonimlə əvəzlənirdi. Bu, lüğətin elmi dəyərini artırırdı. Sonralar bu kursda oxmuş zabitlərlə Bayram müəllimin təsadüfi görüşü, bəzən zabitlərin onunla görüşməyə gəlməsi bir gerçəkliyin ifadəsinə dönürdü: Öz işinin mütəxəssisisənsə harda olursan-ol, ehtiram səni tapacaq. İndi, 70-in astanasında belə görüşlər daha tez-tez olur. Söhbətləşməyə də gəlirlər, məsləhət, tövsiyə almağa da.

Bayram Məmmədovun imzası söz sərraflarına yaxşı tanışdı. Onun yaradıcılığı, əsasən, Zəngilanı, Zəngilanlıları əhatələyir. Bu da sevgidi, Zəngilana bu dərəni sevgi yaşarı sevgidi, bəşəri sevgidi. Bayram müəllim nədən yazırsa yazsın, Səməd Vurğunun təbirincə desək, hər yazısının əzəl mübtədası Vətən olub, Vətəndi.

Anası haqqında yazdığı elegik məqaləni də, məqalədə üç misralıq şeir hissəsini də kövrəkliklə oxumuşam:

*Sənin sevgin ilə övlad olmuşuq*
*Ana bildiyimiz Azərbaycana,*
*Ana, ay ana!*

Bayram Məmmədov ictimai-siyasi mahiyyəti olmayan mövzulardan yazmır. Bu yaradıcılıq qayəsi də Vətənə sevgiyə yozulmalıdı. Həm də onun yaradıcılığında söz elə bil nəfəs alır, sözlər sən düşündüyün kimi düşünməyə də qadirdi...

**Və yaxud atası haqda yazdıqlarından:**

Ötən illərin xatirələri kövrəklikdi. Ötmüşlərdə atalı dünya var, analı dünya var, uşaqlıq var, yeniyetməlik var, ilkin gənclik var, gənclik var. İllər sonra sənə elə gəlir ki, o vaxtlar yellər belə əsmirmiş, yağışlar belə yağmırmış, şimşəklər belə çaxmırmış, çiçəklər belə açmırmış. O illərdə uşaqlığın gecələri ata söhbətləriylə sonlanırdı, səhərlərin xeyir-duası ata öyüd-nəsihəti olurdu. Onda ömrün sabahlarına aparan yolun nə qədər işıqlı olduğu da duyulur, bu yolun sonunda niyyətlərin bayraqlaşacağı da...

**İnstitutda müəllimi olmuş şair Ənvər Rza haqqında yazdığı məqalədən:**

Ənvər Rzanın sevgisi də böyükdü, həsrəti də, səmimiyyəti də. Sevgisi də şeirdi, həsrəti də, səmimiyyəti də (sevgisi səmimi olmayanın səmimi insan olması mümkünsüzdü). Hamı doğulduğu kəndin pərvanəsidi. Hərəyə öz kəndi gözəldi, hərə öz kəndini ömrünün səccadəsi bilir. Şair olaraq Ənvər Rza da "çiyninə qaldırıb dünyaya tanıtmaq istədiyi" ("Yazda məkən salıb...") Kəlbəcərin Aşağı Ayrım (Aşağı Binə) kəndini belə sevirdi, indi ruhu bu kəndin göylərindədi. Bu sevgi həm də "Kəndimiz" şeirində ifadə olunub. Şeirdə sevgi də var, həsrət də. Duyanlara o həsrət də sevgidi...

Bayram Məmmədov 70-dən o yana uğur üstədi. Canbarı sevib, Zəngilanı sevib - Azərbaycanı sevib, Azərbaycana görə türk dünyasını sevib. Belə ecazkar sevgilər bu gün yaşanılsa da sabahların sevgisidi...

**Vətənə sevginin yaşı olmur, 70-dən sonra bu sevgi daha da mətinləşir. Mətin sevginlə sabahlara uğur üstəsən, uğurun xeyir olsun, müharibə iştirakçısı, istefada olan polkovnik-leytenant, Əməkdar müəllim, jurnalist Bayram Heydər oğlu!..**

## *Qlobal qiymətlər yenə artır*



**Qlobal ərzaq qiymətlərində fevral ayında, beş aydan sonra ilk dəfə olaraq artım müşahidə olunub.**

Adalet.az xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yenilənmiş indeksinə görə, buğda, əksər bitki yağları və bəzi ət növlərinin qiymətlərinin artması pendir və şəkərin qiymətlərinin düşməsini üstələyib.

Əsas malların beynəlxalq qiymətlərini izləyən FAO indeksi 125,3 bəndə çatıb ki, bu da yanvar ayı ilə müqayisədə 0,9 faiz yüksəkdir, baxmayaraq ki, ötən ilin səviyyəsindən hələ də bir faiz aşağıdır.

Fevral ayında taxıl qiymətləri qlobal miqyasda orta hesabla 1,1 faiz artıb. Qlobal buğda qiymətlərinin artması Avropa və ABŞ-da şaxtalarla bağlı məlumatlar, eləcə də Rusiya və Qara dəniz bölgəsində davam edən logistika pozuntuları ilə əlaqədardır.

Beynəlxalq qarğıdalı qiymətləri də bir qədər artıb, basmati və yapon düyüsünə olan güclü tələbat səbəbindən düyü indeksi 0,4 faiz artıb.

Bitki yağları 3,3 faiz artaraq 2022-ci ilin iyun ayından bəri ən yüksək səviyyəyə çatıb. Palma yağının qiymətləri güclü qlobal tələbat və Cənub-Şərqi Asiyada istehsalın mövsümi azalması səbəbindən artıb.

Soya yağının qiymətləri ABŞ-da yeni bioyanacaq dəstəyi tədbirləri ilə bağlı gözləntilər, raps yağının qiymətləri isə Kanada idxalının artması proqnozları ilə artıb.

Digər tərəfdən, günəbaxan yağı Argentinadan ixracın artması səbəbindən bir qədər aşağı düşüb.

Ətin qiyməti 0,8 faiz artıb. Qoyun ətinin qiyməti rekord həddə çatıb, mal əti qiymətləri isə Çin və ABŞ-dan gələn güclü tələbat səbəbindən artıb.

Donuz əti və quş əti də bir qədər artım göstərib. Süd məhsullarının qiymətləri əsasən pendir qiymətlərinin aşağı düşməsi səbəbindən 1,2 faiz azalıb. Bununla yanaşı, Şimali Afrika, Yaxın Şərq və Cənub-Şərqi Asiyada güclü tələbat səbəbindən quru yağsız və tam süd qiymətləri artıb. Kərə yağı qiymətləri 2025-ci ilin iyun ayında rekord həddə çatdığı vaxtdan bəri ilk dəfə artıb.

Şəkər qiymətləri aylıq müqayisədə 4,1 faiz, 2025-ci ilin fevral ayı ilə müqayisədə isə 27,3 faiz düşüb ki, bu da bu mövsümdə bol qlobal tədarük gözləntilərini əks etdirir.

**FAO həmçinin 2026-cı ildə buğda istehsalı ilə bağlı ilkin proqnozu açıqlayıb. Qlobal məhsulun təxminən 3% azalaraq beş illik orta göstəricidən yuxarı qalaraq təxminən 810 milyon tona çatacağı gözlənilir. Avropa İttifaqı, Rusiya və ABŞ-da fermerlər qiymətlərin aşağı düşməsi səbəbindən qış buğdası əkin sahələrini azaldır. Hindistanda isə əksinə, proqnoz əlverişlidir: hökümətin dəstəyi tədbirləri rekord əkin həcminə səbəb olub. Pakistan və Çində də müsbət gözləntilər qeyd edilir.**



# BAYAT



№ 75 (935)



Aqşin Yenisey

# Bu sevgim də daşa dəydi Bəxtəvər daşın başına

## Sənə məktub yazıram

Sənə məktub yazıram
Yazıram ki,
bağışla...
Burda hava pis keçir
Ara vermir yağışlar

Tək yatıb tək durmaqdan
Bezdirmişəm otağı
Bilirsən...
pinti olur
Yalqızların yatağı

Yalqızlar az yuyunur
Gəlir yalqızlardan iy
Çayları soyuq olur
Yeməkləri alaçiy

Çirkli ayaqqabılar...
Dibi yanmış qazança...
Bir qırıq da ümid var
...qayıdacaq haçansa...

Yalqız sabaha baxmır
Arzulayır keçmişi
Çox miskin mənzərədir
Ev yığışdıran kişi

Hələ bunun gecələr
içib ağlamağı var,
saçın daramamağı
saqqal saxlamağı var

Üstəgəl pəncərədən
Gözünü yola dikmək
Gəlməyini gözləmək
Qadın həsrəti çəkmək

Dərd ağır, hava da pis
Ara vermir yağışlar
Sənə məktub yazıram
Yazıram ki,
Bağışla...

## Gedək, içək

Bu sevgim də daşa dəydi
Bəxtəvər daşın başına.

Qarımış göy üzü kimi
Asta-asta qar yağıram
sağ əlim qışın başına.

Daha dostlar da qocalıb
Mənim Parisim dağılıb
Bütün səfillər yığılıb
Yenə Qavroşun başına.

Bəs o kimdi göydən baxdı
Baxdı...baxdı... yoxa çıxdı.
Bir şimşək də güllə çaxdı
Yağan yağışın başına.

Bu sevgim də daşa dəydi
Daş düşsün daşın başına!

## Üzün tanınmaz halı

Yenə səhər
Yenə həmin gün şüası
Evdəki tozu göstərir.
Yenə axşam
Qaranlıq boş çarpayını
Saat doqquzu göstərir.

Nə mənası,
Ölmüşəmmi, qalmışammı?
Heç yadına düşürəmmi?
Kimə lazım,
Təkəmmi, qocalmışammı?
içib miskinləşirəmmi?

Aman-güman
Məndə cəmi bir şəklin var
Baxıram əynin köhnəlib.
Həyatdı da
Ömür var, şəkilnən keçir,
İnsan var, şəkildə ölür.

Yenə şəhər
Yenə həmin insan seli
Kölgələr əyilir camda.
Bəlkə də, biz
Ayrı-ayrı evdən çıxıb
Yan-yana itkin düşürük,
Hər gün eyni izdihamda.

## Sevgi ən axırda ölür

Yəqin sən də gedəcəksən
Hamının getdiyi yerə.
Mən öz yerimə sadiqəm,
Necə ki, sadiq olurlar,
Ağaclar bitdiyi yerə.

... uzun ömür, can sağlığı.
Bağışla bu uşaqlığı.
Ayrılmaqçün gəl görüşə
Sevginin itdiyi yerə.

Koram, gözüm əllərimdi
...ümidlərdən tuta-tuta,
Arxanca gəlib çıxmışam
Məni tərk etdiyin yerə -
Hamının getdiyi yerə.

## Nəsiminin vəsiyyəti

Can məhkum evidir, cəza ver, təki,
Günahı savabdan məhrum eyləmə!
Min dəfə soruşum, bircə yol hay ver,
Sualı cavabdan məhrum eyləmə!

Əzabdan həzz almaq nə sirdir eşqdə?!
Min yara bəsləmə, hər biri eşqdən!
Asini, aşiqi, kafiri eşqdən
Mömini kitabdan məhrum eyləmə!

Qulun küfründə də gizli iman var!
Necə ki, ilanın zəhrində can var.
Nə qədər məkan var və laməkan var,
Sufini şərabdan məhrum eyləmə!

***

Boş səhrada qapı döyən hürufi
Yeri öpən, göyü söyən hürufi
Üzündə tanrı var deyən hürufi,
Gəlsə görər un satanda ac məni

Nəfsi zatın iradəsin qul eylər
Eşq - dağları aşiqinə yol eylər
Dərviş dərdin suya deyib gül eylər
Küfr içində tək qoyar Həllac məni.

Elə ölər, ölüm bulmaz asini
Öz içində kimsə bilməz asini
Nə gözlərsən gedərgəlməz asini?
Bizdənsənsə bat günaha, quc məni!

## Kənd

çaylar axar ağacların içindən, içindən,
quruyarlar budaqlar öz ucundan, ucundan,
quşlar qorxar buludların köçündən, köçündən,
şimşək çaxar göydən qaçar yağışlar, yağışlar.

doluşar ot tayasına sərçələr, sərçələr,
sərçələr ot tayasında gecələr, gecələr,
yorğun sürü axşam kəndə gec gələr, gec gələr,
gün batınca kəndə enər yoxuşlar, yoxuşlar.

gövşəyərək köks ötürər inəklər, inəklər.
boylu gəlin yuyub sərər köynəklər, köynəklər,
süfrə üstə pıçıldaşar bəbəklər, bəbəklər.
sükut çökər, fikrə gedər baxışlar, baxışlar.

səhər günəş qonşu kənddən ucalar, ucalar,
oyanmamış hələ həyət bacalar, bacalar,
sübhdən qalxıb namaz qılar qocalar, qocalar,
diz çökərlər, allah bizi bağışla, bağışla.

***

Hörmətli münsiflər heyəti!
Şairlik - həyatda itkin düşməkdi.
Şeir - olmayanla sevişməkdi,
gəlməyənlə görüşməkdi.
Vətən özünü qadın kimi aparır şairi görəndə
- bahalı, xətalı, ədalı!
Qadın -vətənin ət halı...

Şeirdə özünü hərraca çıxarır vətən,
Rəsmdə dodaqlarını boyayıb
müştəri axtarır,
Musiqidə qiymət oxuyur.
Dində müqəddəslik, bakirəlik,
Siyasətdə qoçuluq, canilik,
fahişəlik edir bütün vətənlər.

Hörmətli münsiflər heyəti!
Səhər yeməyində süfrəmdə təzə
umidsizlik vardı,
Günortaya dünəndən qalan
boyat gəncliyimi isidəcəyəm
Axşam əyyaşlıq qonaq çağırıb
içimdəki üsyanı.
Görüşmək istəsəniz, yerini deyim;
Atası vətən uğrunda öldüyü üçün
Dünən gecə küçənizdə
çörək oğurlayan uşağın alnına yazılıb
əsl şairin ünvanı.

***

Yollar ölümə aparır
Ya gec, ya tez, yolum, yeri
O ağac bizim ağacdı
Otum yeri, kolum yeri.

O dağda bir çən görünür
Çəndə bir itən görünür
Qarşıda vətən görünür
Dizim yeri, qolum yeri.

Bu o kənddir, bu o koma
Bir əl yox gözümü yuma
Çatdır məni son arzuma
Qəlbim, qurban olum, yeri.

***

Yenə səhər
Yenə həmin gün şüası
Evdəki tozu göstərir.
Yenə axşam
Qaranlıq boş çarpayını
Saat doqquzu göstərir.

Nə mənası,
Ölmüşəmmi, qalmışammı?
Heç yadına düşürəmmi?
Kimə lazım,
Təkəmmi, qocalmışammı?
içib miskinləşirəmmi?

Aman-güman
Məndə cəmi bir şəklin var
Baxıram əynin köhnəlib.
Həyatdı da
Ömür var, şəkilnən keçir,
İnsan var, şəkildə ölür.

Yenə şəhər
Yenə həmin insan seli
Kölgələr əyilir camda.
Bəlkə də, biz
Ayrı-ayrı evdən çıxıb
Yan-yana itkin düşürük,
Hər gün eyni izdihamda.

***

Sevginin kövrəkliyi qədimliyindəndir.
Hələ eramızdan çox-çox əvvəl
İnsanlar ərlərə və arvadlara bölünüblər
Yəni ibtidai sevgini çoxdan öldürüblər.
İndi dincəlmək üçün ən yaxşı yer
İnsanın yorğun gözləridi.
Sevgi iki nəfər üçün göndərilən
bir ayrılıq xəbəridi.
Unutmaq istədiyini mütləq yadında
saxlamaq lazımdı.
Getməmişdən əvvəl diş kimi çürümək
və yerində laxlamaq lazımdı.
Bəzən fikri danışmaq yox,
lal-dinməz ağlamaq lazımdı.
Mən səni axtardığım yerdə özümü tapdım,
Səni tapdığım yerdə özümü itirdim.
O qədər tək yaşamışam ki,
Çətin bir qadınla ovutmaq olar
bu yalqızlığı.
Məni yalqızlığımın acgözlüyünə bağışla.
Tək idim,
özüm öz çiyinlərimə çuval təki yük idim.
Külək əsdiyi, yağış yağdığı,
qar əridiyi yerə
aparmaq istəyirdi məni,
Getmədim.
İndi ən böyük arzumla
ən böyük ümidimi evləndirirəm.
Utancaq ata kimi divara elə qısılmışam ki,
İnsanlar üzümü daşlardan seçməz.
İnandığım şeyin adı Allahdırsa,
bəs inanmadığımın adı nədi?
Kimsə bunu deməDİ.
Zaman böyüklüyünü gizləmək üçün
Özünü kiçik hissələrə bölüb,
saniyəyə, dəqiqəyə, saata.
İndi ayağına ona görə yıxılmışam ki,
heç vaxt əyilməmişəm həyata.
Səni atsam,
yediyim tikənin sümüyünü
əlimə zillənmiş köpəyə
atdığım kimi atacağam başqa kişiyə.
Yaxşı ki, yanımdasan,
canımı isidirsən üşüyə-üşüyə...

№ 10 (2482) 13 mart 2026-cı il



# DÜNYAYA TÖHFƏ VERMƏK HƏR ÖLKƏNİN İŞİ DEYİL



**Düzdür, bu gün dünyada böyük və varlı ölkələr çoxdur. Və bu böyük və varlı ölkələr dünya siyasətinə, iqtisadiyyatına və eləcə də gündəlik həyat tərzinə diqtə etməyi bacarır. Başqa sözlə demiş olsaq, dünyanın nəhəng dövlətləri öncə özlərinin maddi və mənəvi maraqlarını güdür və kiçik ölkələrə bir çox halda yuxarıdan aşağı baxırlar. Yəni onlar düşünürlər ki, həmin dövlət iqtisadi və hərbi cəhətdən güclüdürsə, digər kiçik və zəif ölkələr onların dediyi ilə oturub-durmalı, el dilində demiş olsaq, çaldıqları havaya oynamalıdırlar.**



Amma Azərbaycan kiçik ölkə olsa da heç vaxt kiməsə, hansısa dövlətəsə yuxarıdan-aşağı baxmayıb, dünyanın bütün dövlətləri ilə isti, səmimi münasibət yaratmaq istəyib. Hansı ki dünyanın böyük ölkələri Azərbaycanın ərazisi 20 faiz işğal olanda bizə heç bir kömək etməyib və dəstək olmayıb. Ən yaxşı halda onlar ikili standartla Azərbaycana yanaşıblar. Daha doğrusu, təcavüzkarın, işğalçının, qarətçinin yanında olublar.

Müstəqillik əldə ediləndən sonra Azərbaycan öz daxili imkanları hesabına həm iqtisadiyyatını qurmağa başladı, həm hərbi sahədə böyük islahatlar apardı və həm də işğal olunmuş 20 faiz torpağını azad etmək üçün çıxış yolları axtardı. Təbii ki, bunlar zaman-zaman əldə edildi. Amma sadəcə olaraq, ölkəmiz ağır və çətin günlər yaşadı. 30 ildə bir milyondan çox məcburi köçkünə və qaçqına şərait yaratmaqla bağlı ciddi addımlar atıldı. Bununla yanaşı, ölkənin iqtisadiyyatında yaranmış durğunluq, tənəzzül zaman-zaman aradan qaldırıldı. Dağ boyda yükü Azərbaycan öz gücü hesabına çəkdi və axırda da qüdrətli bir ölkə yaratdı.

Aydındır ki, Azərbaycanda Ulu Öndər Heydər Əliyev və prezident İlham Əliyev tərəfindən yaradılmış sabitlik, əmin-amanlıq istər-istəməz dünyanın inkişaf etmiş ölkələrinin böyük marağını yaratdı. Bu mənada ABŞ, Çin, Böyük Britaniya, İtaliya, Fransa, Rusiya, Bolqarıstan, Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və çox sayda digər ölkələr Azərbaycana birmənalı olaraq böyük maraq göstərdilər. Heç şübhəsiz, həmin ölkələr tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılmış investisiya bu əlaqələrin möhkəmlənməsində önəmli rol oynadı. Yəni həmin ölkələr gördülər ki, Cənubi Qafqzda ən sabit və sakit ölkə Azərbaycandır və buna görə də milyardlarla dollar məbləğində ölkəmizə neftqaz sənayesində yatırımlar etdilər.

Bununla yanaşı, Fransanın, Türkiyənin, Rusiyanın böyük şirkətləri ölkəmizlə iqtisadi əlaqələr qurdular. İlk növbədə Böyük Britaniyanın BP şirkəti bu sahədə ilk addım atdı, külli miqdarda vəsait qoydu və bir müddətdən sonra onun bəhrəsini gördü. Hansı ki bizim düşmənlərimiz, daha doğrusu, Azərbaycandan xoşu gəlməyən ölkələr beynəlxalq təşkilatlarda dövlətimizə qarşı təxribatçı çıxışlar edir, ölkəmizə marağı olan dövlətləri bu yoldan çəkindirmək istəyirdilər. Amma illər keçdikcə Azərbaycan dünyaya daha sürətlə inteqrasiya olur, böyük iqtisadi layihələr geçəkləşdirir və dünyanın ən inkişaf etmiş ölkələri dövlətimizdən böyük xeyirlər görməyə başladılar.

Ərazi bütövlüyümüz tamamilə bərpa olunandan sonra Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artdı. Bu da ondan irəli gəldi ki, ölkəmizin daha ərazi bütövlüyü ilə bağlı heç bir problemi qalmadı. Ona görə də həm beynəlxalq təşkilatlar, həm də böyük dövlətlər istər-istəməz bizimlə isti münasibətlər yaratdılar. Birləşmiş Millətlər Təşkilatının və ölkəmizin təşəbbüsü ilə Azərbaycanda çox mötəbər siyasi-iqtisadi və mədəni tədbirlər keçirildi. Hansı ki ən inkişaf etmiş ölkələrdə həmin tədbirlər keçirilərkən müəyyən problemlər yaranır və bu tədbirdə iştirak edən ölkələr narazı qalırdı. Ancaq Azərbaycanda dünya səviyyəli tədbirlərin keçirilməsindən BMT-nin baş katibi və dünyanı idarə edən super dövlətlər çox razı qaldılar.

Bu gün Azərbaycan kiçik dövlət olmağına baxmayaraq, dünyada gedən siyasi-iqtisadi və ekoloji problemlərə çox böyük dəstək olur. Hətta ərazilərində müharibə gedən Fələstin kimi, İran kimi yaxın dövlətlərə maddi və mənəvi köməklik göstərir.

Bu günlərdə ölkəmiz Cənab prezident İlham Əliyevin göstərişi ilə İranda müharibədən əziyyət çəkən insanlara tonlarla ərzaq, su, dərman və digər zəruri qida məhsulları göndərilib. Bütün bunlar onu göstərir ki, Azərbaycan sülhsevər dövlətdir və qonşu ölkələrdə, o cümlədən İranda müharibənin yaratdığı böhrana, fəsada laqeyd yanaşa bilmir və onlara öz humanitar yardımını göstərir. Axı bizim İranda 40 milyondan çox qan qardaşımız var. Onları bu çətin və ağır gündə heç vaxt tək buraxmaq olmaz.

Azərbaycan prezidenti İlham Əliyev və Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-İsrail və İran müharibəsinin dayandırılması üçün bu gün hər cür vasitəçilik etməyə hazırdırlar. Çünki bu müharibənin uzanması birmənalı olaraq Yaxın Şərqdə, eləcə də Cənubi Qafqazda vəziyyəti gərginləşdirir və müharibənin genişlənməsinə şərait yaradır. Ona görə də hər iki dövlət başçısı və eləcə də dünyanın digər tanınmış siyasətçiləri bəşəriyyət üçün böyük fəlakət törədə biləcək bu müharibənin qarşısının alınması üçün lazımi addımlar atır. Heç şübhəsiz, müharibə edən ölkələr də bu addımı qiymətləndirməli, minlərlə insanın məhv olmasına, şəhərlərin, qəsəbələrin dağılmasına imkan verməməlidirlər. Çünki heç vaxt müharibə bəşəriyyətə xeyir gətirməyib.

**Müharibə uşaqları yetim qoyub, anaları ağlar qoyub, şəhərləri və kəndləri viran günə salıb. Ona görə də bu gün dünyamıza müharibə yox, sülh və əmin-amanlıq lazımdır. Bax, Azərbaycanın dünyaya inteqerasiya olunması onu deməyə əsas verir ki, bu gün ölkəmiz dünyada sülh, humanistlik və insanpərvərlik nümunəsi kimi tanınır!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Sevil Azadqızı*

## Şəhərin gerçək səhəri...

**Heç yatmayıb elə bil ki, bu şəhər,**
**Üz-gözündən bir yorğunluq tökülür...**
**Yuxusuz tək açıldıqca bu səhər -**
**Dan yeri də incik-incik sökülür...**

**Nə quşların səsi gəlir, eh... nə də...**
**Dad-tam qaldı damaqdakı köhnədə!**
**Son ümid də kiflənəndən təhnədə -**
**Əl utanır, diz titrəyib bükülür!..**

**Aman vermir nəfəs dərə qəhər də,**
**Ün yetməzdi "halal" südlü zəhər də!**
**Sevgi kimi, indi bar da, bəhər də -**
**Açıq-aşkar üzü göyə çəkilir!**

**Son gümandı ağlımdakı dağ, dərə,**
**Xatırlayıb... batıb - çıxdım qan-tərə...**
**Ümid ölən yerdi şəhər, min kərə -**
**Altı, üstü necə gəldi tikilir...**

**Əbülfət Mədətoğlunun bu şeiri müasir şəhər həyatının doğurduğu mənəvi aşınmanı və insanın özünəgəlmə çətinliyini əks etdirən psixoloji-fəlsəfi nümunədir.**

**Müəllif şəhəri canlı varlıq kimi təsvir edir. Şəhərin "üz-gözündən yorğunluq tökülür", o, "yuxusuzdur". Bu, şəhərin artıq dincəlinən, hüzur tapılan yer deyil, gərginlik mənbəyi olduğunu göstərir. Hətta təbiət hadisəsi olan Dan yeri də bu mühitdən "incik-incik sökülür". Şair "Dad-tam qaldı damaqdakı köhnədə" deməklə keçmişə, saflığa duyulan həsrəti ifadə edir. Quş səsinin gəlməməsi təbiətdən qopmuş urbanizasiyanın rəmzidir. "Son ümidin təhnədə kiflənməsi" obrazı çarəsizliyin ən yüksək həddini - ruzi və ümidin belə köhnəlib sıradan çıxdığını simvolizə edir.**

**Müəllif "halal südlü zəhər" ifadəsi ilə təzad yaradaraq (bir-birinə zidd anlayışlar) dövrün paradokslarına toxunur. Sevgini və bəhrəni "üzü göyə çəkilən" (yəni yer üzündən yox olan) müqəddəs dəyərlər kimi qələmə verir.**

**Şeirin sonu sosial tənqidlə bitir. Şəhərin "altı, üstü necə gəldi tikilir" misrası həm real mənada plansız tikintilərə, həm də mənəvi mənada nizamsızlığa işarədir. Şəhər artıq yaşayış yeri deyil, "ümid ölən yer" kimi təqdim olunur.**

**Şeirdə metaforalar (ümidin kiflənməsi, şəhərin yorğunluğu) və epitetlər (incik dan yeri, köhnə dad) üstünlük təşkil edir. Dil sadə olsa da, hər misra ağır bir kədər və pessimist ruh halı ilə yüklənib.**

**Uğurlar olsun həmişə!**

## *Əməkdar artist: ""Kor" rejissorlara rast gəlməmişəm"*



**"Teatrda çalışmasamda, teatrla bağlı arzularım tükənməyib. Ömrümün sonuna qədər teatrla bağlı fikirlərim, düşüncələrim, görmək istədiyim işlər ürəyimdə var olacaq. Sadəcə indi özümü bir az küsmüş, bir az incimiş, bir az haqsızlığa uğramış kimi hesab edirəm. Ona görə bu gün bilmirəm sevinim, yoxsa kədərlənim. Milli teatr günü olsa da, axı mən o səhnədə yoxam".**

Bu sözləri Əməkdar artisti Mehriban Xanlarova Adalet.az-a açıqlamasında söyləyib:

"Bilirsiniz ki, özümü sındıran adam deyiləm. Əvvəldən necə alnıaçıq-üzüağ dayanmışamsa, indi də eləyəm. Milli teatr günü münasibətilə bütün həmkarlarımı təbrik edirəm. Təbii ki, hər kəsin ürəyində arzuladığı bir obraz var ki, bəzi qocaman sənətkarlarımız həmin obrazı yarada bilməyiblər. Qocalıblar, saçları ağarıb, amma hələ arzularına çatmayıblar. Allah həmin qocaman sənətkarları gec də olsa arzuarına çatdırsın. Teatrlarda o qədər aktyorlar var ki, illərlə arzuladıqları obrazları oynamaq üçün həvəslə gözləyirlər. Rejissorlar sanki həmin rolları onlara rəva görmürlər. Həmin aktyorlar "kor" rejissorların əllərində qocalıblar.Çox şükür ki, elə "kor" rejissorlara rast gəlməmişəm ki, məni görməzdən gəlsin. Teatrda ifa etmək istədiyim rolla bağlı hələ ki, düşüncələrim yoxdur. Nə zaman teatra qayıdaramsa, onda bu haqda danışaram. Ömrümün 30 ilini teatra qurban vermişəm. Orda haqqım var".

**Əntiqə KƏRİMZADƏ**

# Türkiyədə Pasxa tətili – inanc, tarix və baharın gözəlliyi bir arada

**Baharın ən gözəl günlərinə təsadüf edən Pasxa bayramı qısa, lakin yadda qalan bir səyahət üçün ideal fürsət yaradır. Bu dövrdə Türkiyə həm təbiətin canlandığı mənzərələri, həm də əsrlər boyu formalaşmış zəngin dini və mədəni irsi ilə seçilən istiqamətlərdən biri kimi diqqət çəkir.**

Fərqli sivilizasiyaların izlərini daşıyan bu torpaqlarda formalaşmış xristian ziyarət marşrutları Pasxa günlərini tarixi və mənəvi atmosferdə keçirmək istəyənlər üçün xüsusi imkan yaradır. Erkən xristianlıq tarixində mühüm rol oynamış Bursa vilayətinin İznik şəhəri bu marşrutların əsas dayanacaqlarından biridir. Tarixdə mühüm ümumxristian kilsə məclislərinin keçirildiyi bu şəhər xristian dünyası üçün böyük əhəmiyyət daşıyır. Digər mühüm istiqamətlərdən biri isə Kapadokyadır. Tarixi mənbələrə görə, vaxtilə təqiblərə məruz qalan xristian icmaları bu bölgədə gizli şəkildə ibadət edərək inanclarını qoruyub saxlayıblar. Bu gün Türkiyə boyunca uzanan ziyarət marşrutları Pasxa bayramını qeyd etmək istəyənlərə erkən xristianlıq tarixinin formalaşdığı məkanlarda fərqli və tarixi bir təcrübə yaşamaq imkanı təqdim edir.

Bursa vilayətinin "Cittaslow" (yavaş şəhər) statusuna malik İznik şəhəri Pasxa tətili üçün ən cəlbedici istiqamətlərdən biri hesab olunur. UNESCO-nun Dünya İrsi üzrə Namizədlər Siyahısına daxil edilən bu qədim şəhər ötən ilin noyabrında Papa XIV Leonun ilk xarici səfəri çərçivəsində ziyarət etdiyi məkanlardan biri kimi də diqqət çəkib.

Tarixdə müqəddəs şəhər kimi tanınan İznik xristian dünyası üçün böyük əhəmiyyət daşıyan iki mühüm ümumxristian kilsə məclisinə ev sahibliyi edib. Məhz burada keçirilən İznik Kilsə Məclisində Pasxa bayramının qeyd olunma tarixi müəyyənləşdirilib. İstanbuldan cəmi bir günlük məsafədə yerləşən şəhər xüsusilə bahar aylarında çiçəklərlə bəzənən mənzərəsi ilə fərqli gözəllik qazanır. Ziyarətçilər burada vaxtilə 7-ci ümumxristian məclisin keçirildiyi ehtimal olunan Ayasofya məscidini ziyarət edə, qədim şəhər divarları boyunca gəzintiyə çıxa və Roma Teatrı ilə tanış ola bilərlər.

İznik eyni zamanda arxeoloji tapıntıları ilə də maraq doğurur. Hisardərə Nekropolunda aşkarlanan və "Yaxşı Çoban İsa" təsviri ilə diqqət çəkən unikal qəbir kamerası şəhərin tarixi irsinin ən maraqlı nümunələrindən sayılır.

Zəngin tarixi ilə yanaşı, İznik sakit və təbiətə yaxın istirahət imkanları da təqdim edir. Şəhərdə göldə kanoe gəzintiləri, təbiət yürüşləri və velosiped turları təşkil olunur, həmçinin göldən yeni tutulmuş balıqdan hazırlanmış yerli təamların dadına baxmaq mümkündür.

Qeyd edək ki, İznik XV-XVII əsrlərdə Osmanlı imperiyasının ən mühüm çini istehsalı mərkəzlərindən biri olub. Bu gün də şəhərdə ənənəvi çini emalatxanalarını ziyarət etmək, ustad dərslərində iştirak etmək və bölgəyə məxsus zərif çini nümunələrini əldə etmək mümkündür.

Pasxa dövründə Türkiyənin bibliya irsi ilə tanış olmaq istəyənlər üçün marşrut ölkənin qərb bölgələrində yerləşən Vəhy Kitabında adı çəkilən Yeddi Kilsənin yerləşdiyi ərazilərə doğru uzanır. Müasir İzmir, Manisa və Dənizli vilayətlərində yerləşən bu məkanlar xristian tarixində xüsusi yer tutur. Rəvayətlərə görə, həvari Yəhya ilahi vəhy zamanı İsa Məsihdən aldığı mesajları bu kilsələrə ünvanlayaraq hər biri üçün fərqli məzmun daşıyan məktublar göndərmişdir.

Tarixi mənbələrə əsasən, bu kilsələrin birincisi Efesdə yerləşirdi. Daha sonra isə Smyrna (indiki İzmir), Perqamon, Tiyatira, Sardis, Filadelfiya və nəhayət Laodikeya kilsələri gəlirdi. Pasxa günlərində bu məkanların qalıqlarını kəşf etməyin ən rahat yolu bölgədə avtomobil icarəyə götürərək səyahəti öz tempinizdə davam etdirməkdir.

Egey sahilləri ilə yaşıl təbiət mənzərələri arasında yerləşən bu tarixi ərazilər xüsusilə bahar aylarında daha cəlbedici görünür. Burada ziyarətçilər həm təbiətin gözəlliyini seyr edir, həm də dərin dini və tarixi irslə yaxından tanış olmaq imkanı qazanırlar.

UNESCO Dünya İrsi siyahısına daxil edilmiş Efes qədim şəhərini ziyarət edənlər yaxınlıqda yerləşən Müqəddəs Məryəmin Evi kimi tanınan ziyarətgahı da görə və bu məkanda keçirilən Pasxa mərasimlərində iştirak edə bilərlər. Pəribacaları və isti hava şarları ilə dünyada məşhur olan Kapadokya təkcə təbiət möcüzələri ilə deyil, həm də xristianlıq tarixinin ən maraqlı səhifələrindən biri ilə diqqət çəkir. Tarixi mənbələrə görə, Roma dövründə təqiblərdən qaçan ilk xristian icmaları sığınacaq olaraq bölgədə Hititlərdən qalan geniş yeraltı yaşayış məskənlərindən istifadə ediblər. Bu yeraltı şəhərlərdə rahiblər monastırlar yaradaraq divarları rəngarəng freskalarla bəzəyiblər.

Bu gün Kapadokyada yerləşən Kaymaklı və Derinkuyu yeraltı şəhərləri ziyarətçiləri sanki əsrlər əvvəlinə aparan nadir tarixi məkanlar kimi böyük maraq doğurur.

Bölgədə dini memarlığın inkişafında Müqəddəs Böyük Vasili mühüm rol oynayıb. Onun rəhbərliyi ilə ilk kilsələr Göreme vadisində inşa edilib. UNESCO Dünya İrsi siyahısına daxil edilən Göreme Açıq Səma Muzeyində yerləşən Tokalı kilsəsi və Qaranlıq kilsə bu gün həmin dövrün ən təsirli nümunələri



sayılır. Zərif tağları və yaxşı qorunmuş freskaları ilə bu abidələr erkən xristian memarlığının diqqətəlayiq nümunələrindəndir. Kapadokya eyni zamanda əsrlərə söykənən şərabçılıq ənənəsi ilə də tanınır.

Bu ənənənin ilk xristian rahiblərinə qədər gedib çıxdığı bildirilir. Bölgəni kəşf edərkən ziyarətçilər MICHELIN ulduzlu restoranlarda təqdim olunan yerli mətbəxin dadına baxa və Kapadokyaya məxsus fərqli şərab nümunələri ilə tanış ola bilərlər. Avanos qəsəbəsində keçirilən qısa ustad dərslərində iştirak edərək ənənəvi dulusçuluq sənətini özünüz də sınaqdan keçirə bilərsiniz. Təxminən 30 dəqiqə davam edən bu emalatxanalar bölgənin əsrlərdir yaşadılan sənət ənənəsini yaxından hiss etmək imkanı yaradır.

Pasxa günlərində mənəvi məzmunlu səyahət üçün istiqamətlərin biri də Türkiyənin cənubundakı Anadolu bölgəsi ola bilər. Xristianlığın ən mühüm həvarilərindən biri hesab olunan Müqəddəs Pavl həyatının böyük hissəsini məhz bu torpaqlarda keçirib və dini təbliğ fəaliyyətini burada aparıb.

Müqəddəs Pavl yolu (St Paul Trail) onun Kiçik Asiya boyunca həyata keçirdiyi missioner səfərlərinin izlərini izləyən məşhur marşrutdur. Bu yol xristianlığın yayılmasında mühüm rol oynamış şəhər və bölgələri əhatə edərək ziyarətçilərə həm tarixi, həm də mənəvi baxımdan zəngin səyahət təcrübəsi təqdim edir.

Marşrut iki fərqli istiqamətdən başlayır: biri qədim Perge şəhərindən, digəri isə Köprülü Kanyon Milli Parkından. Bu iki yol qədim Adada şəhərində birləşir və sonda Isparta vilayətində yerləşən "Cittaslow" statuslu Yalvaç şəhərində tamamlanır. Beləliklə, səyahətçilər həm möhtəşəm təbiət mənzərələri, həm də dərin tarixi irslə müşayiət olunan bir marşrutla tanış olurlar.

**Antalya vilayətinin Demre şəhərində yerləşən Müqəddəs Nikolay kilsəsini də ziyarət edə bilərsiniz. Dünya miqyasında Santa Klaus kimi tanınan Müqəddəs Nikolaya həsr olunmuş bu tarixi kilsədə onun məşhur məzarı da yerləşir.**

## *Nüşabə qəzəbləndi: "Hələ seyr edirəm"*

**Nüşabə Musayeva Hüseyn Məhəmmədoğluna dediyi sözlərə görə od püskürüb.**

Adalet.az xəbər verir ki, Hüseyn Məhəmmədoğlu efirə qoyulan senzura xəbərləri yayımlanandan sonra paylaşımları ilə gündəmdən düşmür. Belə ki siyahıda adı keçən Nüşabə Musayeva danışdığı sözlərə, işlətdiyi ifadələrə görə Hüseyni hədələyib. O, musiqiçiyə bildirib ki, hələ seyr edir: "Səhər duranda gördüm deməsən ki, o siyahıda olanlar səviyyəsizdirlər. Şəxsən mən yaxınlarda sənin səviyyən haqda geniş açıqlama, məlumat verəcəm. Görüm sən kimsən? Sənə bu ixtiyarı kim verib ki, efirdə, cəmiyyət içində təhqir edirsən? Hələ seyr edirəm".

**Əntiqə**

8 may 2007-ci il protokol № 06 ilə Əmirova (Hümbətova) Nuridə Oktay qızının adına Abşeron rayonu Aşağı Güzdək bələdiyyəsi tərəfindən verilmiş 0,08 ha fərdi ev tikmək üçün verilən torpaq sənədi itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi qəzetin əməkdaşı, tanınmış jurnalist

**Nicat Rüstəmovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına və əzizlərinə dərin hüznlə başsağlığı verirlər.

Əlövsət Qaraca Əliyev "Ədalət" qəzetinin əməkdaşı

**Nicat Rüstəmovun**

vaxtsız vəfatından kədərləndiyimi bildirir, redaksiya rəhbərliyinə, üzvlərinə, mərhumun doğmalarına və əzizlərinə dərin hüznlə başsağlığı verir.

Hüsniyyə Əlizadə, İlham bəy və Hacı Məhəmməd **Səxavət Vəliyevə, Siyasət Vəliyevə, Aynurə və Maisə Vəliyevaya** əzizləri

**Vəliyev Ədalət Əli oğlunun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 270
Çapa imzalanmışdır: 12.03.2026